# Mədəniyyət və Turizm Nazirliyinin 2012-ci ildə gördüyü işlər barədə

# HESABAT

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yorulmaz fəaliyyəti, təşkilatçılığı və təşəbbüsü sayəsində 2012-ci ildə ölkəmizin həyatında qazanılan uğurlar cəmiyyətin bütün sahələrini əhatə etmişdir. Dövlət başçısının verdiyi qərarlar, vacib fərman və sərəncamlar bu uğurların başlıca təminatçısıdır.

2012-ci ildə iqtisadiyyatımızın əsas hissələrindən birini təşkil edən neft-qaz sənayesi daha da inkişaf etmiş, digər istehsal sahələri yaradılmış, yeni fabrik və zavodlar tikilmişdir.

Tikinti sektorundakı böyük inkişaf, rayon və şəhərlərin, ölkəmizin demək olar ki, bütün bölgələrinin yenidən qurulması, abadlaşdırılması bütün respublikaya yeni sima bəxş etmiş, vətəndaşların azad və rahat yaşamasına şərait yaratmışdır.

Azərbaycanın xarici əlaqələrinin daha da möhkəmlənməsi, dövlətimizin beynəlxalq mövqeyinin getdikcə güclənməsi və beynəlxalq təşkilatlarla daha sıx və daha səmərəli əlaqələrin qurulması da yola saldığımız ilin uğurlarındandır.

Bütün bunlar 2012-ci ildə Azərbaycanda mədəniyyət və turizm sahələrinin inkişafını təmin etmişdir.

2012-ci ildə Nazirliyin strukturları tərəfindən bir neçə dövlət proqramı və çox sayda Azərbaycan Respublikası Prezidentinin sərəncamları icra olunmuşdur. Yeni zamanın tələbinə uyğun olaraq “Mədəniyyət haqqında qanun” üzərində ciddi iş aparılmış, əslində yeni qanun yaradılmış və Milli Məclis tərəfindən 3-cü oxunuşda qəbul edilmişdir.

Teatr, kino, kitabxana işi və turizm sahələri üzrə Dövlət proqramlarının icrası uğurla davam etdirilməkdədir.

2012-ci ildə qazanılmış nailiyyətlər Ulu öndər Heydər Əliyevin 90 illiyinin qeyd ediləcəyi 2013-cü ildə daha böyük uğurlar əldə etmək üçün münbit zəmin yaratmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin funksional fəaliyyətinin əsasını təşkil edən mədəniyyət və incəsənət müəssisələrinin maddi texniki bazasının möhkəmləndirilməsi, milli mədəni irsin qorunub saxlanılması, kino, turizm, tarix və mədəniyyət qoruqlarının inkişafı və s. istiqamətlər üzrə 2012-ci ilin yekunları milli mədəniyyət mühitini dolğunluğu ilə əks etdirir.

İNCƏSƏNƏT

2012-ci il ərzində mədəniyyət və incəsənət sahəsində ölkəmizdə və xaricdə 100-dən artıq dövlət əhəmiyyətli tədbir keçirilmiş, sərgilər, festivallar və mədəniyyət günləri təşkil edilmişdir.

19 yanvar tarixində Azərbaycan Dövlət Filarmoniyasında 20 yanvar - Şəhidlər gününə həsr olunmuş konsertdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Dövlət Xor Kapellasının ifasında İ.Cenkinsonun “Rekviyem” əsəri səslənmişdir.

18-28 yanvar tarixində Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyi ilə birgə Ankara şəhərində iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 20-ci ildönümünə həsr olunmuş fotosərgi təşkil edilmişdir. Bundan əlavə Ankaradakı Sənət və Heykəl Muzeyində Azərbaycan rəssamlarının 20 yanvar faciəsinə həsr olunmuş əsərlərindən ibarət sərgi təşkil olunmuş, Azərbaycan Dövlət Rəsm Qalereyasının fondundan seçilmiş nümunələr nümayiş etdirilmişdir.

19-28 yanvar tarixində Əl - Füceyrada (BƏƏ) keçirilən V Monodram Beynəlxalq Teatr Festivalına Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti qatılmışdır. Azərbaycan bu festivalda Dövlət Gənc Tamaşaçılar Teatrının Avstriya dramaturqu Peter Turrininin «Axır ki…» monotamaşası ilə çıxış etmişdir.

28 yanvar-3 fevral tarixində Gənc Tamaşaçılar Teatrı italyan dramaturqu Peppino de Filipponun «Don Rafaello trombonçu» tamaşası ilə İran İslam Respublikasında keçirilmiş «Fəcr» Beynəlxalq Teatr Festivalında iştirak etmişdir.

“Azərbaycan gəncliyi 2011-2015-ci illərdə ”Dövlət Proqramı”nın icrası ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinin tədbirlər planına uyğun olaraq yaradıcı gənclərin iştirakı ilə 2-11 fevral tarixində “Gəncliyin səsi” festivalı keçirilmişdir. Festival çərçivəsində gənc ifaçıların, “Buta” gənclər kamera xorunun, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin, Con Tempo ansamblının konsertləri, gənc rəssam Ülvi Musayevin fərdi sərgisinin nümayişi keçirilmişdir.

3 fevral tarixində Azərbaycan Dövlət Filarmoniyasında Ukraynanın tanınmış dirijoru Vladimir Runçakın Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri ilə birgə konserti keçirilmişdir.

10-16 fevral tarixində Muzey Mərkəzində Azərbaycan Rəssamlar İttifaqının 6-cı mikrorayondakı Rəssamlar Evində yaradıcılıq fəaliyyəti ilə məşğul olan rəssamların yaradıcılığının təbliği və əsərlərinin geniş tamaşaçı auditoriyasına nümayiş etdirilməsi məqsədi ilə “6-cı mikrorayon rəssamları” adlı sərgi keçirilmiş və sərgiyə aid nəfis kataloq çap olunmuşdur.

F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupu 2012-ci il 16-18 fevral tarixində Moskva şəhərində İqor Moiseyev adına Dövlət Akademik Rəqs Ansamblının 75 illiyinə həsr olunmuş yubiley gecəsində iştirak etmişdir.

17 fevral tarixində Azərbaycan Dövlət Filarmoniyasında Türkiyənin Əməkdar İncəsənət Xadimi, İstanbul Opera və Balet Teatrının dirijoru Elşad Bağırov, skripka ifaçısı Aleksandr Samoylenko və qoboy ifaçısı Azad Əlizadənin Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri ilə birgə konserti keçirilmişdir.

Əməkdar Artist Natiq Şirinovun rəhbərlik etdiyi “Natiq ritm” qrupu 20-27 fevral tarixində Malaziyanın Perak şəhərində keçirilən “The Royal Belum World Drums Festival 2012” festivalında iştirak etmişdir.

“Xocalı soyqırımının iyirminci ildönümü haqqında” Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 17 yanvar tarixli Sərəncamına uyğun olaraq, 24 fevral 2012-ci il tarixində V.Səmədova adına Sərgi Salonunda Xocalı soyqırımının 20-ci ildönümünə həsr olunmuş rəngkarlıq, qrafika, heykəltəraşlıq və dekorativ tətbiqi sənət əsərlərindən ibarət “Unudulmayan tarix” adlı respublika sərgi-müsabiqəsi keçirilmişdir.

23-26 fevral tarixində Berlində və Parisdə Xocalı faciəsinin 20 illiyi ilə əlaqədar «Xocalı Günləri» adlı tədbirdə Azərbaycan Dövlət Pantomima Teatrı «Unutmayaq» adlı tamaşa ilə iştirak etmişdir.

25 fevral tarixində Azərbaycan Dövlət Filarmoniyasında Xocalı soyqırımının 20 illiyinə həsr olunmuş konsert keçirilmişdir. Tədbirdə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin ifasında Azərbaycan bəstəkarlarının əsərləri səslənmişdir.

20-26 fevral tarixində Bakıda ASSİTEJ-in (Beynəlxalq Uşaq və Gənclər Teatrları Assosiasiyası) İcraiyyə Komitəsinin toplantısı keçirilmişdir. Toplantıda 16 dövlətdən 20-ə yaxın nümayəndə – ASSİTEJ-in prezidenti İvet Hardi (Cənubi Afrika), baş katibi  Ivitsa Simic (Xorvatiya), vitse-prezidentlər  Maria Ines Falkoni (Argentina), Kim Peter Kovaç (ABŞ), Stefan Fişer-Fels (Almaniya), icraçı köməkçi Dora Jelaçiç-Buzimski  (Xorvatiya), maliyyə rəhbəri Noel Cordan (Avstraliya), müşavir Stefan Rabl (Avstriya), Kijimuna Festa Festivalının prodüseri Hisaşi Şimoyama (Yaponiya), 2014-cü ildə Polşada keçiriləcək ASSİTEJ-in Dünya Qurultayının rəhbəri Magdalena Şpak (Polşa), üzvlər  Maria  Luisa Gimenez Kaço (Meksika), Diana Krzanic-Tepavaç (Serbiya), Vigdis Yakobsdottir (Islandiya), Nina Haciyianni (Böyük Britaniya), Marina Medkova (Rusiya), Imran  Xan (Hindistan), Jerome Etoundi (Kamerun) iştirak etmişlər.

Toplantı çərçivəsində fevral ayının 20-də «Marketinq və tamaşaçı şəbəkəsinin yaranması», «Uşaq nağıllarının müasir yozumu», «Uşaq teatrlarında rəqs»  mövzularında fərdi seminarlar keçirilmişdir.

29 fevral - 3 mart tarixində Moldovanın Kişineu şəhərində keçirilən “Mertsişor” Beynəlxalq Musiqi Festivalında xalq artistləri Mələkxanım Əyyubova, Möhlət Müslümov, Fəxrəddin Dadaşov, Azərbaycan Dövlət Opera və Balet Teatrının gənc vokalçıları iştirak etmişlər.

2 mart tarixində Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Bəstəkarlar İttifaqının təşəbbüsü və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Ukrayna bəstəkarlarının əsərlərindən ibarət konsert keçirilmişdir. Tədbirdə Ukraynadan görkəmli bəstəkarlar, musiqişünaslar və solistlər iştirak etmişlər.

6-11 mart tarixində  8 Mart Beynəlxalq Qadınlar Günü  münasibətilə Muzey Mərkəzində “Gözəllik nuru” adlı sərgi və konsert, 7- 9 mart tarixində “LN” incəsənət mərkəzində “Ömrün bəyaz cizgiləri” adlı sərgi keçirilmişlər.

9 mart tarixində Azərbaycan Dövlət Mahnı Teatrında «Zirvə» mükafatının təltifolunma mərasimi keçirilmişdir. *Teatr sənəti üzrə* - Azərbaycan Dövlət Musiqili Komediya Teatrında hazırlanmış N.V.Qoqolun «Evlənmə» tamaşası, *musiqi sənəti üzrə*  - Xalq Artisti, Prezident təqaüdçüsü, «Şöhrət» ordenli professor, Bəstəkarlar İttifaqının  sədri  Firəngiz Əlizadə, *«Debüt» bölməsi üzrə* - «Buta» Kamera Xoru, *təsviri sənət üzrə* - Berlindəki Qotfrid Bena kitabxanasına məxsus bağda Xocalı faciəsinə həsr olunmuş “Müharibə əleyhinə, sülh, dostluq zorakılığa qarşı demokratiya” adlı heykəltəraşlıq kompozisiyasının ucaldılmasına görə Əməkdar İncəsənət Xadimi İbrahim Əhrari, Xalq Rəssamı Salxab  Məmmədov, Əməkdar İncəsənət Xadimi Akif Əsgərov, Əməkdar Rəssam Əli İbadullayev, *kino sahəsi üzrə -* Xalq Artisti, Dövlət mükafatı laureatı «Şöhrət» ordenli kinorejissor Eldar Quliyev, *«Milli sərvət» bölməsi üzrə* - SSRİ xalq artisti, Dövlət mükafatı laureatı, Prezident təqaüdçüsü,  «Şöhrət» ordenli Millət vəkili Zeynəb Xanlarova, *«Azərbaycan mədəniyyətinə dəyərli töhvə»* bölməsi üzrə  - Xalq Artisti, Prezident təqaüdçüsü Nodar Şaşıqoğlu “Zirvə” mükafatına layiq görülmüşlər.

9-16 mart tarixində TÜRKSOY təşkilatının təşəbbüsü ilə Tehran şəhərində İƏT Mədəniyyət İnstitutunda fotosərginin açılış mərasimində Əməkdar Artist, xanəndə Səbuhi İbayev, tarzən Rüfət Hüseynov və kamançaçı Toğrul Əsədullayevdən ibarət muğam üçlüyü iştirak etmişdir.

9-16 mart tarixində Serbiyanın Belqrad şəhərində keçirilmiş XI «Slaviya» Beynəlxalq Teatr Festivalında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kollektivi  «Xəcalət» tamaşası ilə çıxış etmişdir.

13 mart tarixində “Qalereya 1969” Qalereyasında Əməkdar Rəssam Elmira Hüseynovanın əsərlərindən ibarət sərgi təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Fransa Respublikasındakı Səfirliyinin təşəbbüsü ilə 14 mart tarixində Paris şəhərində görkəmli caz ustası Vaqif Mustafazadəyə həsr olunmuş xatirə

gecəsində tanınmış pianoçu, Əməkdar Artist Şahin Növrəsli və onun rəhbərlik etdiyi caz qrupu iştirak etmişdir.

Azərbaycan Respublikasının Böyük Britaniyadakı Səfirliyinin təşəbbüsü ilə 15 mart tarixində London şəhərində Novruz bayramına həsr olunmuş tədbirin keçirilməsi ilə əlaqədar "Şərq çırağı" Uşaq Yaradıcılıq Mərkəzinin rəqs qrupu London şəhərinə ezam olunmuşdur.

16-20 mart tarixində "Qız Qalası" Qalereyasında rəssam Rəşad Mehdiyevin fərdi sərgisi təşkil olunmuşlar.

Moskva şəhərində Novruz bayramına həsr olunmuş tədbirin keçirilməsi ilə əlaqədar R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının kollektivi və Əməkdar Artist Gülyaz Məmmədova, Xalq Artisti Bilal Əliyev, Əməkdar Artist Lalə Məmmədova 16-18 mart tarixində Moskva şəhərinə ezam olunmuşlar.

Böyük mənəvi gücə malik olan, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadan, təbiətin oyanmasının, varlığının canlanmasının müjdəsini verən Novruz bayramı martın 19-da Dənizkənarı Parkda geniş və təntənəli şəkildə qeyd olunmuşdur. Tədbirdə ölkəmizin regionlarını təmsil edən 5000-ə yaxın musiqiçi, təsviri və dekorativ tətbiqi sənət, xalq yaradıcılığı sərgiləri və milli mətbəx nümunələri nümayiş etdirilmişdir. Bayramda həmçinin milli folklor kollektivləri iştirak etmişlər. Azərbaycanın tanınmış estrada ifaçılarının iştirakı ilə konsert proqramları təşkil olunmuşdur.

25 mart - 01 aprel tarixlərində Beynəlxalq Teatr Tənqidçiləri Assosasiyasının Azərbaycan üzrə təmsilçisi, teatrşünas, sənətşünaslıq doktoru, professor, Əməkdar İncəsənət Xadimi Məryəm Əlizadə və Akademik Milli Dram Teatrının direktoru İsrafil İsrafilov Varşava şəhərində keçirilmiş XXIV konfransında iştirak etmişlər.

30 mart tarixində V.Səmədova adına Sərgi salonunda 31 mart azərbaycanlıların soyqırımı gününə həsr olunmuş sərgi keçirilmişdir.

11-18 aprel tarixində Naxçıvan Dövlət Kukla Teatrı Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilmiş III Beynəlxalq «Codari Xayol» Kukla Teatrları Festivalında iştirak etmişdir.

11-25 aprel tarixində Şəki Dövlət Dram Teatrı Türkiyənin Konya şəhərində keçirilmiş «Min nəfəs – bir səs» adlı Beynəlxalq Teatr Festivalında Jan Batist Molyerin «Aldadılmış ər» tamaşası ilə çıxış etmişdir.

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin və Rusiya Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə 12 aprel tarixində Moskva Beynəlxalq Musiqi Evində "Azərbaycan cazının üç nəsli" adlı konsert proqramının keçirilməsi ilə əlaqədar Azərbaycan incəsənət ustaları 11-13 aprel tarixində Moskva şəhərinə ezam olunmuşlar.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Rusiya Federasiyasının dünyaşöhrətli İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru adına layiq görülməsi ilə bağlı keçirilən təqdimolunma mərasimində iştirak etmək üçün Azərbaycan incəsənət ustaları 12-14 aprel tarixində Moskva şəhərinə ezam olunmuşlar.

13-15 aprel tarixində Sumqayıt Musiqili Dram Teatrı Türkmənistanda keçirilmiş "Dirçəliş dövrü və teatr sənəti" adlı Beynəlxalq Teatr Festivalında Tuncer Cucenoğlunun "Ziyarətçi" tamaşası ilə iştirak etmişdir.

Aprel ayının 16-da Bərdə Dövlət Rəsm Qalereyasında Azərbaycan Dövlət Rəsm Qalereyasının bədii fondundan seçilmiş əsərlərdən ibarət sərgi təşkil edilmişdir.

15-22 aprel tarixində Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və Azərbaycan Respublikasının İtaliyadakı Səfirliyinin yaxından köməyi ilə ilk dəfə olaraq İtaliya Respublikasında Azərbaycan Mədəniyyət Günləri keçirilmiş, Nazir müavini Ədalət Vəliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti İtaliyaya ezam olunmuşdur. Mədəniyyət Günləri çərçivəsində Turin, Venesiya, Milan və Roma şəhərlərində Azərbaycan Dövlət Rəqs Ansamblının, "Buta" Kamera Xorunun, "Natiq" ritm qrupunun, Əməkdar Artist Fidan Hacıyevanın, beynəlxalq müsabiqə laureatları – Cavid Səmədovun, İlham Nəzərovun, Azər

Rzazadənin, Xalq Artisti Nəzakət Teymurovanın, istedadlı, gənc ifaçılar – Arzu Əliyevanın, İlkin Əhmədovun, Babək Niftəliyevin iştirakı ilə konsertlər, müxtəlif tədbirlər təşkil edilmişdir.

20 aprel tarixində İtaliyanın Roma şəhərinin “Villa Borghese” parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılış mərasimi olmuşdur. Abidənin müəllifləri Xalq Rəssamı Salxab Məmmədov və Əməkdar Rəssam Əli İbadullayevdir.

İlk konsert Turində, qədim “Calignano” teatrında, ikinci konsert - Venesiyanın “Malibran” teatrında, üçüncü konsert – Cüzeppe Verdi adına Milan Konservatoriyasında böyük uğurla keçirilmişdir. Bağlanış mərasimi və sonuncu konsert aprelin 21-də Roma şəhərinin “Auditorium-Sala Sinopoli” zalında baş tutmuşdur. Tədbirdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyeva iştirak etmişdir.

Aprel ayının 23-dən 25-dək Azərbaycan Dövlət Rus Dram Teatrı M.F.Axundzadənin 200 illik yubileyinə həsr olunmuş «Müsyo Jordan və Dərviş Məstəlişah» tamaşası ilə A.Qriboyedov adına Tbilisi Rus Dram Teatrında çıxış etmişdir.

24 aprel - 6 may tarixində Müasir İncəsənət Muzeyində tanınmış heykəltəraş Aslan Rüstəmovun 80 illik yubileyinə həsr olunmuş Teymur və Mahmud Rüstəmovların sərgisi keçirilmiş və kataloq çap olunmuşdur.

Aprel ayının 29-dan mayın 2-dək Gəncə Dövlət Dram Teatrı «Müsyo Jordan və dərviş Məstəlişah» tamaşası ilə Akademik Milli Dram Teatrının səhnəsində çıxış etmişdir.

Aprel ayının 30-da Akademik Milli Dram Teatrında Əməkdar Artist Həsən Əbluçun 70 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir.

II Respublika Dekorativ – tətbiqi sənət Festivalı çərçivəsində may ayının 1-dən 15-dək Lənkəran şəhərində bölgənin 6 şəhər və rayonundan olan dekorativ – tətbiqi sənət ustalarının iştirakı ilə üçüncü regional sərgi keçirilmişdir.

May ayının 1-dən 17-dək Gəncə Dövlət Dram Teatrı Türkiyədə keçirilmiş XVIII Giresun Belediyyesi Tiyatro Festivalında M.F.Axundzadənin 200 illiyinə həsr olunmuş «Müsyo Jordan və dərviş Məstəlişah» tamaşası ilə çıxış etmişdir.

May ayının 10-dan 13-dək Sankt-Peterburqda Musiqili Teatrların Beynəlxalq Assosiyası, «Sankt-Peterburq» Dövlət Musiqili Kamera Teatrı və Beynəlxalq Teatr İnstitutunun Rusiya Milli Mərkəzi ilə birlikdə keçirtdiyi «Russian musical theater NOW» adlı beynəlxalq konfransında Nazirliyin teatr sektorunun müdiri Naidə İsmayılzadə, Musiqili Komediya Teatrının direktoru Əliqismət Lalayev və teatrın rejissoru Mikayıl Mikayılov iştirak etmişlər.

12-30 may tarixində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində Rusiyanın Əməkdar Rəssamı İqor Burqanovun əsərlərindən ibarət “Müasir xalça” sərgisi təşkil olunmuşdur.

May ayının 14-də R.Behbudov adına Dövlət Mahnı Teatrında görkəmli bəstəkar, SSRİ Xalq Artisti Rauf Hacıyevin anadan olmasının 90 illliyinə həsr olunmuş “Anam, doğma Vətənimsən, Azərbaycanım!” adlı konsert keçirilmişdir.

14-16 may tarixində Şəki şəhərində «Deyilən söz yadigardır» VI Respublika bədii qiraət müsabiqəsi keçirilmişdir. Tədbir M.F.Axundzadənin 200 illik yubileyinə həsr olunmuşdur.

May ayının 15-dən 21-dək Muzey Mərkəzində Azərbaycan rəssamlarının qobelen əsərlərindən ibarət “İmpuls” adlı sərgi keçirilmiş və kataloq çap olunmuşdur.

Əməkdar Rəssam, heykəltəraş Hüseyn Haqverdiyev Q.Qarayevin Moskvada yaşadığı evin binasına xatirə lövhəsinin vurulması ilə bağlı məsələlərin müzakirəsi üçün may ayının 17-dən 20-dək Moskva şəhərinə ezam olunmuşdur.

Azərbaycanın Naftalan şəhəri ilə qardaşlıq münasibətlərində olan Fransanın Leql şəhərində “Leqlin 4 günü” və Oser şəhərində (Burqundiya əyaləti) “Oserin üzüm gülləri” tədbirlərində iştirak etmək üçün muğam triosu 16-21 may tarixində Fransaya ezam olunmuşdur.

May ayının 18-dən 24-dək “Qalereya 1969” Qalereyasında gənc rəssam və heykəltəraşların əsərlərindən ibarət “Gənclik – gələcək” adlı sərgi keçirilmişdir.

May ayının 23-də Beynəlxalq Muğam Mərkəzində görkəmli müğənni, Azərbaycan Respublikasının Xalq Artisti Sara Qədimovanın anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

21-25 may tarixində Dövlət «Yuğ» Teatrı Finlandiyanın İmatra şəhərində keçirilmiş «Ağ və Qara» Beynəlxalq Teatr Festivalında «Kafkadan salam» tamaşası ilə çıxış etmişdir.

II Respublika Dekorativ – Tətbiqi Sənət Festivalı çərçivəsində may ayının 24-dən 28-dək Şəki şəhərində bölgənin 14 şəhər və rayonundan olan dekorativ – tətbiqi sənət ustalarının iştirakı ilə dördüncü, iyun ayının 1-dən 15-dək isə Xaçmaz şəhərində bölgənin 9 şəhər və rayonundan olan dekorativ – tətbiqi sənət ustalarının iştirakı ilə beşinci regional sərgilər keçirilmişdir.

Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyi tərəfindən Vyana şəhərində ölkəmizin 28 may Respublika Günü və Eurovision 2012 mahnı müsabiqəsinin final mərhələsi ilə bağlı caz ifaçılarının iştirakı ilə konsert proqramı təşkil olunmuşdur. Cəmil Əmirovun rəhbərliyi ilə "Savab" caz qrupu konsert proqramında iştirak etmək üçün 25-27 may tarixində Vyanaya ezam olunmuşdur.

25-29 may tarixində Muzey Mərkəzində rəssam Vüqar Muradovun fərdi yaradıcılıq sərgisi keçirilmiş, kataloq çap edilmişdir.

May ayının 26-dan iyunun 3-dək Moldovanın Kişineu şəhərində keçirilmiş Beynəlxalq Teatr Festivalında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı H.Mirələmovun «Xəcalət» tamaşası ilə çıxış etmişdir.

Slovakiya Respublikasında 28 may Respublika Gününə həsr olunmuş konsertdə iştirak etmək üçün dirijor Əyyub Quliyev, Xalq Artisti, tarzən Ramiz Quliyev və xanəndə Babək Niftəliyev Bratislava şəhərinə ezam olunmuşlar.

İstanbul şəhərində Respublika Gününə həsr olunmuş konsertdə iştirak etmək üçün musiqiçilərdən ibarət heyət 27-29 may tarixində Türkiyəyə ezam olunmuşdur.

May ayının 31-dən iyunun 5-dək F.Volkov adına Yaroslavl Dövlət Dram Teatrı Azərbaycan Dövlət Rus Dram Teatrında qastrol tamaşaları ilə çıxış etmişdir.

2012-ci il 31 may- 5 iyun tarixində Ukraynada Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir.

Mədəniyyət Günləri çərçivəsində Kiyev və Odessa şəhərlərində Azərbaycan Dövlət Rəqs Ansamblının, F.Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının, Respublikanın əməkdar artistləri Simarə İmanovanın, Təyyar Bayramovun, Şirzad Fətəliyevin, respublika və beynəlxalq muğam müsabiqələrinin gənc qaliblərinin iştirakı ilə konsertlər keçirilmişdir.

1 iyun tarixində Kiyev Mili Opera Teatrında Mədəniyyət Günlərinin təntənəli açılışı keçirilmişdir. Açılış mərasimində Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Ukrayna Respublikasının mədəniyyət və turizm nazirinin müavini Timofey Koxan giriş sözü ilə çıxış etmişlər. Eyni zamanda teatrın foyesində "Azərbaycan: ənənə və müasirliyin qovşağında" adlı fotosərgi və turizm sərgisi nümayiş etdirilmişdir.

2 iyun tarixində Lesya Ukrainka adına Milli Akademik Rus Dram Teatrında, 4 iyun tarixində Vasilenko adına Odessa Musiqili Dram Teatrında Azərbaycan Dövlət Rus Dram Teatrının quruluşunda M.F.Axundzadənin "Müsyo Jordan və dərviş Məstəli şah" tamaşası nümayiş olunmuşdur.

Odessada davam edən Mədəniyyət Günləri çərçivəsində dünyanın ən möhtəşəm teatrlarından biri sayılan Odessa Opera və Balet Teatrı səhnəsində iyunun 3-də keçirilən növbəti konsert proqramı böyük əks-səda doğurmuşdur. Kiyevdə olduğu kimi, burada da teatrın foyesində fotosərgi və turizm sərgisi nümayiş olunmuşdur.

2012-ci il 6-10 iyun tarixində Qazaxıstanda Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Mədəniyyət Günləri çərçivəsində Qazaxıstanın Astana və Almatı şəhərlərində Azərbaycan Dövlət Rəqs Ansamblının, F.Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının, Respublikanın əməkdar artistləri Simarə İmanovanın, Səbuhi İbayevin, respublika və beynəlxalq muğam müsabiqələrinin gənc qaliblərinin iştirakı ilə konsertlər keçirilmiş, "Azərbaycan: ənənə və müasirlik qovşağında" adlı fotosərgi və turizm sərgisi nümayiş edilmişdir.

İyun ayının 7-də Qazaxıstanın paytaxtı Astanada "Sülh və həmrəylik sarayında" Mədəniyyət Günlərinin təntənəli açılışı olmuşdur. Açılış mərasimində Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva və Qazaxıstan Respublikasının mədəniyyət və informasiya vitse-naziri Askar Buribayev giriş sözü ilə çıxış etmişlər.

Mədəniyyət Günləri çərçivəsində təşkil edilən konsert proqramları və sərgilər böyük uğurla keçmiş və qonaqların rəğbətini qazanmışdır. Mədəniyyət Günlərinin təşkili iki ölkə arasında qarşılıqlı mədəni əməkdaşlığın inkişafına, xalqların bir-birini daha yaxından tanımasına, eyni zamanda ölkəmizin beynəlxalq aləmdəki müsbət imicinin daha da yüksəlməsinə, Azərbaycan mədəniyyəti və incəsənətinin təbliğinə xidmət etmişdir.

1 - 25 iyun tarixində Mirzə Fətəli Axundzadənin 200 illiyinə həsr olunmuş «Sərgüzəşti Mirzə Fətəli Axundzadə» Milli Teatr Festivalı keçirilmişdir. Açılış mərasimi iyun ayının 1-də Mingəçevir şəhərində baş tutmuşdur. Bakı, Lənkəran, Mingəçevir, Qazax, Salyan, Sumqayıt və Qusarda festival çərçivəsində 21 teatrda 24 tamaşa göstərilmişdir.

4 iyun tarixində Akademik Milli Dram Teatrında Xalq Artisti Abbas Mirzə Şərifzadənin 120 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir.

Rusiya Federasiyasının Mədəniyyət Nazirliyinin təşkilatı və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirlyinin maliyyə dəstəyi ilə 5 iyun tarixində Moskva şəhərində Beynəlxalq Musiqi Evində və iyunun 7-də Sankt-Peterburqda "Qaya" Dövlət Ansamblının 50 illiyinə həsr olunmuş yubiley konsertləri keçirilmişdir. Ansanblın kollektivi bu məqsədlə 3- 6 iyun tarixində Rusiyaya ezam olunmuşdur.

6-14 iyun tarixində Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının Azərbaycan Teatr Xadimləri İttifaqı ilə birgə keçirdiyi «Birliyə daxil olan ölkələrin, Baltikyanı dövlətlərin və Gürcüstanın gənc teatr xadimlərinin işlərinə baxış» adlı Beynəlxalq Teatr Festivalında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı U.Şekspirin «On ikinci gecə» tamaşası ilə iştirak etmişdir.

8-10 iyun tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru İsrafil İsrafilov və sənətşünaslıq doktoru Məryəm Əlizadə Xalq Yazıçısı Elçinin Sankt-Peterburq şəhərinin "Baltiyskiy Dom" Teatrında hazırlanmış «Qatil» əsərinin premyerasında iştirak etmişlər.

Koreyanın Yosu şəhərində təşkil olunmuş "Canlı Okean və Sahil" mövzusunda "Expo-2012" Beynəlxalq Sərgisi çərçivəsində Azərbaycan Milli Gününün açılış mərasimində iştirak etmək məqsədi ilə Azərbaycan Dövlət Rəqs Ansamblı, «Natiq» ritm qrupu, skripka ifaçısı Səlim Abbasov 8-14 iyun tarixində Koreyanın Yosu şəhərinə ezam olunmuşlar.

2012-ci il 17 - 21 iyun tarixində Türkiyədə Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Bu münasibətlə Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin başçılığı ilə Azərbaycan mədəniyyət və incəsənət xadimlərindən ibarət nümayəndə heyəti Türkiyədə səfərdə olmuşdur.

Mədəniyyət Günlərində Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Azərbaycan Dövlət Rəqs ansamblı, Xalq Artisti Samir Cəfərov, əməkdar artistlər Şirzad Fətəliyev, Azərin, Sahib Paşazadə, beynəlxalq müsabiqə laureatları Aygün Zeynalova, Azər Rzazadə, Elvin Qəniyev, muğam müsabiqəsi laureatları Babək Niftəliyev, Arzu Əliyeva çıxış etmişlər. Ankarada Kiçik Teatr səhnəsində və İzmirdə Atatürk Kültür Mərkəzində Azərbaycan incəsənət xadimlərinin iştirakı ilə konsertlər keçirilmişdir. Ankara Cem Modern sərgi salonunda rəsm, xalça, milli geyim və tətbiqi sənət sərgiləri nümayiş olunmuşdur. Sərgidə Azərbaycan Dövlət Rəsm Qalereyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin fondlarından seçilmiş, boyakarlıq, heykəltəraşlıq, misgərlik, xalçaçılıq nümunələri, qədim musiqi alətləri, "Bakı" Milli Geyim Evinin kişi və qadın geyimləri, Elbəy Rzaquliyev, Kamal Əhməd, Oqtay Şıxəliyev, Qafar Seyfullayev, Davud Kazımov, Əyyub Hüseynov, Hüseyn Haqverdiyev və digər tanınmış rəssamlarla yanaşı, Emin Əsgərov, Anar Hüseynzadə, Adil Yusifov kimi gənc rəssamların əsərləri nümayiş olunmuşdur. Mədəniyyət Günləri çərçivəsində Ankarada dahi Azərbaycan şairi

Nizami Gəncəvinin 870 illiyinə həsr olunmuş elmi konfransda millət vəkili, professor Nizami Cəfərov və Xalq Artisti, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, professor Firəngiz Əlizadə, professor Əflatun Nemətzadə məruzələrlə çıxış etmişlər.

4-8 iyul tarixində "Ənənə və Müasirlik" adlı VI Moskva Beynəlxalq İncəsənət Festivalında Azərbaycan rəssamları Rəşad Mehdiyev və Məryəm Ələkbərlinin əsərləri nümayiş olunmuşdur. Hər iki rəssam səsvermə yolu ilə tamaşaçıların və münsiflər heyətinin mükafatını almışlar: Məryəm Ələkbərli "Qızılgül, qızılgül, qızılgül" işinə görə rəssamlıq istiqamətində "Yeni baxışa görə", Rəşad Mehdiyev isə "Leyla" işinə görə "Rəssamlıq" istiqamətində "Milli özgürlüyə görə" nominasiyalarında qalib elan olunmuşdur. Bundan əlavə R.Mehdyev Rusiya Rəssamlıq (İmperator) Akademiyasının fəxri üzvü seçilmişdir.

«Azərbaycan teatrı 2009-2010-cu illərdə» Dövlət Proqramının 2.21 bəndinin icrasını təmin etmək məqsədilə Rusiyanın Əməkdar Mədəniyyət İşçisi, işıq üzrə rəssam, Sankt-Peterburqda «Teatr üçün işıq» yaradıcılıq emalatxanasının rəhbəri Yevgeni Qanzburq və Rusiyanın bir çox teatrlarında quruluşçu rəssam kimi fəaliyyət göstərən Aleksandr Xramsov 16-18 iyul tarixində Bakıya dəvət olunmuşlar.

Hesabat ilində, "Alüminium" IV Beynəlxalq Müasir İncəsənət Biennalesinin kataloqu çap olunmuş və 21 iyun tarixində təqdimat mərasimi keçirilmişdir.

"Bəhruz Kəngərlinin 120 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 aprel 2012-ci il tarixli Sərəncamına əsasən 22 iyun tarixində Azərbaycan Milli İncəsənət Muzeyində rəssamın 120 illiyinə həsr olunmuş sərgi təşkil olunmuş, əsərlərindən ibarət kataloq çap olunmuşdur.

24 iyul - 5 avqust tarixində Heydər Əliyev Fondunun və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Qəbələdə IV Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda Rusiya, Böyük Britaniya, Polşa, Sloveniya, Fransa, ABŞ, İtaliya, İsveçrə, Almaniyadan dünya şöhrətli musiqiçilər və kollektivlər - Yuri Başmetin rəhbərlik etdiyi "Moskva solistləri" orkestri, London Kral Filarmonik Orkestri, Boris Berezovski, Sergey Krılov, Dmitri Yablonski, Mixal Nesteroviç, Şarl Dütua, Klaudia Vandelli, Moyka Zlobko və başqaları iştirak etmişlər. Festival çərçivəsində SSRİ Xalq Artisti Müslüm Maqomayevin 70 illik yubileyinə, SSRİ xalq artistləri, görkəmli bəstəkarlar Fikrət Əmirovun 90 və Niyazinin 100 illiyinə həsr olunmuş konsertlər keçirilmişdir.

Avqust ayının 1-dən 7-dək Qırğızıstan Respublikasının İssık-Kul vilayətinin Çolpan-Ata şəhərindəki tarix-mədəni muzey-qoruğunun bazasında təşkil edilmiş türkdilli ölkələrin (Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan) rəssamlarının əsərlərindən ibarət sərgidə Azərbaycan Rəssamlar İttifaqının üzvü, rəssam Eldar Babazadə iştirak etmişdir.

«Gut İmmlinq Chiemqau-2012» Beynəlxalq Opera Festivalının bədii rəhbəri, tanınmış dirijor Korneliya fon Kerrsenbrokun dəvəti ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının simfonik orkestri bu festivalda iştirak etmək üçün 8 - 13 avqust tarixində Almaniyanın Münhen şəhərinə ezam edilmişdir.

26 avqust tarixində Niaqara Musiqi Festivalı çərçivəsində Azərbaycanın klassik və muğam musiqiçilərinin iştirakı ilə konsert keçirilmişdir.

6-13 sentyabr tarixində Başqırdıstanın Ufa şəhərində keçirilmiş türkdilli xalqların «Tuğanlıq» V Beynəlxalq Teatr Festivalında Gəncə Dövlət Dram Teatrı dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin «Müsyo Jordan və dərviş Məstəlişah» tamaşası ilə iştirak etmişdir.

7-14 sentyabr tarixində Belarusiyanin Brest şəhərində ənənəvi "Belaya Veja" Teatr Festivalı keçirilmişdir. Gənc Tamaşaçılar Teatrı adı çəkilən festivalda P. de Filipponun "Don Rafael trombonçu" tamaşası ilə çıxış etmişdir.

Sentyabr ayının 14-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında 140-cı teatr mösümünün açılış mərasimi keçirilmişdir.

14-30 sentyabr tarixində Gürcüstanın Tbilisi şəhərində keçirilən Beynəlxalq Teatr Festivalında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kollektivi Elçinin «Şekspir» tamaşası ilə çıxış etmişdir.

Sentyabr ayının 20-dən oktyabr ayının 20-dək Türkiyənin Çanıkrı şəhərində keçirilən Türk dünyası heykəltəraşlarının simpoziumunda ölkəmizi heykəltəraş, Azərbaycan Rəssamlar İttifaqının üzvü Novruz Məmmədov təmsil etmişdir.

18 - 29 sentyabr tarixində Heydər Əliyev Fondunun və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Bakıda IV Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda Rusiya, Türkiyə, ABŞ, Fransa, Almaniya, İtaliyadan dünya şöhrətli musiqiçilər və kollektivlər – "Moskva virtuozları" kamera orkestri, Köln kamera orkestri, Zaxar Bronun rəhbərliyi ilə kamera orkestri, "Signum" saksofon kvarteti, dirijorlar Vladimir Spivakov, Gürer Aykal, Canluka Marçiano, skripkaçı Solenne Paydassi, pianoçu İlya Maksimov, violonçel ifaçısı Kristof Kruaze, fleytaçı Anna de La Veqa və başqaları iştirak etmişlər.

Sentyabr ayının 22-dən 29-dək zərgər-dizayner Ramin Ağayev "Obraz və Forma" adlı X Beynəlxalq Gənc Dizaynerlərin Zərgərlik Əşyaları Müsabiqəsində iştirak etmək üçün Sankt-Peterburq şəhərinə ezam olunmuşdur.

24 sentyabr – 3 oktyabr tarixində Azərbaycan Dövlət Rus Dram Teatrı Mirzə Fətəli Axundzadənin "Müsyo Jordan və dərviş Məstəlişah" tamaşası ilə Rusiyanın Sankt-Peterburq və Yaroslavl şəhərlərində qastrol səfərində olmuşdur.

1-7 oktyabr tarixində Rusiyanın Həştərxan vilayətinin Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən «Kaspiyskiy bereq» adlı III Beynəlxalq Teatr Festivalında Azərbaycan Dövlət Kukla Teatrı «Ağ və Qara» tamaşası ilə iştirak etmişdir.

30 sentyabr-15 oktyabr tarixində Dərbənd Dövlət Azərbaycan Dram Teatrı Bakı, Sumqayıt və Xırdalan şəhərlərində, Xaçmaz, Quba, Şabran, Siyəzən, Biləsuvar, Cəlilabad, Masallı və Lənkəran rayonlarında qastrol səfərində olmuş, C.Cabbarlının "Aydın" və A.Saqarelinin "Xanuma " tamaşalarını göstərmişdir.

Oktyabrın 4-də "Buta" Sarayında, oktyabrın 5-də "Yaxt-Klub"da Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçıları üçün Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsertlər təşkil edilmişdir.

Oktyabrın 7-də Heydər Əliyev Sarayında görkəmli müğənni, SSRİ Xalq Artisti Müslüm Maqomayevin 70 illiyinə həsr olunmuş "Ты моя мелодия" adlı yubiley gecəsi keçirilmişdir. Tədbirdə Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri, dirijorlar Rauf Abdullayev, Yalçın Adıgözəlov, Rusiyanın tanınmış sənətkarları İosif Kobzon, Larisa Dolina, Tamara Qvertsiteli, Lev Leşenko, Emin Ağalarov, Samir Cəfərov və başqaları iştirak etmişlər.

7-10 oktyabr tarixində Belarus Respublikasında Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Mədəniyyət Günləri çərçivəsində foto və turizm sərgiləri, milli filmlərimiz, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında Q.Qarayevin "Yeddi gözəl" baleti nümayiş olunmuşdur.

Oktyabr ayının 9-dan 15-dək Milli Olimpiya Komitəsinin 20 illik yubileyinə həsr olunmuş Azərbaycan rəssamlarının əsərlərindən ibarət "İdman İncəsənət" (Sport-Art) sərgisi təşkil olunmuş və sərgidə rəssamların mövzuya aid yeni təsviri sənət əsərləri nümayiş etdirilimişdir.

Oktyabr ayının 12-də Azərbaycan Dövlət Filarmoniyasında dahi Azərbaycan dirijoru və bəstəkarı Niyazinin 100 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir.

17 oktyabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında görkəmli kaman ustası, Xalq Artisti, Prezident təqaüdçüsü, Heydər Əliyev Fondunun mükafatçısı, «Şöhrət» və «İstiqlal » ordenli Habil Əliyevin 85 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycanla Fransa arasında diplomatik əlaqələrin qurulmasının 20-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər çərçivəsində 19 oktyabrda Reims və 27 oktyabr Paris şəhərlərində konsertlər keçirilmişdir. Tədbirlərdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, UNESKO və ISESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyeva iştirak etmişdir. Oktyabr – noyabr aylarında Azərbaycan musiqiçiləri Salon-Şampan, Nior, Konyak, Ramoranten- Lantene şəhərlərində də konsert proqramları ilə çıxış etmişlər.

25 - 29 oktyabr tarixində Paris şəhərində keçirilən "Payız salonu" sərgisində Azərbaycan rəssamı Niyaz Nəcəfov iştirak etmişdir.

31 oktyabr tarixində Bakı şəhərində SSRİ Xalq Artisti görkəmli müğənni Bülbülün monumental abidəsi ucaldılmışdır. Abidənin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və respublikanın tanınmış musiqi xadimləri, rəssamlar və heykəltəraşlar, o cümlədən Vokalçıların Bülbül adına VI Beynəlxalq Müsabiqəsinin münsiflər heyətinin üzvləri iştirak etmişlər.

29 oktyabr – 4 noyabr tarixində Mədəniyyət və Turizm Nazirliyinin və Bülbül Fondunun təşkilatçılığı ilə Bakı şəhərində Vokalçıların Bülbül adına VI Beynəlxalq müsabiqəsi keçirilmişdir. Müsabiqə Azərbaycan vokal sənətinin banisi, SSRİ xalq artisti, böyük müğənni Bülbülün anadan olmasının 115 illiyinə həsr olunmuşdur. Müsabiqənin beynəlxalq tərkibli münsiflər heyətinə məşhur müğənni, Rusiyanın Xalq Artisti, professor Sergey Leyferkus rəhbərlik etmişdir. Əvvəlki illərdən fərqli olaraq, ilk dəfə müsabiqə çərçivəsində Vokalçıların Yarmarkası keçirilmişdir. Müsabiqənin və Yarmarkanın münsiflər heyətinə bu dəfə yalnız müğənnilər deyil, eyni zamanda tanınmış dirijorlar, menecerlər, prodüsserlər, opera teatrlarının rəhbərləri daxil edilmişdir. Münsiflər heyətinin qərarı ilə Türkiyə müğənnisi Dəniz Yetim Qran-Pri mükafatına, Yusif Eyvazov (Azərbaycan) I yerə, Tatyana Bojenko (Rusiya) II yerə, Olqa Kulçinskaya (Ukrayna) III yerə, İrina Kostina (Ukrayna) və Valentin Anikin (Rusiya) IV yerə layiq görülmüşdür. Noyabrın 4-də Azərbaycan Dövlət Filarmoniyasında qaliblərin təltif olunma mərasimi və Bülbülün yubiley gecəsi keçirilmişdir. Tədbirdə laureatlar, münsiflər heyətinin üzvləri və xarici ölkələrdən fəxri qonaqlar iştirak etmişlər.

5-6 noyabr tarixində Bakıda «Azərbaycan teatrı 2009-2019-cu illərdə» Dövlət Proqramının 2.15-ci bəndinə əsasən müasir dövrün teatr problemlərinə həsr olunmuş Beynəlxalq Teatr Konfransı keçirilmişdir. Tədbirdə MDB, Avropa, Afrika, Amerika və Asiya ölkələrindən 67 nəfər qonaq iştirak etmişdir. Onların arasında Litva Mədəniyyət Nazirinin müavini Deyvidas Staponkus, Beynəlxalq Teatr İnstitutunun baş direktoru Tobias Byankone, məhşur Polşa dramaturqu, ssenarist və rejissor Kşiştof Zanussi, Roma Teatrının bədii rəhbəri Fabio Tolledi, UNESKO-nun Sülh Artisti və xoşməramlı səfiri Beynəlxalq Teatr İnstitutunun vitse-prezidenti, Sudan Respublikasının görkəmli teatr xadimi Əli Mahdi, ASSİTEJ-nin prezidenti İvetta Hardi, Sverdovsk Musiqili Komediya Teatrının direktoru, TXİ-nın katibi Mixail Safronov və s. kimi məşhur teatr xadimləri olmuşdur. Konfrans çərçivəsində noyabrın 4-də Azərbaycan Dövlət Rus Dram Teatrında Litvanın görkəmli teatr və kino aktyorları, xalq artistləri Reqimantas Adomaytis və Yuozas Budraytisin iştirakı ilə yaradıcılıq gecəsi, noyabrın 5-də Azərbaycan Dövlət Rus Dram Teatrında Cənubi Afrika Respublikasının tanınmış teatr və televiziya ulduzu Tembi Mtshalinin iştirakı ilə «Qadın intizarı», noyabrın 6-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Səudiyyə Ərəbistanı Teatrının ifasında «Vağzal heç yerə getmir» tamaşaları göstərilmişdir. Tədbirlər zamanı Birinci Bakı Beynəlxalq Teatr Konfransına, Slovakiya teatr tarixinə, M.F.Axundzadənin 200 illiynə həsr olunmuş foto-sərgilər nümayiş olunmuş, «Milli idenfikasiya və inkişaf» komitəsinin idarə heyətinin toplantısı keçirilmişdir.

11-15 noyabr tarixində Moldova Respublikasında Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Nazir müavini Ədalət Vəliyevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinə Teatr Xadimləri İttifaqının sədri, Xalq Artisti Azər Paşa Nemətov, Milli Konservatoriyanın rektoru, Xalq Artisti Siyavuş Kərimi və Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq Rəssamı Ağəli İbrahimov, caz musiqi qrupu, Azərbaycan Dövlət Rus Dram Teatrının kollektivi daxil olmuşlar. Kişineu, Komrat, Beltsı şəhərlərində Mədəniyyət Günləri çərçivəsində caz konserti, foto və turizm sərgiləri, milli kino və Azərbaycan Dövlət Rus Dram Teatrının ifasında M.F.Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah" tamaşası nümayiş olunmuşdur. Noyabr ayının 13-də Kişineu şəhərində Moldova Azərbaycanlıları Konqresinin prezidenti Vüqar Novruzovun şəxsi təşəbbüsü və maliyyə dəstəyi ilə Nizami parkının açılışı olmuş, noyabr ayının 14-də həmin Konqresin 4 dildə (Azərbaycan, rus, moldova və rumın) nəşr etdiyi "Nizaminin aforizmləri" miniatür kitabının təqdimat mərasimi keçirilmişdir.

Noyabr ayının 13-dən 16-dək Rusiyanın tanınmış fotoqrafı Vladimir İvanoviç Boqdanovskinin əsərlərindən ibarət "Dostluğun ipək yolu" və Azərbaycan fotoqraflarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş "Müharibənin uzun sürən

əks-sədası" adlı sərgi təşkil olunmuşdur. Sərgidə müəllifin Azərbaycana səfəri zamanı fotolentə köçürdüyü fotoşəkillər və Azərbaycan Fotoqraflar Birliyi üzvlərinin Qarabağ müharibəsinə həsr olunmuş əsərləri nümayiş etdirilmişdir. Sərginin açılış mərasimində iştirak etmək üçün V.İ.Boqdanovskinin Bakıya səfəri təşkil olunmuşdur.

Noyabrın 14-də Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Respublikasının xalq artisti, milli ifaçılıq sənətinin görkəmli nümayəndəsi Şövkət Ələkbərovanın anadan olmasının 90 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilmişdir. Gecədə Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev ön sözlə çıxış etmişdir. Tədbirdə Xalq Artisti Ağaverdi Paşayevin rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, xalq artistləri İlhamə Quliyeva, Faiq Sücəddinov, Aygün Bayramova, Nəzakət Teymurova, əməkdar artistlər Firuzə İbadova, Aybəniz Haşimova, Təyyar Bayramov, Aygün Hümbətova, Nuriyyə Hüseynova, Teyyub Aslanov, Anar Şuşalı, gənc ifaçılar Arzu Əliyeva iştirak etmişlər. Gecədə Şövkət Ələkbərovanın ifasında videokadrlar göstərilmiş, filarmoniyanın foyesində sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi nümayiş edilmişdir.

14-16 noyabr tarixində Həştərxan Dövlət Gənc Tamaşaçılar Teatrı "Fyodr dayı, Məstan və Toplan" tamaşası ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında çıxış etmişdir.

Noyabr ayının 15-də Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 20 illiyi ilə əlaqədar Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycanın İtaliyadakı Səfirliyinin təşkilatcılığı və Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Roma şəhərində məşhur Auditorium konsert kompleksinin ən böyük zalı – Santa Sesiliya zalında təntənəli mərasim və konsert keçirilmişdir. Mərasimin rəsmi hissəsində Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev cıxış edərək Azərbaycanla İtaliya arasında son 20 ildə müxtəlif sahələrdə qurulmuş əlaqələr haqqında məlumat verilmişdir. Sonra konsertin italiyalı aparıcısı Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın təbrik məktubunu oxumuşdur. Mərasimin bədii hissəsində tamaşaçılara Qara Qarayev adına Dövlət Kamera Orkrestri, Xalq Artisti, dirijor Teymur Goyçayev, xalq artistləri Alim Qasımov, Samir Cəfərov, Murad Hüseynov, əməkdar artistlər Fərqanə Qasımova, Aygün Zeynalova, Sahib Paşazadənin rəhbərliyi ilə "Muğam" instrumental ansamblı, tanınmış balaban ifaçısı Əlixan Səmədov, respublika muğam müsabiqələrinin qalibləri Kamilə Nəbiyeva, Atabəy İsmayılov, Əli Hacızadə, beynəlxalq müsabiqə laureatı Ümidə Abasovanın iştirakı ilə konsert proqramı təqdim olunmuşdur. Konsert proqramına Azərbaycan xalq mahnı və rəqsləri, muğam fraqmentləri, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rauf Hacıyev, Tofiq Quliyev, Musa Mirzəyev, Həsən Rzayev, Ələkbər Tağıyev, Ernesto de Kurtisin əsərləri daxil edilmişdir.

16 noyabr tarixində Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı Səfiliyinin təşəbbüsü ilə Macarıstanın Budapeşt şəhərində Xalq Artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə Duna Simfonik Orkestri və vokalçılar Xalq Artisti Azər Zeynalov və Əməkdar Artist Gülnaz İsmayılovanın iştirakı ilə görkəmli sənətkarlar Niyazinin 100 və Fikrət Əmirovun 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

18-21 noyabr tarixində Azərbaycanda Qazaxıstan Respublikasının Mədəniyyət Günləri keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Qazaxıstan incəsənət ustalarının iştirakı ilə qala-konsert, habelə teatrın foyesində foto-sərgi nümayiş olunmuşdur.

22-30 noyabr tarixində Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə Azərbaycanda "Fikrət Əmirov-90" Musiqi Festivalı keçirilmişdir. Festival münasibəti ilə Heydər Əliyev Sarayında qala-konsert təşkil edilmiş, sarayın foyesində sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi nümayiş olunmuşdur.

Festival çərçivəsində Azərbaycan Dövlət Filarmoniyasında Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin, Q.Qarayev adına Dövlət Kamera Orkestrinin, F.Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının, Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin, Cəmil Əmirovun rəhbərliyi ilə instrumental qrupun ifasında silsilə konsertlər təşkil olunmuş,

bəstəkarın unudulmaz əsərləri səslənmişdir. Festivalda F.Əmirov adına Uşaq İncəsənət Məktəbinin şagirdləri də konsert proqramı ilə çıxış etmişlər.

27 noyabr - 2 dekabr tarixində Azərbaycan Respublikasında Küveyt Dövlətinin Mədəniyyət Günləri keçirilmişdir. Mədəniyyət Günləri çərçivəsində Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının sərgi salonunda Küveytin tarix və mədəniyyətini, mənzərələrini və turizm imkanlarını nümayiş etdirən fotosərgi və Azərbaycan Yazıçılar İttifaqında Şeyxə Suad Məhəmməd Əl-Sabahın "Məni günəşə apar" şeir kitabının təqdimatı və yazıçılarla görüş təşkil olunmuşdur. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Sərgi salonunda təşkil olunan sərgidə mədəni ictimaiyyət, kütləvi informasiya vasitələri (KİV) və mətbuat təmsilçiləri də iştirak etmişdir.

Xalq Rəssamı Hüseyn Əliyevin yaradıcılığının təbliği, bədii irsinin qorunması, əsərlərin bərpası və "Lider " televiziyasında ekspozisiyasının qurulması məqsədilə "Şuşenskoye" Tarixi-Etnoqrafik Qoruq-Muzeyindən rəssamın əsərləri Azərbaycana sərgi üçün gətirilmişdir.

2013-cü ilin yanvar-fevral aylarında İran İslam Respublikasının Tehran şəhərində keçiriləcək ənənəvi «Fəcr» Beynəlxalq Teatr Festivalında iştirakçı dövlətlərin nümayəndə heyətlərinin 3-7 dekabr 2012-ci il tarixində toplantısı təşkil olunmuşdur. Toplantıda Nazirliyin nümayəndəsi və Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru Əliqismət Lalayev iştirak etmişdir.

Polşanın qədim paytaxtı Qniezno şəhərində Azərbaycan-Polşa diplomatik əlaqələrinə həsr olunmuş "Dostluq" abidəsinin ucaldılması ilə bağlı son tamamlama və texniki işlərin görülməsi üçün abidənin həmmüəllifi, Əməkdar Rəssam Əli İbadullayev noyabr ayının 26-dan dekabr ayının 2-dək Almaniyanın Berlin şəhərinə ezam edilmişdir.

3-9 dekabr tarixində Heydər Əliyev Fondu, Mstislav Rostropoviç Fondu və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Bakıda VI Beynəlxalq Rostropoviç Festivalı keçirilmişdir. Festival Mstislav Rostropoviçin anadan olmasının 85 illiyinə həsr edilmişdir. Festivalda Rusiya, İtaliya, Bolqaristan, Litva və Böyük Britaniyadan dünya şöhrətli musiqiçilər və kollektivlər – Zubin Meta, Enriko Dindo, Stüart Nil, Francesko Demuro,Maksim Vengerov, Plamena Mangova, Sergey Krılov, Badri Maysuradze, Maggio Musicale Florentino simfonik orkestri, İngilis və Litva Kamera Orkestrləri iştirak etmişlər.

4 dekabr tarixində Azərbaycan Respublikası ilə Sankt-Peterburq şəhəri arasında mədəni və humanitar əməkdaşlıq çərçivəsində Heydər Əliyev Sarayında görkəmli müğənni, SSRİ Xalq Artisti Edita Pyexanın anadan olmasının 75, yaradıcılıq fəaliyyətinin 55 illiyinə həsr olunmuş konsert təşkil edilmişdir.

8 dekabr tarixində görkəmli tarzən, Azərbaycan Respublikasının Xalq Artisti Əhmədxan Bakıxanovun anadan olmasının 120 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Tədbirdə Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin Xalq Artisti Möhlət Müslümovun rəhbərlik etdiyi Ə.Bakıxanov adına xalq çalğı alətləri ansamblı və solistlər çıxış etmişlər.

10 dekabr tarixində Şərqdə peşəkar musiqi təhsili almış ilk qadın-bəstəkar Ağabacı Rzayevanın 100 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Azərbaycan Dövlət Mahnı Teatrında təşkil olunmuş tədbirdə Nazir müavini Ədalət Vəliyev çıxış etmiş, tanınmış bəstəkarlar, musiqişünaslar, solistlər və ifaçılar iştirak etmişlər.

10-14 dekabr tarixində Azərbaycanda Çin Xalq Respublikasının Mədəniyyət Günləri keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində Çin rəssamlarının əsərlərindən ibarət "Əlvan fırçalarla boyanmış ipək yolu" adlı rəsm sərgisi nümayiş olunmuş, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Qansu Teatrı"nın "Dunxuan mağarasının cazibəsi" rəqs-tamaşası göstərilmişdir.

12 dekabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 9-cu ildönümünə həsr olunmuş anım gecəsi keçirilmiş, tədbirdə Q.Qarayev adına Dövlət Kamera Orkestrinin ifasında Azərbaycan bəstəkarlarının əsərləri səslənmişdir.

9-16 dekabr tarixində Bakı şəhərində Azərbaycan Rəssamlar İttifaqı və “Yarat!” İncəsənət Məkanı ilə birlikdə “Zamanın simaları” mövzusunda “Alüminium” V Beynəlxalq Müasir İncəsənət Biennalesi keçirilmişdir. Biennale çərçivəsində Bakı şəhərindəki 15 qalereya və muzeydə müasir incəsənət sərgiləri təşkil olunmuşdur. Biennaledə Azərbaycan rəssamları ilə yanaşı Gürcüstan, Qırğızıstan, Litva, Türkiyə, Rusiya, Fransa, Almaniya, İspaniya, Norveç, Özbəkistan, Danimarka, ABŞ, Pakistan, Əfqanıstandan olan 50-dək rəssam, sənətşünas və kurator iştirak etmişdir. Bir həftə ərzində Bakı şəhərindəki dövlət və özəl rəsm qalereyalarında təşkil olunmuş sərgilərdə Rusiya təmsilçiləri Rauf Məmmədov, Abbas Kazımov, Vladimir Nasedkin, Fransa təmsilçilçiləri Jak Krenn, Şalva Xaxanaşvili, Qırğızıstan təmsilçiləri Talant Oqobayev, Yuristanbek Şiqayev, “Yarat!” Müasir İncəsənət Məkanında Özbəkistan təmsilçiləri Sancər Cabbarov, Aleksandr Nikolayev, Almaniya təmsilçiləri Seiqfred Horst, Birgitte Stanke, Kerstin Router, Pakistan təmsilçiləri Hajra Haider, Muhammed Zişan və b. tanınmış müasir incəsənət ustalarının əsərləri nümayiş olunmuşdur. “Qız Qalası” Qalereyasında “Rəssamlar-rəssamlardan” adlı sərgi təşkil edilmişdir. Keçirilən sərgilər yerli və xarici KİV-də geniş işıqlandırılmışdır.

Azərbaycan Dövlət Rəsm Qalereyasının fondundan 15 ədəd təsviri sənət əsəri iki il müddətinə Azərbaycan Respublikasının Litva Respublikasındakı Səfirliyinin binasının tərtibatı məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müvəqqəti təhvil verilmişdir.

14-18 dekabr tarixində Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı və dəstəyi ilə Azərbaycan Bəstəkarlar İttifaqının IX Qurultayı keçirilmişdir.

2012-ci ildə böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyamızın banisi, görkəmli ictimai xadim və maarifçi M.F.Axundzadənin anadan olmasının 200 illiyi ilə əlaqədar Nazirliyin 2012-ci il üçün təsdiq olunmuş repertuar planına əsasən respublika teatrlarında Axundzadənin komediyaları əsasında 18 tamaşa hazırlanmışdır. Milli Dram Teatrı və Şuşa Teatrında “Lənkəran xanının vəziri”, Dövlət Kukla Teatrı, Rus Dram Teatrı, Sumqayıt Teatrı, Gəncə Dram Teatrı və Azərbaycan Gənc Tamaşaçılar Teatrında “Müsyo Jordan və dərviş Məstəlişah, “Yuğ” Teatrında “Naməlum Axundzadə”, Şəki Teatrı, Füzuli teatrı, Qax Kukla Teatrı və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında “Hacı Qara”, Mingəçevir Teatrında “Can bizimkilər”, Gəncə Kukla Teatrı, Qazax Teatrı, Salyan Kukla Teatrı və Qusar Dövlət Ləzgi Dram Teatrında “Xırs Quldurbasan”, İrəvan Azərbaycan Dram Teatrında “Mürafiə vəkilləri”, Ağdam Teatrı, Lənkəran Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında “Sərgüzəşti-vəziri-xani-Lənkəran”, Musiqili Komediya Teatrında “Molla İbrahimxəlil kimyagər” tamaşaları hazırlanaraq nümayiş olunmuşdur.

17-18 dekabr tarixində Sumqayıt Dövlət Musiqili Dram Teatrı Akademik Milli Dram Teatrının səhnəsində Elçinin “Qatil” və M.F.Axundzadənin “Müsyo Jordan və Dərviş Məstəli şah” tamaşaları ilə çıxış etmişdir.

21 dekabr tarixində beynəlxalq əməkdaşlıq layihəsi çərçivəsində Azərbaycan Dövlət Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin iştirakı ilə almaniyalı dirijor Peter Rundelin konserti keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 18 may 2009-cu il tarixli 277 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan teatrı 2009-2019-cu illərdə» Dövlət Proqramının 2.19 bəndinə əsasən respublika teatrlarında dövlət sifarişi yolu ilə cəmi 28 tamaşanın hazırlanması nəzərdə tutulmuşdur.

Nazirliyin 2012-ci il üçün təsdiq olunmuş repertuar planına əsasən Azərbaycan Dövlət Milli Dram Teatrında H.Mirələmovun «Gəncə qapıları», B.Brextin «Kuraj və uşaqları», C.Məmmədquluzadənin «Anamın kitabı», H.Həsənovun «Brüsseldən məktublar», Azərbaycan Dövlət Rus Dram Teatrında Elçinin «Teleskop», N.Gəncəvinin «Yeddi gözəl», Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında D.Mustafayevin «Əlincə qalası», K.Ağabalayevin «Hekayəti-Şahzadeyi-Xəzər», Azərbaycan Dövlət Kukla Teatrında K.Kollodinin «Pinokkionun sərgüzəştləri», A.Lindqrenin «Karlson», Gəncə Dövlət Dram Teatrında J.B.Molyerin «Skapenin kələkləri», A.İdrisoğlunun «Şah İsmayıl Xətai», Sumqayıt Dövlət Musiqili Dram Teatrında V.Qaufun «Balacaboy-uzunburun», Ş.Nəzərlinin «Yusifin qəmi», «Yuğ» Dövlət Teatrında

A.Kasaresin «Qəbir qazmaq üsulu», Lənkəran Dövlət Dram Teatrında J.B.Molyerin «Mizantrop», E.Voyniçin «Ovod», Azərbaycan Dövlət Pantomima Teatrında B.Xanızadənin «No comment», Qazax Dövlət Dram Teatrında S.S.Axundovun «Tamahkar», Füzuli Dövlət Dram Teatrında N.Vəzirovun «Sonrakı peşimançılıq fayda verməz», Mingəçevir Dövlət Dram Teatrında «Min bir gecə», A.Şaiqin «Tıq-tıq xanım», Gəncə Dövlət Kukla Teatrında A.Ekzüperinin «Balaca şahzadə», Salyan Dövlət Kukla Teatrında «Tənbəl Əhməd», Qax Dövlət Kukla Teatrında «Molla Nəsrəddin», Qusar Dövlət Ləzgi Dram Teatrında M.F.Axundzadənin «Xırs quldurbasan», İrəvan Dövlət Azərbaycan Dram Teatrında E.İoneskonun «Stullar», Qax Dövlət Gürcü Dram Teatrında A.P.Çexovun «Ayı və elçi» tamaşaları dövlət sifarişi ilə hazırlanmışdır.

Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunun, musiqi kollektivlərinin və teatr repertuarlarının zənginləşdirilməsi və yeni incəsənət əsərləri ilə komplektləşdirilməsi məqsədi ilə rəssamlardan dövr ərzində 140, bəstəkarlardan 61, dramaturqlardan isə 22 əsər alınmışdır.

# MUZEY İŞİ VƏ QEYRİ-MADDİ MƏDƏNİ İRS

2012-ci ildə muzey fondlarının komplektləşdirilməsi, ekspozisiyalarının təkmilləşdirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, onlara əməli və metodiki kömək göstərilməsi, mövcud olan nöqsanların aradan qaldırılması istiqamətində məqsədyönlü iş aparılmış, Mədəniyyət və Turizm Nazirliyi sistemində muzeylərin sayı 212-yə çatdırılmışdır. Hazırda Nazirlik sistemində incəsənət profilli – 13, ədəbiyyat profilli – 7, tarix profilli – 13, tarix-diyarşünaslıq profilli – 68, döyüş şöhrəti profilli – 6, ev muzeyi profilli – 46 muzey vardır. Heydər Əliyev mərkəzlərinin sayı isə – 59-dur.

Bakı şəhərinin Suraxanı, Qusar, Şabran, Tərtər, Lerik rayonlarında Heydər Əliyev mərkəzləri, habelə AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun binasında dünya şöhrətli alim Yusuf Məmmədəliyevin memorial muzeyi açılmışdır.

Şəki şəhərində M.F.Axundzadə və Səttar Bəhlulzadənini ev muzeylərində, Zərdab rayonunda Həsən bəy Zərdabi muzeyində, Saatlı və Göyçay Tarix-Diyarşünaslıq Muzeylərində bədii tәritbat işləri aparılmışdır.

Hesabat dövründə 1990-cı il 20 yanvar faciəsinin 22-ci ildönümünü münasibəti ilə respublikanın tarix, tarix-diyarşünaslıq və döyüş şöhrəti muzeylərində silsilə tədbirlər keçirilmişdir. Tədbirlər çərçivəsində sərgilər, mühazirələr, tarix dərsləri, faciənin şahidləri ilə görüşlər, şəhidlər xiyabanına ziyarət təşkil edilmişdir.

20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar 18 yanvar 2012-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən Azərbaycan Müəllimlər İnstitutunda səyyar sərgi təşkil edilmişdir. 17 yanvar 2012-ci il tarixində Azərbaycan İstiqlal Muzeyində "20 Yanvar faciəsi şəkillərin dili ilə" adlı tədbir-sərgi təşkil olunmuşdur. Yanvarın 18-də, M.S.Ordubadinin Xatirə Muzeyi Dövlət Din Tarixi Muzeyi ilə birgə "Torpaq uğrunda ölən varsa-Vətəndir" adlı ədəbi –bədii gecə keçirmişlər.

24 yanvar – 2 fevral 2012-ci il tarixində İtaliyanın birləşdirilməsinin 150 illik yubileyi ilə bağlı Muzey Mərkəzində «Focus on heritage» adlı sərgi təşkil edilmişdir.

3 fevral – 6 mart tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Azərbaycan və Yaponiya ölkələri arasında diplomatik əlaqələrin qurulmasının iyirminci ildönümünə həsr olunmuş "Budonun Ruhu: Yaponiyanın döyüş sənətinin tarixi" mövzusunda sərgi keçirilmişdir.

2 fevral tarixində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində "Azərbaycan Xalçaçıları" İctimai Birliyi ilə birgə hazırlanan Gənclər gününə həsr olunmuş "Qədim çeşnilərimiz yeni təzahürdə" adlı sərgi təşkil edilmişdir.

13 fevral tarixində Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Roma Sivilizasiyası Muzeyində ayrılmış 1000 kv m. sahədə ölkəmizin tarixini, mədəniyyətini əks etdirən "Azərbaycan – Odlar Yurdu İpək Yolunda" adlı sərgi açılmışdır. Muzeyin rəhbərliyi tamaşaçıların böyük marağını nəzərə alaraq sərginin vaxtının uzaldılması barədə müraciət etmiş və Nazirliyin razılığına əsasən sərgi 13 may 2012-ci il tarixinədək davam etdirilmişdir.

15 fevral tarixində Azərbaycan Milli İncəsənət Muzeyində "XXI əsr – təsviri incəsənətdə innovasiya texnologiyaları" mövzusunda dəyirmi masa keçirilmişdir. Sərgidə rəssamlar, sənətşünaslar, muzey işçiləri iştirak etmişlər.

16 fevral tarixində C.Məmmədquluzadənin Ev-Muzeyində ədibin anadan olmasının 143-cü il dönümünə həsr edilmiş "Cəlil Məmmədquluzadə kiçik hekayələrin böyük ustasıdır" rubrikası

ilə “Açıq qapı” günü keçirilmişdir. Tədbir zamanı ədəbiyyat fənninin tədrisi proqramına uyğun olaraq muzey bazasında məktəblilərə ədibin “Buz” hekayəsi “Açıq dərs”də tədris olunmuşdur.

24 fevral tarixində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Şaiqin anadan olmasının ildönümü münasibətilə ədibin adını daşıyan 54 saylı orta məktəb və Abdulla Şaiqin Mənzil Muzeyi tərəfindən “Yad et məni – Abdulla Şaiqin xatirə gecəsi” adlı birgə tədbir keçirilmişdir. Anma mərasimi ömrünün 60 ilini xalqına xidmət edən böyük Azərbaycan ədibi Abdulla Şaiqi bir daha xatırlamaq və onun ədəbi-ictimai fikir tariximizdə oynadığı əhəmiyyətli rolu Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşımışdır.

23 fevral tarixində Azərbaycan İstiqlal Muzeyində Xocalı faciəsinin 20-ci ildönümü ilə əlagədar “Xocalısız 20 il” adlı tədbir – sərgi təşkil olunmuşdur. Sərgidə Azərbaycan Respublikası Rəssamlar İttifaqının üzvü, rəssam Nazim Məmmədovun Xocalı faciəsini əks etdirən əsərləri nümayiş etdirilmişdir.

24 fevral tarixində Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən Dövlət Sərhəd Xidmətinin Akademiyasında Xocalı faciəsinin 20-ci ildönümü ilə əlaqədar sərgi təşkil olunmuşdur. Sərgidə Azərbaycan rəssamlarının 8 rəsm əsəri nümayiş etdirilmişdir.

25 fevral tarixində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində Xocalı faciəsinin 20-ci ildönümünə həsr olunmuş “Xocalını yaşadanlar” adlı tədbir keçirilmişdir.

Azərbaycan və Fransanın imtiyazlı əlaqələri çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində Fransa muzeylərindəki rəmzi əsərlərdən ibarət sərginin keçirilməsi barədə müqavilə bağlanılmışdır. Sərgi Azərbaycan ictimaiyyətinə fransız mədəniyyətinin incilərini təmsil edən və onun nüfuzunu göstərən səciyyəvi bir toplunun təqdim edilməsini nəzərdə tutmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin, Fransanın Mədəniyyət və Kommunikasiya Nazirliyinin və Fransanın Milli Muzeylər İctimai Birliyi-Böyük Sarayının birgə təşklilatçılığı ilə 10 mart tarixində Azərbaycan Milli İncəsənət Muzeyində ″Fransanın inciləri. Fransız yaradıcılığı Renessansdan XX əsrədək” adlı sərgi təşkil edilmişdir. Burada Fransanın aparıcı muzeylərinin fondlarından 404 ədəd unikal eksponat təqdim edilmişdir. Sərgi 15 may tarixinədək davam etdirilmişdir.

Məşhur rəssam, Rusiya İncəsənət Akademiyasının həqiqi üzvü Nikas Safronov tərəfindən tanınmış cazmen və pianoçu Vaqif Mustafazadənin portreti çəkilmiş və Azərbaycan tərəfinə hədiyyə edilmişdir. Portret bəstəkarın ev muzeyinə təqdim edilmiş və 16 mart tarixində V.Mustafazadənin ad günündə onun təqdimetmə mərasimi keçirilmişdir.

2012-ci ildə Göyçay rayonunda Heydər Əliyev Mərkəzi üçün yerli təşkilatlar tərəfindən milli memarlıq üslubunda, müasir dövrün tələbləri səviyyəsində iki mərtəbəli, ümumi sahəsi 2800 kv.m. olan bina tikilib istifadəyə verilmişdir. Bu məqsədlə Göyçay rayon Heydər Əliyev Mərkəzi yeni tikilmiş, Göyçay Tarix-Diyarşünaslıq Muzeyi isə mərkəzin keçmiş binasına köçürülmüşdür.

Nəriman Nərimanovun Xatirə Muzeyinin Elmi Şurasının və Fond-satınalma komissiyasının, Abdulla Şaiqin Ev Muzeyinin Elmi Şurasının, Azərbaycan Milli İncəsənət Muzeyinin və Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Fond-satınalma komissiyalarının yeni tərkibləri təsdiq edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi sistemində fəaliyyət göstərən muzeylərin fond-satınalma komissiyalarının yeni nümunəvi əsasnaməsi təsdiq edilmişdir.

Azərbaycan Milli İncəsənət Muzeyinin fondlarını zənginləşdirmək məqsədilə muzeyin fond-satınalma komissiyasında 14 ədəd rəsm əsəri və xalq tətbiqi sənət nümunələri, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin fondlarını zənginləşdirmək məqsədilə muzeyin fond-satınalma komissiyasında 20 ədəd xovlu, xovsuz xalça və mis məmulatlarına baxılmış, tarixi, bədii və elmi cəhətdən əhəmiyyət kəsb edən eksponatlar alınmışdır.

C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fondunu arxiv materialları ilə zənginləşdirmək məqsədilə rəssam İsmayıl Məmmədov tərəfindən təqdim edilmiş şəxsi arxiv (16 adda 267 ədəd geyim və dekorasiya eskizləri), Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin fondunu musiqi alətləri ilə zənginləşdirmək məqsədilə Xalq Artisti, professor Ramiz Quliyev tərəfindən təqdim edilmiş 1 ədəd tar musiqi aləti, vətəndaş Zəminə Hüseynova

tərəfindən təqdim edilmiş 1 ədəd XIX əsrin sonu – XX əsrin əvvəllərində Almaniyada istehsal olunmuş “SMİDR & WEGENER” markalı pianino, habelə “GERBSTADT” markalı “minon” royal Nazirlik tərəfindən alınmışdır.

Eyni zamanda M.Kərimin nüzhə musiqi aləti və M.Ovçinnikovun 1 ədəd alt və 1 ədəd skripka alətləri Dövlət Musiqi alətləri kolleksiyası üçün alınmışdır.

“Evrovision 2012” mahnı musabiqəsinin Azərbaycanda keçirilməsi ilə bağlı Bakı Biznes Mərkəzində yaradılmış qərərgahda 200 kv.m-dək ayrılmış sahədə ölkəmizin mədəniyyətinə həsr edilmiş ekspozisiyada bədii tərtibat işləri aparılmışdır. Mərkəzdə muzey baxıcılarının növbətçiliyi təşkil olunmuşdur.

“Evrovizion-2012” mahnı müsabiqəsinin Azərbaycanda keçirilməsi, habelə xarici qonaqlara və turistlərə göstərilən mədəni xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə 15-30 may tarixində Bakı şəhər muzeylərinin ekspozisiyalarının iş vaxtı saat 20.00-dək, 22, 24, 26 may tarixində 00.00-dək artırılmışdır.

İstanbul Böyük Şəhər Bələdiyyəsinin, Azərbaycanının İstanbuldakı Baş konsulluğunun və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı və maliyyə dəstəyi ilə Türkiyənin “Starimpex” şirkəti tərəfindən İstanbulun Topqapı şəhər Parkında yerləşən Azərbaycan Mədəniyyət evinin əsaslı təmiri və yeni ekspozisiyasının qurulması işləri həyata keçirilmişdir. 22 mart tarixində İstanbul valisinin, Böyük Şəhər Bələdiyyəsinin başqanının, Azərbaycanının Baş konsulunun və digər rəsmi şəxslərin iştirakı ilə Azərbaycan Mədəniyyət evinin yeni ekspozisiyasının açılışı olmuşdur.

XIX əsrdə Göygöl (Yelenendorf) rayonunda yerləşdirilmiş Alman köçkünlərinin son nümayəndəsi olan Viktor Klaynın evi və ev əşyalarının rayon üçün etnoqrafik nöqteyi nəzərdən əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq bina rayon İcra Hakimiyyəti tərəfindən Mədəniyyət və Turizm Şöbəsinin balansına verilmişdir. Gələcəkdə bu evin muzey kimi fəaliyyət göstərməsi və turizm obyektlərinin siyahısına daxil edilməsi nəzərdə tutulmuşdur.

M.F.Axundzadənin Şəkidəki Ev Muzeyinin 87, S.Rəhmanın ev muzeyinin 24, Azərbaycan Dövlət Teatr Muzeyinin 23 ədəd eksponatı müəyyən olunmuş qaydada Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzində bərpa və konservasiya edilmişdir.

1 fevral tarixindən respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev muzeyləri Heydər Əliyev mərkəzləri adlandırılmışdır. Bu məqsədlə mərkəzlərin yeni nümunəvi əsasnaməsi hazırlanmış, ştat çədvəllərinə yenidən baxılmışdır.

ABŞ-ın Azərbaycan Respublikasındakı Səfirliyinin təşkilatçılığı ilə 22-30 aprel tarixində Smitson Universitetinin muzeylər assosiasiyasının 4 nəfərlik nümayəndə heyəti Azərbaycana səfər etmişdir. Səfərin məqsədi Azərbaycan muzey işçilərinə ABŞ muzey təcrübəsinin seminar-treninq vasitəsilə çatdırmaq olmuşdur. Nümayəndə heyəti Bakı və Naxçıvan şəhərlərində olmuşlar.

Seminar-treninqlərdə respublikada fəaliyyət göstərən muzeylərin rəhbərləri iştirak etmiş, onlar müasir Amerika muzeylərinin fəaliyyəti, idarəçiliyin mütərəqqi üsulları (müasir menecment), muzey işinə yeni yanaşma, muzey toplularının qorunması, muzey işçiləri arasında əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq təcrübənin yerlərdə tətbiq edilməsi, açıq kommunikasiya sahəsinin formalaşması, mədəni turizmin inkişafı, habelə müxtəlif mövzularda mühazirələr dinlənilmişdir.

Seminar-treninqlər 24-25 aprel tarixində Muzey Mərkəzində, 26-28 aprel tarixində Naxçıvanda təşkil edilmişdir.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə əlaqədar, teatrın səhnəsini bəzəyən “Azərbaycan ulduzları” adlı pərdə-xalça Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinə verilmişdir.

Amerika-Azərbaycan konvensiyası çərçivəsində Amerika-Avrasiya Türk Şurasının, Amerika-Azərbaycan Cəmiyyətinin və Con Hopkins Universitetinin Orta Asiya və Qafqaz İnstitutunun təşəbbüsü ilə 26-27 aprel tarixində ABŞ-ın Vaşinqton şəhərinin "Willard InterContinental Washington” otelində “Azərbaycan-ABŞ, münasibətlərin 20 ili. Gələcəyə baxış” mövzusunda tədbir keçirilmişdir. Otelin Ballroom otağının qarşısındakı foyedə ayrılmış

200 kv.m. sahədə Azərbaycanın tarixi, mədəniyyəti və iqtisadi inkişafına həsr edilmiş sərgi təşkil olunmuşdur.

1–7 may tarixində Azərbaycan Milli İncəsənət Muzeyində akademik, heykəltəraş Ömər Eldarovun fərdi sərgisi təşkil edilmişdir. Sərgidə həmçinin türk rəssamı Abdin Eldaroğlunun və türk foto-rəssamı Ozan Saqdıcoğlunun da əsərləri nümayiş etdirilmişdir.

18 may Beynəlxalq Muzeylər günündə Bakı şəhər muzeyləri tərəfindən müxtəlif mövzular üzrə maraqlı tədbirlər keçirilmiş, açıq qapı günü elan edilmişdir.

Fransanın Gaillard şəhərində 29 may – 01 iyun tarixində Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən şəhərin qədim qəsrində Azərbaycanın tarixinə və mədəniyyətinə, habelə Şamaxı şəhərinin inkişaf tarixinə həsr olunmuş sərgi təşkil olunmuşdur.

29 may tarixində Azərbaycan Milli İncəsənət Muzeyində görkəmli Azərbaycan rəssamı, Əməkdar İncəsət Xadimi Mircavad Mircavadovun 90 illiyinə həsr olunmuş fərdi sərgisi təşkil edilmişdir. Sərgi sentyabr ayınadək davam etdilmişdir.

5-9 iyun tarixində Muzey Mərkəzində görkəmli Azərbaycan şairi Mirzə Ələkbər Sabirin 150 illik yubileyi ilə əlaqədar Xalq Rəssamı Arif Hüseynovun və Əməkdar İncəsənət Xadimi, Azərbaycan “Karikaturaçı rəssamlar birliyi”nin sədri Bayram Hacızadənin “Hophopnamə” əsərinə həsr olunmuş qrafika əsərlərindən ibarət sərgi keçirilmişdir.

Azərbaycan Milli İncəsənət Muzeyində 19-26 sentyabr tarixində Xalq Rəssamı, Prezident təqaüdçüsü Davud Kazımovun 85 illik yubileyinə 7-14 noyabr tarixində isə Xalq Rəssamı Tağı Tağıyevin 95 illik yubileyinə həsr olunmuş fərd sərgilər keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 22.05.2009-cu il tarixli 292 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı”na əsasən Həsən bəy Zərdabinin Zərdab rayonundakı Ev Muzeyinin bədii tərtibatı və maddi texniki bazasının möhkəmləndirilməsi sahəsində müvafiq işlər görülmüşdür.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası II Yelizavetanın taxt-taca sahib olmasının 60 ili münasibətlə London şəhərində bir sıra bayram tədbirləri keçirilmişdir. 6-14 may tarixində bir çox dəvət edilən ölkələrlə yanaşı Azərbaycanın da xüsusi təqdimatları təşkil edilmiş, Azərbaycan Respublikasının yüksək zövq və bədii tərtibatla pavilyonu quraşdırılmışdır. Latviyanın “Dd studio” şirkəti tərəfindən həyata keçirilmiş bədii tərtibat Azərbaycanın orta əsr miniatür sənəti reproduksiyaları əsasında qurulmuşdur. Ölkəmizin mədəniyyətinin yüksək səviyyədə tanıdılması üçün keçirilmiş tədbirlərin bədii proqramlarında muğam triosu və Azərbaycan Dövlət Rəqs Ansamblı iştirak etmişlər.

2012-ci ildə görkəmli yazıçı, şair, publisist, ictimai xadim Məmməd Səid Ordubadinin anadan olmasının 140 illik yubileyi ilə əlaqədar M.S.Ordubadinin Xatirə Muzeyi 2012-ci ili Ordubadi ili elan etmiş və xüsusi tədbirlər planı hazırlayıb həyata keçirmişdir.

Görkəmli dirijor və bəstəkar Niyazinin 100 illik yubileyi münasibəti ilə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi xüsusi tədbirlər planı həyata keçirmişdir.

3 oktyabr tarixində Rusiyanın Moskva şəhərində Y.F.Qnesinanın memorial mənzil muzeyində görkəmli Azərbaycan dirijoru və bəstəkarı maestro Niyazinin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar “Niyazi-100” sərgisi təşkil edilmişdir. Sərgidə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin fondundan 138 ədəd eksponat nümayiş etdirilmişdir.

2012-ci ildə qeyri-maddi mədəni irsin qorunmasına dair YUNESKO konvensiyasının icrası çərçivəsində Azərbaycan xalqının maddi və qeyri maddi mədəni irsinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədilə Nazirlik tərəfindən silsilə tədbirlər həyata keçirilmişdir. Azərbaycan “daş sənəti”nin YUNESKO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ siyahısına daxil edilməsi üçün görülən tədbirlər çərçivəsində 2 ədəd daş plastika sənəti nümunəsi YUNESCO-nun Parisdəki Baş Qərargahına hədiyyə edilmişdir.

30 may – 06 iyun tarixində Moskva səhərində “İntermuzey-2012” Beynəlxalq festival təşkil edilmişdir. Bu məqsədlə Mərkəzi Rəssamlar Evində standart avadanlıqla təchiz olunmuş 6 kv.m. sahədə Azərbaycanla bağlı ekspozisiya qurulmuşdur. Tədbirdə Rusiya muzeyləri ilə yanaşı

MDB ölkələrinin də muzey ekspozisiyalarının təqdimatı keçirilmişdir. Ayrılmış sahədə Azərbaycan muzeylərinin kitab, buklet və digər çap məhsulları, mədəniyyətimizlə bağlı fotoşəkillərin təqdimatı, CD və DVD-lər vasitəsilə monitorlarda ölkəmizin nümayişi, habelə musiqi triosunun çıxışı təşkil edilmişdir.

Xalq Rəssamı Səttar Bəhlulzadənin Ev Muzeyində, Saatlı Tarix-Diyarşünaslıq Muzeyində və M.F.Axundzadənin ev muzeyində təmir bərpa və bədii tərtibat işləri başa çatdırılmışdır.

"Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli Fərmanının icrası ilə əlaqədar muzeylərdə daşınar tarix və mədəniyyət abidələrinin reyestri "Azərbaycan Respublikası Muzey Sərvətlərinin və Muzey Kolleksiyasının Uçotu və Mühafizəsinə Dair Təlimat"ın tələblərinə uyğun olaraq yazılı və elektron şəkildə aparılır. Son illər mərkəzləşdirilmiş məlumat bazasının təşkili sahəsində müsbət addımlar atılmış, muzey fondlarının elektron kataloqları hazırlanmış, informasiya şəbəkəsinin yaradılması üçün muzeylər kompüter və müvafiq elektron proqramlarla təchiz edilmişdir. Bu gün üçün Rusiyanın mədəniyyət sahəsində informasiya problemləri üzrə ixtisaslaşdırılmış kompleks avtomatlaşdırılmış informasiya sisteminin (KAMİS) Azərbaycanın bütün muzeyləri üçün tətbiqi istiqamətində iş aparılır.

15 iyun Milli Qurtuluş Gününə həsr edilmiş muzeylərdə tədbirlər keçirilmiş, açıq qapı günü elan edilmişdir.

Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində "Mədəniyyətimizin hamisi" adlı tədbir keçirilmişdir. Tədbir çərçivəsində Ümummilli liderin muzeyin açılışında və simpoziumda iştirakını və eləcə də, müxtəlif sənətkarlarla görüşlərini əks etdirən "Heydər Əliyev və Azərbaycan xalçaçılıq sənəti" mövzusunda foto-sərgi təşkil olunmuşdur.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində bəstəkar, Əməkdar İncəsənət Xadimi Vasif Allahverdiyevin "Heydər Əliyev-ömür yolu" simfonik poemasının film versiyasının nümayişi olmuşdur. Əsərin müəllifi bəstəkar Vasif Allahverdiyev, Azərbaycan Bəstəkarlar İttifaqının üzvləri, Klassik Musiqi Həvəskarları Klubunun üzvləri və başqaları çıxış etmişlər.

Üzeyir Hacıbəylinin ev muzeyində "Qurtuluşun mübarək, Azərbaycan" adlı tədbir keçirilmişdır. "Gənclərin töhfəsi" adlı İctimai Birliyin üzvləri vətənpərvər ruhlu musiqilərlə, şerlərlə, kompozisiyalarla tamaşaçılar qarşısında çıxış etmişlər. "Bakı Türkiyə Türkcəsi Eyitim Mərkəzi"nin müəllim və tələbələri şairə Zərəngiz Qayalının Qurtuluş günü münasibəti ilə yazdığı şerləri ifa etmişlər. Musiqişünas Aytən Abbasova "Heydər Əliyev obrazı musiqi əsərlərində" məruzəsi ilə çıxış etmişdir. Bəstəkar Sərdar Fərəcovun sözləri Tahir Taisoğluna məxsus "Böyük vətəndaş haqqında oda" əsəri səsləndirilmişdir.

10-12 avqust tarixində Macar – Turan Fondu tərəfindən Macarıstanın Buqats bölgəsindəki Kişkemets milli parkında keçirilən IV hun-türk qurultayında Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim Musiqi Alətləri Ansamblı iştirak etmişdir.

Çexiya Respublikasının Ostrava şəhər muzeyində 2012-ci ilin noyabrından başlayaraq 2013-cü ilin fevralınadək davam edəcək "Əbədi odlar yurdu - Azərbaycanın minillik mədəniyyəti" adlı sərgidə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin 156, Milli Azərbaycan Tarixi Muzeyinin 107 ədəd eksponatı və rəssam İsmayıl Məmmədovun 66 ədəd rəsm əsəri nümayiş etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Bəhruz Kəngərlinin 120 illik yubileyi haqqında" 13.04.2012-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən 12-22 iyun tarixində Azərbaycan təsviri sənətində realist dəzgah boyakarlığının, portret və mənzərə janrlarının banisi, rəssam, boyakar və qrafik Bəhruz Kəngərlinin fərdi sərgisi keçirilmişdir. Sərgidə rəssamın 80-dək əsəri nümayiş etdirilmişdir. Sərgiyə tamaşaçılar tərəfindən böyük maraq göstərildiyini nəzərə alaraq 7-14 dekabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyinin fondları əsasında Naxçıvan şəhərində Bəhruz Kəngərlinin əsərlərindən ibarət sərgi təşkil edilmişdir.

"Muzeylərdə mühafizə rejiminin gücləndirilməsi haqqında" nazirliyin müvafiq əmrinə əsasən son illər muzeylərin mühafizə və yanğın təhlükəsizliyinin möhkəmləndirilməsi,

siqnalizasiya sisteminin tətbiqi istiqamətində konkret tədbirlər görülmüşdür. Hesabat ilində Respublikada fəaliyyət göstərən muzeylərin müasir tipli mühafizə, həyəcan, yanğın siqnalizasiyası sistemləri ilə təchizatı, onların mühafizəsinin təşkili məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən tövsiyə edilmiş «Yarasa» MMC ilə müqavilələr bağlanılmışdır.

2012-ci il dekabrın 15-dən 30-dək Qaradağ rayonu, Müşfiqabad qəsəbəsində məcburi köçkün ailələri üçün yeni inşa edilmiş hündürmərtəbəli yaşayış binalarından ibarət məhəllənin açılışı ilə bağlı “Qarabağın tarixi və mədəniyyəti” adlı sərgi təşkil edilmişdir. Sərgidə Qarabağ bölgəsi rayonlarının muzeylərinin fondlarından və digər muzeylərdə saxlanılan Qarabağın tarixini və mədəniyyətini əks etdirən eksponatlar nümayiş etdirilmişdir.

Azərbaycan qeyri-maddi mədəni irsinin qorunması, təbliği və təşviqi məqsədilə müvafiq proqrama uyğun olaraq 2012-ci il üçün Gədəbəy şəhəri - “Azərbaycanın Əfsanələr Paytaxtı”, Masallı şəhəri - “Azərbaycanın Folklor Paytaxtı” və Quba şəhəri - “Azərbaycanın Sənətkarlıq Paytaxtı” elan edilmişdir.

15 mart tarixində Muzey Mərkəzində “2012-ci il üçün Azərbaycanın Xalq Yaradıcılığı Paytaxtları”nın təqdimat mərasimi keçirilmişdir. Mərasimdə Gədəbəy, Masallı və Quba rayon icra hakimiyyəti başçılarının müavinləri, həmçinin bu rayonların mədəniyyət və turizm şöbələrinin müdirləri, alimlər, ictimai xadimlər, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Təsdiq edilmiş illik tədbirlər planına əsasən, “paytaxt” seçilmiş şəhərlərdə il ərzində nominasiyaya uyğun olaraq təntənəli mərasimlər, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfranslar, dəyirmi masalar, konsertlər, müsabiqələr, festivallar, sərgilər, yarmarkalar, infoturlar və sair tədbirlər keçirilmişdir.

2-5 fevral tarixində Hindistanın Kəlküttə şəhərində keçirilmiş II Beynəlxalq Sufi Festivalında Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin 15 nəfərdən ibarət “Qədim Musiqi Alətləri” ansamblı iştirak etmişdir.

1-2 mart tarixində Minsk şəhərində MDB İcraiyyə Komitəsinin binasında təşkil edilmiş MDB iştirakçı dövlətlərinin mədəniyyətlərinin qanunvericilik təminatının öyrənilməsi və müqayisəli analizi üzrə İşçi qrupunun iclasında Nazirliyin əməkdaşları iştirak etmişlər.

Novruz bayramı ərəfəsində Dənizkənarı Milli Parkda aşpazlar tərəfindən milli Novruz mətbəxi nümunələri və xalq tətbiqi sənəti ustalarının əsərləri nümayiş etdirilmiş, aşıqların iştirakı ilə bayram konserti təşkil olunmuşdur. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və digər mötəbər qonaqlar iştirak etmişdir.

12-13 aprel tarixində Kazan şəhərində Tatarıstan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən Tatarıstan Respublikası Elmlər Akademiyası ilə birgə təşkil olunan “Müasir şəraitdə qeyri-maddi etnomədəni irsin qorunması problemləri” adlı beynəlxalq elmi-praktiki seminarda və “Polietnik region şəraitində milli ənənələrin inkişafı” adlı elmi-praktiki konfransda Nazirliyin əməkdaşı iştirak etmişdir.

5-11 iyun tarixlərində Dağıstan Respublikasının Mahaçqala şəhərində keçirilmiş “Qortsı” V Beynəlxalq folklor və ənənəvi mədəniyyət festivalında Azərbaycan Aşıqlar Birliyinin katibi Musa Çobanov və aşıq Fəzail Miskinlinin rəhbərliyi ilə gənc aşıqlardan ibarət qrup iştirak etmişdir.

17-22 iyun tarixində Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində keçirilmiş Qorqud adına I Beynəlxalq aşıq və qədim musiqi alətləri ifaçılarının müsabiqəsində Nazirliyin əməkdaşı və 6 nəfər aşıqdan ibarət nümayəndə heyəti iştirak etmişdir. Müsabiqədə Azərbaycan kollektivinin çıxışları böyük maraqla qarşılanmışdır.

4-7 iyul tarixində İordaniya Haşimilər Krallığının Cəraş şəhərində keçirilmiş “27-ci Cəraş Mədəniyyət və İncəsənət Festivalı”nda Nazirliyin nümayəndəsi və Gəncə Filarmoniyasının Fikrət Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının 9 nəfərdən ibarət heyəti iştirak etmişdir. Amerika Birləşmiş Ştatları, Misir, İraq, Suriya və digər ölkələrdən peşəkar mahnı və rəqs kollektivlərinin iştirak etdiyi Festivalda Azərbaycanın incəsənət ustalarının çıxışı iştirakçılar və qonaqlar tərəfindən böyük maraqla qarşılanmışdır.

TÜRKSOY tərəfindən 2012-ci il üçün Elabuğ şəhərinin “Türk dünyasının sənətkarlıq paytaxtı” seçilməsi ilə əlaqədar təşkil edilən “Türk dünyasında dəri işi” festivalında və bu çərçivədə keçirilən sərgi və elmi simpoziumda iştirak etmək üçün Nazirliyin əməkdaşı və 3 nəfərdən ibarət dəri məmulatı ustası 1-6 avqust tarixlərində Tatarıstan Respublikasının (Rusiya Federasiyası) Elabuq şəhərində ezamiyyədə olmuşdur.

2012-ci il üçün “Azərbaycanın Folklor Paytaxtı” elan olunmuş Masallı şəhərində 6-10 sentyabr tarixində Beynəlxalq Folklor Festivalı təşkil olunmuşdur. Festivalda Rusiya Federasiyasının Kabardia-Balkar və Dağıstan respublikaları, Türkiyə, İran və Latviyadan dəvət olunmuş 20-yə yaxın folklor ansamblı Azərbaycan folklor kollektivləri ilə birlikdə Masallı şəhərində, rayonun Boradigah qəsəbəsi və Şərəfə kəndində konsert proqramı ilə çıxış etmişlər.

10-15 sentyabr tarixində Meksikanın Kampaşe şəhərində qeyri-maddi mədəni irs üzrə “Mədəni irsin saxlanılması və qorunması ənənələrinin ötürülməsi” mövzusunda keçirilmiş beynəlxalq konfransda Nazirliyin əməkdaşı iştirak etmişdir.

2012-ci il üçün “Azərbaycanın Sənətkarlıq Paytaxtı” elan edilmiş Quba şəhərində 6 oktyabr tarixində Alma Bayramı keçirilmişdir. Azərbaycan Dövlət Mahnı Teatrının, Azərbaycan Dövlət Rəqs Ansamblının, muğam və müasir estrada ifaçılarının, aşıqların, meyxanaçıların, nağaraçalanların, pəhləvanların tədbirdə iştirakı, həmçinin alma ilə bağlı müxtəlif yarışların, müsabiqələrin təşkili ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır.

Ustad aşıqların xatirəsinin yad edilməsi, onların zəngin irsinin öyrənilməsi, gənc nəslin aşıq sənətinə olan marağının artırılması, Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin ayrılmaz hissəsi olan aşıq sənətinin qorunub saxlanılması, milli mədəniyyətimizin inkişafında rolunun artırılması, tanıdılması və təbliğ edilməsi məqsədilə nazirlik tərəfindən çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Belə ki, 1 noyabr tarixində Şamaxı şəhərində, 16 noyabr tarixində R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında müasir Şirvan aşıq məktəbinin yaradıcılarından olan aşıq Mirzə Bilal Mikayılovun 140 illik, 21 noyabr tarixində Beynəlxalq Muğam Mərkəzində Gədəbəy Aşıqlar ansamblının yaradıcısı aşıq İsfəndiyar Rüstəmovun 75 illik, 6 dekabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Azərbaycan aşıq məktəbinin yaradıcılarından olan Ağdabanlı aşıq Qurban Qocayevin 150 illik və 24 dekabr tarixində M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Borçalı aşıq məktəbinin qurucularından olan aşıq Kamandar Əfəndiyevin 80 illik yubiley tədbirləri təşkil edilmişdir. Rəsmi şəxslərin, respublikanın tanınmış ictimai və incəsənət xadimlərinin iştirak etdiyi tədbirlər ölkənin televiziya kanallarında və digər kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır.

"Qeyri-maddi mədəni irsin qorunmasına dair" YUNESKO Konvensiyasının tövsiyələrinə əsasən və qeyri-maddi mədəni irs sahəsində beynəlxalq təcrübədən, o cümlədən Avropa Şurasının "Avropada mədəniyyət siyasəti və təmayüllərin Kompendiumu" kimi beynəlxalq layihələrdən bəhrələnərək hazırlanmış Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Şəhər (Rayon) Mədəniyyət Mərkəzlərinin yaradılması" pilot layihəsi Lənkəran şəhərində və İsmayıllı rayonunda uğurla həyata keçirilmişdir və hazırda bu iş davam etdirilməkdədir.

Nəticədə Lənkəran və İsmayıllının klub sisteminin fəaliyyətində əsaslı dönüş yaranmış və klub müəssisələri mövcud imkanlar daxilində tam gücü ilə işləməyə başlamışlar.

Aparılan islahatların mərhələli şəkildə həyata keçirilməsi məqsədəuyğun sayıldığından yeni "Şəhər (Rayon) Mədəniyyət Mərkəzlərinin yaradılması" layihəsi hazırlanaraq Şəki şəhərində və Abşeron, Balakən, Gədəbəy, Göygöl, Xaçmaz, Qazax, Qəbələ, Masallı, Şamaxı rayonlarında fəaliyyət göstərən klub sisteminə tətbiq olunmasına başlanılmışdır.

YUNESKO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Hökumətlərarası Komitəsinin 7-ci iclasında iştirak etmək məqsədilə Nazirliyin əməkdaşı dekabr ayının 19-dan 23-dək Fransa Respublikasının Paris şəhərində ezamiyyədə olmuşdur.

Milli mənəviyyatın və mədəniyyətin inkişaf özəyini təşkil edən diyarşünaslıq (adət-ənənə, bayram-mərasim, rəmz-sirr), folklor (xalq musiqisi və rəqsləri, şifahi xalq yaradıcılığı, milli

oyun-tamaşa) və sənətkarlıq (xalq tətbiqi, dekorativ və təsviri sənəti) üzrə qeyri-maddi mədəni irs nümunələrinin qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması məqsədilə "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri"nin layihəsi tərtib edilir. Hazırda yeni məlumatların toplanılması, elektron formada yığılması və sistemləşdirilməsi istiqamətində müvafiq işlər davam etdirilir.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən aparılmış "Azərbaycanın qeyri-maddi mədəni irs sahəsinin (diyarşünaslıq, folklor və sənətkarlıq) mədəni-siyasi təminat mexanizmlərinin monitorinqi"nin nəticələri əsasında "Azərbaycan qeyri-maddi mədəni irs subyektlərinin (ifaçı, kollektiv, sənətkar və sair) portfolio bankı"nın və "Şəhər (rayon) mədəniyyət mərkəzlərinin və onların filiallarının Dövlət Kadastrı"nın yaradılması, "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramı, "2012-2016-cı illərdə Azərbaycan qeyri-maddi mədəni irsinin qorunmasına dair Dövlət Proqramı", digər konseptual proqram və layihələr üzərində müvafiq işlər həyata keçirilir.

Həmçinin, hesabat ilinin 17-22 dekabr tarixində Prezident Kuboku uğrunda VII (yeddinci) çövkən milli oyunu keçirilmişdir. Tədbirdə respublikanın 15 rayonundan Mədəniyyət və Turizm şöbələrinin nümayəndələri iştirak etmişdir (Şəki, Yevlax, Ağcabədi, Ağdam, Ağstafa, Balakən, Bərdə, Daşkəsən, Göygöl, Goranboy, İsmayıllı, Qax, Qəbələ, Oğuz, Zaqatala). Prezident Kuboku uğrunda VII (yeddinci) çövkən milli oyununun nəticələrinə görə 1-ci yeri Ağstafa, 2-ci yeri Ağdam, 3-cü yeri Şəki, 4-cü yeri Ağcabədi rayon Mədəniyyət və Turizm şöbələrinin nümayəndələri tutmuşlar.

Prezident Kuboku uğrunda VII (yeddinci) çövkən milli oyununda müvəffəqiyyət qazanmayan komandalar üçün həvəsləndirici oyunlar keçirilmişdir. Oyunların nəticələrinə görə sür papaq oyununda 1-ci yeri Balakən, 2-ci yeri Zaqatala, 3-cü yeri Oğuz, 4-cü yeri Qax rayon komandalar, papaq oyununda 1-ci yeri İsmayıllı, 2-ci yeri Yevlax, 3-cü yeri Goranboy, 4-cü yeri Göygöl rayon komandaları, yaylıq oyununda isə 1-ci yeri Bərdə, 2-ci yeri Qəbələ, 3-cü yeri Daşkəsən rayon komandaları tutmuşlar.

Keçirilən milli atüstü oyunlara ildən-ilə marağın artmasını nəzərə alaraq, gələcəkdə oyunlarda iştirak edən komandaların sayının artması gözlənilir.

## MƏDƏNİ İRS

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2012-ci il üzrə iş planına, Kollegiya qərarlarına əsasən hesabat dövründə Azərbaycanın mədəni irsinin özünəməxsusluğunun qorunub saxlanılması, tarix-mədəniyyət abidələrinin öyrənilməsi və mühafizəsi ilə bağlı müvafiq tədbirlər görülmüş, bu sahədə bir sıra diqqətəlayiq nəticələr əldə edilmişdir.

Cari ildə "2013-2016-cı illərdə daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı üzrə", "2013-2017-ci illərdə Basqal Dövlət tarix-mədəniyyət qoruğunun inkişafı üzrə", "Qafqaz Albaniyası irsinin tədqiqi, mühafizəsi və təbliğinə dair" Dövlət Proqramlarının qəbul edilməsi istiqamətində işlər aparılmışdır.

"Şəki şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2011-ci il tarixli 1710 nömrəli Sərəncamına əsasən Şəki mədəni irsinin qorunması və bərpası barədə", "Qobustan Milli tarix-bədii qoruğunun fəaliyyətinin təkmilləşdirilməsi və göstərilən mədəni xidmətlərin vəziyyəti" ilə bağlı kollegiya iclasları keçirilmişdir.

2011-ci ilin son günlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qobustan Milli tarix-bədii qoruğunun ərazisində aparılan yenidənqurma işləri, yeni inzibati binasının tikintisi və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyalarla tanış olmuşlar.

Cari ilin 4-10 mart tarixində norveçli alim-ekspertlər – doktor Anne-Sophie Hygen və professor Helskog Knutun Qobustan qoruğunun yeni ekspozisiyası ilə tanışlıq məqsədilə nazirlik tərəfindən ölkəmizə dəvət edilmişdir.

2012-ci ilin 16 mart tarixində Qobustan Milli tarix-bədii qoruğunun yeni inzibati binasının rəsmi açılış mərasimi olmuşdur.

Qobustan Milli tarix-bədii qoruğu 16-19 may 2012-ci il tarixində Portuqaliyanın Penofil şəhərində Avropa muzeylər forumunda "Avropanın ən yaxşı muzeyi" nominasiyasına təqdim edilmişdir.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə təkliflər verilmiş və Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının 2012-ci il 16 noyabr tarixli 449-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 74 nömrəli 13 noyabr 2012-ci il tarixli Fərman imzalanmışdır. Fərmanın icrası ilə bağlı Azərbaycan Respublikası ərazisində Dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin Dövlət Siyahısının yenidən işlənilməsinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 18 avqust 2006-cı il tarixli 1633 №-li Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən regionlarda yeni aşkar edilmiş abidələrin dövlət qeydiyyatına götürülməsi məqsədilə müvafiq sənədlər hazırlanmış və baxılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq institutlarına təqdim edilmişdir.

2012-ci il ərzində Azərbaycan xalqına məxsus maddi mədəni irs nümunələrinin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi istiqamətində müvafiq işlər davam etdirilmişdir. Belə ki, İCCROM-un Baş Direktorunun xüsusi məsləhətçisi Yukka Yokilehto Şəkinin «Yuxarı Baş» Dövlət tarix-memarlıq qoruğunun YUNESKO-nun "Dünya İrsi Siyahısı"na daxil edilməsi üçün Nominasiya Faylının hazırlanması məqsədi ilə 12-19 iyun 2012-ci il tarixində Azərbaycanda işgüzar səfərdə olmuşdur.

4 iyul 2012-ci il tarixində Şəki Xan Sarayının 250 illiyi münasibəti ilə təntənəli tədbir keçirilmişdir.

Sentyabr ayının 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Türkiyənin Baş naziri cənab Rəcəb Tayyib Ərdoğan xanımı Əminə Ərdoğanla "Xan Sarayı" və "Kiş məbədi"nin fəxri qonaqları olmuşlar.

İslam tarixi və mədəniyyətini özündə əks etdirən Bərdə şəhərində "Allah-Allah", Füzuli rayonunda "Şeyx Babı" türbələrinin, Bakı şəhərində Nardaran tarix-mədəniyyət və Hacıqabul rayonunda "Pir Hüseyn Xanəgahı" tarix-memarlıq qoruqlarının İslam irs siyahısına daxil edilmələri istiqamətdə ilkin işlərə başlanılmışdır.

Tarix-mədəniyyət qoruqlarının sərhədlərini və mühafizə zonalarını əks etdirən xəritələrin hazırlanması istiqamətində də işlər davam etdirilmişdir.

Azərbaycan Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin inventarizasiya işi davam etdirilmiş, 34 abidənin mühafizə zonaları müəyyən edilmişdir.

Abidələrin pasportlaşdırılması sahəsində də müəyyən işlər aparılmışdır. Mərdəkan qəsəbəsində yerləşən dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət tərəfindən qorunan Böyük Mərdəkan qəsrinin pasportu hazırlanmışdır. Pasportlarının hazırlanması üçün əhəmiyyətinə görə ilkin olaraq 234 abidə siyahısı müəyyənləşdirilmişdir.

Gəncə, Oğuz, Şamaxı, İsmayıllı, Masallı, Ağcabədi, Goranboy rayonlarında aparılan tikinti-quruculuq işləri zamanı bir sıra abidələrin mühafizə rejiminin pozulması faktları müəyyən edilmiş, bununla bağlı abidələrə yerində baxış keçirilmiş, mühafizənin daha da effektiv təşkili və baş vermiş qanun pozuntuları ilə əlaqədar müvafiq tədbirlərin görülməsi məqsədilə aidiyyəti orqanlara müraciətlər ünvanlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamının icrası ilə bağlı "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunda geniş miqyaslı bərpa-konservasiya, yenidənqurma və abadlaşdırma işlərinin aparılmasına başlanılmışdır.

Nazirliyin müvafiq əmri ilə Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Böyük Mərdəkan qəsri abidəsinin mühafizə tədbirlərinin aparılması "Atəşgah məbədi" qoruğuna tapşırılmışdır.

"Yanar dağ" Dövlət tarix-mədəniyyət və təbiət qoruğunun ərazisində vətəndaşlara məxsus torpaq sahələrinin qiymətləndirilməsi başa çatdırılarq vəsaitin ödənilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinə və digər müvafiq qurumlara müraciət edilmişdir.

Cari ildə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən "Atəşgah məbədi" Dövlət tarix-memarlıq, Qəbələ tarix-bədii, "Şabran şəhəri" tarixi, "Cıraqqala" tarix-memarlıq, Xınalıq Dövlət tarix-memarlıq və etnoqrafiya qoruqlarının ərazilərində aparılmış arxeoloji qazıntılar və elmi-tədqiqat işləri nəticəsində müxtəlif dövrlərə aid kurqanlar, yaşayış yerləri aşkar edilmişdir.

İyulun 26-da Şəmkirdə keçirilən Mədəniyyət və Turizm Nazirliyinin səyyar kollegiya iclasında iştirak edən nazir Əbülfəs Qarayev, nazirin birinci müavini Vaqif Əliyev digər rəsmilərlə birgə rayonun mədəniyyət ocaqları ilə yanaşı dünya əhəmiyyətli arxeoloji abidə kimi Dövlət qeydiyyatına alınmış Qədim Şəmkir şəhərində aparılan elmi-tədqiqat işləri ilə yaxından tanış olmuşdur. Həmin tarixi ərazinin tarix-mədəniyyət qoruğu elan edilməsi üçün müvafiq sənədlər hazırlanmışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə cari ilin 13 fevral -10 aprel tarixində İtaliyanın Roma şəhərində "Azərbaycan – Odlar Yurdu İpək Yolunda" adlı, 14 noyabr – 5 dekabr tarixində Vatikan dövlətində Azərbaycanın tarixini, mədəni irsini və dini tolerantlığını əks etdirən sərgilərdə Qobustan kolleksiyasına aid eksponatların nümayiş etdirilməsi üçün tədbirlər görülmüşdür.

ABŞ Dövlət Departamenti cari ildə Qobustan Milli Tarix-Bədii Qoruğunu "Museum connect 2012" layihəsinə tərəfdaş seçmişdir. Azərbaycan tərəfindən Mədəniyyət və Turizm Nazirliyi və Qobustan Milli Tarix-Bədii Qoruğunun, ABŞ tərəfindən isə Amerika Hindularının Milli muzeyi və Smitsonian İnstututunun dəstəyi ilə 21-27 oktyabr tarixində Azərbaycan və Rueblo Hindi İcmaları arasında "Qayalarda yazılanlar" layihəsi həyata keçirilmişdir.

2012-ci ilin 15-18 fevral tarixində Avropa Şurasının Demokratik İdarəçilik, Mədəniyyət və Müxtəliflik Direktorluğunun təşkilatçılığı ilə həyata keçirilən "Tarixi şəhərlərdə mədəni irsin bərpası layihəsinin" 5-ci koordinasiya iclası olmuşdur. Beynəlxalq koordinasiya toplantısının davamı olaraq mart ayının 9-da Bakı şəhərində Azərbaycan tərəfindən layihədə təmsil olunan pilot şəhərlərin nümayəndələrinin iştirakı ilə daxili koordinasiya görüşü keçirilmişdir. Layihənin 2013-cü ildə reallaşdırılması nəzərdə tutulmuşdur.

Novruz bayramı və 18 aprel – Beynəlxalq Abidələr və Tarixi yerlər günü bütün qoruqlarda qeyd edilmiş və Açıq Qapı günləri təşkil edilmişdir.

Cari ilin 18 aprel tarixində Ağsu şəhərində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Ağsu Rayon İcra Hakimiyyəti və "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin birgə tərəfdaşlığı ilə Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş "Tarixi şəhərlərimizdə kərpic memarlığı" mövzusunda konfrans və arxeotur təşkil edilmişdir.

Türkiyənin Uşak şəhərində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş "Azərbaycanın Mədəni İrsi" elmi-praktiki konfrans və sərgi təşkil edilmişdir. Tədbir "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi ilə birgə təşkil edilmişdir. Eyni zamanda, Xınalıq Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunda "Heydər zirvəsi"nə, "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunda İlham Əliyev zirvəsinə, "Avey" Dövlət tarix-mədəniyyət qoruğunda Göyəzən dağına, Çıraqqala tarix-memarlıq qoruğunda dünya əhəmiyyətli Çıraqqala abidəsinə yürüşlər təşkil edilmişdir.

2012-ci ilin 25-29 aprel tarixlərində Bakı şəhərində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin YUNESKO-nun Ümumdünya İrs Mərkəzinin məşvərətçi orqanları olan Mədəni mülkiyyətin mühafizəsinin və bərpasının öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (İCCROM) və Abidələr və tarixi yerlər üzrə Beynəlxalq Şuranın (İCOMOS), eləcə də Azərbaycan Memarlıq və İnşaat Universiteti və İtaliyanın Romualdo del Bianko fondunun birgə

tərəfdaşlığı ilə "Təzyiq altında irs – şəhərlərin tarixi landşaftlarının perspektivləri" adlı Beynəlxalq Bakı Konfransı keçirilmişdir. Geniş auditoriya kütləsi üçün nəzərdə tutulmuş tədbirdə dünyanın bütün qitələrinin 30-dan artıq ölkəsindən 50-dən artıq nüfuzlu elm adamı və ekspertlər iştirak etmişdir. Tədbirdə iştirak edən qonaqların sırasında İtaliya, Fransa, Çexiya, Portuqaliya, Polşa, Almaniya, ABŞ, Kanada, Braziliya, Meksika, Çin, Yaponiya, İsveç, İsrail və digər dövlətlərin Milli İCOMOS Komitələrinin rəhbərləri də olmuşdur.

Konfransda iştirak etmək məqsədilə İCCROM-un Baş direktoru cənab Stefano De Karo, İCOMOS-un Prezidenti cənab Qustavo Araoz və Romualdo del Bianko Fondunun Prezidenti cənab Paolo Del Bianko ölkəmizdə səfərdə olmuş və Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev tərəfindən qəbul edilmişlər. Görüşdə ikitərəfli maraq doğuran məsələlər müzakirə edilmişdir.

24 aprel tarixində Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə Azərbaycan Memarlıq və İnşaat Universitetində "Dərəcə və ixtisas" Regional Tələbə festivalı və 25 aprel tarixində Azərbaycan Turizm İnstitutunda Mədəni mülkiyyətin mühafizəsi və bərpasının öyrənilməsi üzrə beynəlxalq mərkəzin (İCCROM) sabiq baş direktoru, Romualdo del Bianko fondunun xarici əlaqələr üzrə koordinatoru cənab Mark Laenenın moderatorluğu ilə "Mədəni irs - davamlı sosial inkişafın əsası" mövzusunda seminar keçirilmişdir.

Cari ilin 18-21 iyun tarixində Belçika Krallığının Antverpen şəhərində Mədəni İrsin Mühafizəsində Gənclər (YOCOCU) Beynəlxalq şəbəkəsinin 3-cü ənənəvi toplantısı keçirilmişdir. Növbəti tədbirin 2014-cü ildə ölkəmizdə keçirilməsi təklifi irəli sürülmüşdür. 2012-ci ilin 1-5 oktyabr tarixində ölkəmizdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Ağsu rayon İcra Hakimiyyəti, Miras Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, Türkiyənin Doqquz Eylül Universiteti, Qafqaz və Orta Asiya Arxeoloji Araşdırmalar Mərkəzinin ortaq təşkilatçılığı ilə IV Beynəlxalq Avrasiya Arxeologiyası Konfransı keçirilmişdir.

2012-ci ilin 3-5 dekabr tarixində Romualdo del Bianko Fondunun dəvətinə əsasən İtaliya Respublikasının Florensiya əyalətinə səfər təşkil edilmişdir. Səfər çərçivəsində Romualdo del Bianko Fondu ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında gələcək əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmış, Florensiya əyalətinin prezidenti Andrea Barduçi, əyalətin Mədəniyyət üzrə Konsulu Sercio Civoni, Romualdo del Bianko Fondunun Prezidenti Paolo Del Bianko, İCOMOS İtaliya təşkilatının Prezidenti Marurizio di Stefano və YUNESKO Ümumdünya İrs Obyektlərinin İtaliya Assosiasiyasının rəhbəri Karlo Françini ilə görüşlər keçirilmişdir.

Görüşlərdə "Life Beyond Tourism" portalında ölkəmizin mədəniyyətinin və irsinin təbliğ edilməsi, 2013-cü ildə Florensiyada "Azərbaycan irsi festivalı" adlı tədbirin təşkili, ölkəmizdə Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şuranın Milli Komitəsinin (İCOMOS Azərbaycan) yaradılması, 18 aprel – Dünya İrs Günü ilə bağlı qarşılıqlı layihələrin icrası məsələləri müzakirə edilmişdir.

2012-ci ildə bərpa-konservasiya və layihələndirmə işləri də davam etdirilmişdir. Quba rayonu Xınalıq Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun özünəməxsusluğunun saxlanılması məqsədilə qoruqda yerləşən abidə-evlərin dam örtüklərinin dəyişdirilməsi işi başa çatdırılmışdır.

"Yuxarı baş" tarix-memarlıq qoruğunda Şəkixanovların evində, Xınalıq Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun Əbu-Müslüm və Xıdır Nəbi məscidlərində, Gəncədə "Şah Abbas karvansarayı"nda, Bərdədə "Allah-Allah" türbəsində, Fizuli rayonunun "Şeyx Babı" türbəsində bərpa və konservasiya işləri başlanılmışdır.

Lahıc qəsəbəsində Tarixi-Mədəniyyət Qoruğunun yeni inzibati binasının tikintisi, Qəbələ rayonunun Nic kəndində "Bulun" və "Göyün" məbədlərinin bərpası, Qəbələ Dövlət tarix-mədəniyyət qoruğunun ərazisindəki "Səlbir" qalasının bərpa-konservasiyası, Abşeron yarımadasının şimal-şərq istiqamətində yerləşən mayakların və abidələrin bərpası Şabran tarix-mədəniyyət qoruğunun abidələrinin konservasiyası, qoruğun turizm inkişaf və idarəetmə planının hazırlanması üzrə layihə-smeta sənədlərinin hazırlanması davam etdirilir.

Qazax rayonunda yerləşən "Sınıq körpü" abidəsinin bərpası üçün Azərbaycan-Gürcüstan müştərək işçi qrupu yaradılmışdır. İkitərəfli razılığa əsasən Gürcü mütəxəssisləri tərəfindən ölçü işləri aparılmış, Azərbaycan tərəfi isə ərazinin təmizlənməsi işlərini və "Azərbərpa" ETLİ tərəfindən bərpa-konservasiya və möhkəmləndirmə işləri üzrə layihə hazırlanması işlərini tamamlamışdır.

Hazırda körpünün ətraf ərazilərində Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşlarının gürcü arxeoloqları ilə birgə apardığı arxeoloji-tədqiqat və qazıntı-kəşfiyyat işlərinin birinci mərhələsi yekünlaşmaq üzrədir.

2012-ci ilin 24 sentyabr - 26 oktyabr tarixlərində Roma şəhərində İCCROM tərəfindən təşkil edilmiş "Silahlı münaqişələr zamanı mədəni irsə ilk yardım" mövzusunda beynəlxalq kursda "Azərbərpa" ETLİ-nun aparıcı memarı Uğur Qiyasinin iştirakı təmin edilmişdir.

Hesabat dövründə tarix-mədəniyyət qoruqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir.

İl ərzində nazirlik tərəfindən qoruqlara kompyuter dəstləri və digər avadanlıqlar paylanılmışdır.

Basqal Dövlət tarix-mədəniyyət, "Avey" Dövlət tarix-mədəniyyət, "Keşikçidağ" Dövlət tarix-mədəniyyət, "Yanar dağ" Dövlət tarix-mədəniyyət və təbiət qoruqlarının əməkdaşlarının əməyinin ödənilməsi üzrə qrupları dəyişilmişdir və ştat cədvəllərinə yenidən baxılmışdır.

Gəncə-Qazax maqistral yolundakı Gəncə Dövlət tarix-mədəniyyət, Qazax rayonundakı **"**Avey**"** Dövlət tarix-mədəniyyət, Ağstafa rayonundakı **"**Keşişçidağ**"** Dövlət tarix-mədəniyyət qoruqlarının və Gəncə şəhərindəki "Nizami Gəncəvi" məqbərəsi, **"**Şah Abbas**"** və **"**Uğurlu Xan**"** karvansaraları, Cümə məscidi, **"**İmamzadə**"** kompleksi, **"**Zərrabi**"** məscidi, **"**Aleksandr Nevski**"** kilsəsi, Bərdə şəhərindəki **"**Allah-Allah**"** türbəsi, **"**İmamzadə İbrahim**"** məscidi və **"**Qədim Şəmkir şəhəri" abidələrinin istiqamətini və kilometrajını göstərən xüsusi 3 ədəd 3,0 x 6,0 m ölçüsündə bilbordlar və 24 ədəd 1,50 x 0,50 m ölçüsündə yol nişanları (lövhələr) hazırlanıb quraşdırılmışdır.

"Keşikcidaq" Dövlət tarix-memarlıq qoruğunun ərazisində yerləşən tarixi abidələr haqqında "Qədim yurdun daş kitabəsi" adlı sənədli film geniş kütlə arasında təbliğ edilmiş, qoruğun üç dildə internet saytı yaradılmışdır.

"Pir Hüseyn Xanəgahı" tarix-memarlıq qoruğunda daxili imkanlar və dövlət vəsaiti hesabına inzibati otaqların tikintisi başa çatdırılmışdır.

Qobustan, "Şəki Xan Sarayı", Keşikçidaq, Pir Hüseyn Xanəgahı, Avey, Xınalıq, Qəbələ abidələri haqqında bukletlər çap edilmişdir.

"Pir Hüseyn Xanəgahı" tarix-memarlıq qoruğunun direktoru M.Xəlilov nazirlik tərəfində Fəxri Diplomla təltif edilmişdir.

Cari ildə tarix-mədəniyyət qoruqları tərəfindən 300 minə qədər ziyarətçiyə yüksək səviyyəli mədəni xidmət göstərilmişlər.

KİNEMATOQRAFİYA

2012-ci il ərzində "Azərbaycanfilm" kinostudiyasında "Qisas almadan ölmə" bədii filminin səsləndirməsi prosesi başa çatmış, "Canlı" bədii filminin işçi versiyasına baxış keçirilmişdir. "Qorxma mən səninləyəm-2" (Azərbaycan-Rusiya) bədii filmi üzrə montaj-səsləndirmə işləri davam etdirilməkdədir. "Dərvişin ölümü" bədii filminin çəkilişləri başa çatmışdır. "Çölçü", "Dolu", "Sübhün səfiri" bədii, "Sıfır saatının qatarı-2" və "Nizami" sənədli filmləri təhvil verilmişdir.

"Salnamə" studiyası "Müslüm Maqomayev" musiqili sənədli filmi üzərində işləri başa çatdırmışdır. "Mən evimə qayıdıram" bədii filmi üzrə işlər isə tamamlanmaq üzrədir. "Qırmızı bağ" bədii filminin montajı aparılır. "Mahmud və Məryəm" (Azərbaycan-Türkiyə) bədii filminin çəkilişləri başa çatmış, montaj-səsləndirmə işlərinə başlanmışdır. "15 ispaniyalı Bakıda" (Azərbaycan-İspaniya) sənədli filmi təhvil verilmə ərəfəsindədir. "İşıqlı diyar", "Biz dost idik" və alman kinematoqrafçıları ilə birgə çəkilmiş "Azərbaycanın muğam-cazı" sənədli filmləri təhvil verilmişdir.

"Yaddaş" studiyasında "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən 10 sənədli film üzərində işlər davam edir. "Ağa Nemətulla" və "Fərhad Bədəlbəyli" sənədli filmləri istehsalın müxtəlif mərhələsindədir. "Aleksandr Düma Azərbaycanda" (Azərbaycan-Fransa) sənədli filminin çəkilişləri tamamlanmış, ilkin versiya hazırlanmışdır.

"Azanfilm" studiyasında "Balaca ev" cizgi filmi təhvil verilmişdir.

"Mozalan" studiyasında yumoristik kinojurnalın 192-ci nömrəsinin çəkilişləri davam edir.

"Birlik kinostudiyası" MMC-də istehsala buraxılmış "Səmada şəkil" cizgi filmi təhvil verilmişdir.

"Üç dost" şirkətində istehsala buraxılmış "Cırtdan və Təpəgöz" 3D formatında cizgi filmi təhvil verilmişdir.

"Debüt" studiyasında "Alo, bu mənəm!" qısametrajlı bədii film istehsala buraxılmışdır.

"Sinema evi" prodüser mərkəzində "Mənim doğmalarım" (Azərbaycan-Rusiya) sənədli filminin çəkilişləri başa çatdırılmışdır.

Kinonun inkişafına dair Dövlət Proqramının icrasını təmin etmək, kinematoqrafiya sahəsində çalışan gənc mütəxəssislərə özlərini sınamaq üçün imkan yaratmaq, həmçinin audiovizual məhsul istehsalı ilə məşğul olan şirkətlərə dəstək vermək, onların fəaliyyəti üçün stimul yaratmaq məqsədilə elan edilmiş "Bu meydan, bu ekran-2012" kino layihələri

müsabiqəsinin münsiflər heyətinin qərarına əsasən qalib layihələr təsdiq edilmişdir: “Senzor” (Gənc Film İstehsalçıları Assosiasiyası), “Gözlənti” layihəsi (“Rakord” şirkəti“) və “Arzu“ layihələri (“Adari Films” şirkəti).

Nizami Kino Mərkəzində fevralın 29-da “Azərbaycanfilm” kinostudiyasının internet saytının təqdimatı, martın 9-da “Bəxt üzüyü” bədii filminin ekranlara çıxmasının 20 illiyi münasibətilə bədii axşamlar, martın 14-də “Yaddaş” studiyasının istehsalı olan “Üfüqü ötənlər” bədii-sənədli filmin, martın 30-da Azərbaycanlıların Soyqırımı Günü münasibəti ilə “Yaddaşın rəmzi. Quba-1918” sənədli filminin təqdimatları, martın 29, 30-u və aprelin 1-də Qazaxıstan Kinosu Günləri, aprelin 2-6-da Rusiya Kinosu Günləri keçirilmişdir.

Aprelin 24-də Nizami Kino Mərkəzində “Oxuyur Müslüm Maqomayev” bədii filminin 40 illiyi ilə bağlı bədii axşam, mayın 2-də “Gənclərin Qısa Filmləri” kino axşamı, mayın 16-da Polşa səfirliyi ilə birgə “Korçak” bədii filminin nümayişi, mayın 18-dən 29-dək “Bizim qısa filmlər” başlığı altında son illər çəkilən qısametrajlı filmlərin nümayişi, sentyabrın 26-da “Azərbaycanfilm” kinostudiyası və “Obafilm” Prodüser Mərkəzinin birgə istehsalı olan “Su başında durmuşuq, çinarla mən” tammetrajlı sənədli filminin, noyabrın 14-də alman rejissoru Klaus Bernhardt və “Salnamə” studiyasının birgə çəkdikləri “Sarı gəlin. Azərbaycanda muğam-caz” sənədli filminin, noyabrın 15-də kütləvi informasiya vasitələrinin nümayəndələri üçün “Üç dost” şirkətində gənc animatorlar Rəşad Əfəndiyev və Yusif Qabilov tərəfindən 3D formatda çəkilmiş “Cırtdan və Təpəgöz” cizgi filminin təqdimatı keçirilmişdir.

Noyabrın 28-də rejissor Ramiz Həsənoğlunun ”Sübhün səfiri” bədii filminin premyerası təşkil olunmuşdur. Dekabrın 13-15-də TÜRKSOY çərçivəsinsdə Türkiyədə (İstanbul, Ankara) və Şimali Kıprısda “Sübhün səfiri” filminin təqdimatları təşkil olunmuşdur.

İyunun 4-də Mədəniyyət və Turizm Nazirliyi Serbiya səfirliyi ilə birgə Nizami Kino Mərkəzində 223-cü Belqrad diviziyasının 70 illiyinə həsr olunmuş “Xəzərdən Dunaya” sənədli filminin təqdimatını keçirmişdir.

İyunun 12-də Beynəlxalq Muğam Mərkəzində “Ankaf” şirkətinin istehsal etdiyi “Sarı gəlin” sənədli filminin təqdimatı keçirilmişdir. TÜRKSOY və “Güven Klinik”in dəstəyi ilə keçirilən tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Başqırdıstan, Hakas Respublikası və Qaqauz Yerini (Moldova) təmsil edən folklor kollektivlərinin ifasında “Sarı gəlin” mahnısı ifa edilmişdir.

19-20 iyun tarixdə Nizami Kino Mərkəzində Mədəniyyət və Turizm Nazirliyi, MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu və MDB-yə üzv, Latviya, Litva və Estoniyanın “Kinoşok” Açıq Kino Festivalı Bakıda festivalın qalib filmlərinə baxış təşkil etmişdir.

İyul ayının 12-dən 19-dək “Azərbaycanfilm” kinostudiyasının bazasında tanınmış kinorejissor Kşiştof Zanussinin gənc kino rejissorlar üçün ustad dərsləri təşkil edilmişdir.

Avqustun 2-də Milli Kino Günü münasibətilə Nizami Kino Mərkəzində bayram tədbiri və rejissor Elxan Cəfərovun “Dolu” filminin təqdimatı keçirilmişdir. Daha sonra filmin yaradıcı heyəti respublikamızın bir çox bölgələrində, Sumqayıt, İsmayıllı, Şamaxı, Ağdam, Ağcabədi, Şabran və b. şəhərlərdə tamaşaçılarla görüşmüş və filmin nümayişi təşkil edilmişdir. Dekabrın əvvəlində “Dolu” filminin Moskva, Sankt-Peterburq və Yekaterinburq şəhərlərində təqdimatları baş tutmuşdur.

Dövlət Film Fondu martın 1-də tanınmış aktyor Eldəniz Zeynalovun 75 illiyinə həsr olunmuş xatirə gecəsi keçirmiş, martın 12-də yazıçı və kinodramaturq Əli Qafarovun xatirə gecəsi, martın 29-da isə tanınmış kino rəssamı Fikrət Əhədovun 75, Rasim İsmayılovun 75, dekabrın 11-də kinorejissor Rüfət Şabanovun 90 illiyi ilə bağlı xatirə gecələri və fotosərgilər

təşkil etmişdir. Mayın 10-da Dövlət Film Fondunda Heydər Əliyevin 89 illiyi ilə əlaqədar elmi konfrans və ulu öndərin həyat yolunu əks etdirən fotosərgi təşkil olunmuşdur.

15-27 may tarixində 65-ci Beynəlxalq Kann Kinofestivalında Azərbaycanı təmsil edən xüsusi pavilyon fəaliyyət göstərmişdir. Artıq ikinci dəfə təşkil olunan pavilyonu yüzlərlə festival iştirakçısı və qonaqlar ziyarət etmişlər, bir sıra işgüzar danışıqlar aparılmış, ilkin razılaşmalar əldə olunmuşdur.

14-24 sentyabr tarixində 21-ci "Kinoşok" kinofestivalı çərçivəsində filmlərimizdən ibarət "Fokus - Azərbaycan" xüsusi kino proqramı nümayiş etdirilmişdir: "Niyyət", "40-cı qapı", "İlahi məxluq", "Mayak" (qısametrajlı), "Çölçü" bədii filmi festivalın müsabiqə proqramında iştirak etmişdir.

9-11 oktyabr tarixində Mədəniyyət və Turizm Nazirliyi və Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə I Bakı Beynəlxalq İdman Filmləri Festivalı keçirilmişdir. Nizami Kino Mərkəzində üç festival günü ərzində 19 ölkənin təqdim etdiyi 50 bədii və sənədli filmə baxışlar təşkil olunmuşdur. Serbiya, Rusiya, Belarus, Bolqarıstan və Azərbaycanı təmsil edən mütəxəssislərdən ibarət beynəlxalq münsiflər heyəti festivalın qalibini Qran-Pri mükafatına layiq görmüş, həmçinin "İdman və cəmiyyət" və "İdman və şəxsiyyət" nominasiyaları üzrə qalib filmləri müəyyən etmişdir.

Oktyabrın 29-dan 31-dək Tbilisidə təşkil olunmuş Azərbaycan kinosu ilə bağlı yaradıcılıq görüşləri çərçivəsində nümayəndə heyətimiz gürcü tamaşaçılarına Rasim Ocaqovun "Ad günü" və İlqar Safatın "Sahə" filmlərini təqdim etmişdir.

Moldovada və Belarusda Azərbaycan Mədəniyyəti Günləri çərçivələrində "Azərbaycan kinosu günləri" keçirilmiş və bir sıra filmlərimiz nümayiş etdirilmişdir.

Noyabrın 1-dən 4-dək Londonda ilk dəfə keçirilmiş Azərbaycan-London Film Festivalı çərçivəsində Azərbaycan kinosu "Buta", "İlahi məxluq", "Sahə" və "40-cı qapı" bədii, həmçinin "Azərbaycan xalçası", "Azərbaycan motivləri", "Çövkən" və "Qobustan" sənədli filmlərindən ibarət proqramla təmsil olunmuşdur.

Noyabrın 20-dən 25-dək Daşkənddə "Yenidən başlanmış dialoqlar" adlı 5-ci regional sənədli filmlər seminarında Arzu Urşanın "Top həm qalxar, həm düşər", Fariz Əhmədovun "Miras" və "Lahıc ritmləri" və Seyran Mahmudoğlunun "Neft adamı" filmləri nümayiş etdirilmişdir.

2012-ci il ərzində "Buta" bədii filmi Cənubi Afrikada, ABŞ-da, İtaliyada, Misirdə, Hindistanda və Polşada, "Girov" bədii filmi Fransada "Avropa Film Art Kino", "Nizami" bədii filmi Sankt-Peterburqda "Ədəbiyyat və kino", "Məhkumlar" bədii filmi İstanbulda "Sinema və ədəbiyyat", sənədli filmlərdən "Çövkən" Qazaxıstan, İtaliya, Rusiya və Türkiyədə, "Azərbaycan xalçası" Qazaxıstanda beynəlxalq kino festivallarda iştirak etmişlər. "Sahə" bədii filmi ABŞ-da keçirilən "California Film Awards" müsabiqəsində "Ən yaxşı bədii film" nominasiyasında qızıl mükafata layiq görülmüşdür. "Mayak" qısametrajlı bədii filmi İtaliya, Səudiyyə Ərəbistanı, Polşa, İran, Gürcüstan, Bosniya-Hersoqovina, Rusiyada keçirilmiş kinofestivalların iştirakçısı olmuş, bir sıra mükafatlara layiq görülmüşdür. "Top həm düşər, həm qalxar" sənədli filmi İstanbulda keçirilən Beynəlxalq İdman filmləri festivalında qalib film elan edilmiş, Serbiyada təşkil olunan "Zlatibor 2012" Beynəlxalq İdman Filmləri Festivalının birinci mükafatını almışdır.

Hesabat dövrü ərzində ayrı-ayrı televiziya kanallarının, dövlət studiyalarının təqdim etdikləri 372 film dövlət reyestrində qeydə alınmışdır.

## NƏŞRİYYAT, REKLAM, İNFORMASİYA VƏ KİTABXANA İŞİ

Hesabat dövründə Nazirliyin müvafiq iş planına uyğun olaraq nəşriyyat, reklamın təşkili və informasiya sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Bunlardan ən mühümü reklam sahəsində Azərbaycanda ilk dəfə olaraq keçirilən beynəlxalq elmi-praktik konfrans olmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Reklamçılar İttifaqı ilə birlikdə 29-30 mart 2012-ci il tarixində "Hilton" otelində keçirdiyi "Reklam mədəniyyəti – reallıq və perspektivlər. Reklam və marketinq məsələlərinə müasir baxış" mövzusunda I Bakı Beynəlxalq Elmi-Praktik Konfransında yerli mütəxəssislərlə yanaşı 15 xarici ölkədən 17 tanınmış reklam, marketinq və turizm mütəxəssisi iştirak etmişdir. Eyni zamanda 35-dən çox yerli reklam və turizm şirkəti bu konfransın iştirakçısı olmuşdur.

Konfransın açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev reklamçılıq sahəsində mövcud vəziyyət, dünya təcrübəsinə baxış, reklam dizaynı, müasir standartlara cavab verən reklam mədəniyyətinə sahib olmaq imkanları, habelə mədəniyyət və turizm sahələrinin reklam təminatı kimi bir sıra aktual və vacib məsələlərin müzakirə olunması, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması yollarının araşdırılması, həmçinin ölkəmizdə reklam işinin inkişafı baxımından bu tədbirin böyük əhəmiyyət daşıdığını xüsusilə vurğulamışdır.

Açılış mərasimi ərəfəsində iştirakçılar və ziyarətçilər konfrans salonunda təşkil edilən reklam sərgisi ilə tanış olmuşlar.

İki gün davama edən konfransda iştirakçılar müxtəlif məruzələrlə çıxış etmişlər.

Məruzələr interaktiv xarakter daşımış, məruzəçilər dinləyiciləri maraqlandıran suallara yerindəcə cavab vermişlər.

Konfransın ikinci günü mütəxəssislər müxtəlif mövzularda ustad dərsləri keçmişlər. Ustad dərslərində 280 nəfərdən çox dinləyici – universitet tələbələri və digər maraqlanan şəxslər iştirak etmişdir. Sonda konfransın yekun qətnaməsi qəbul olunmuşdur.

Eyni zamanda reklam sahəsində xidmətlərinə və konfransın təşkilində fəal iştiraka görə bir çox reklam və turizm şirkətinə, qocaman reklamçılara, tələbələrə, həmçinin Nazirliyinin iki əməkdaşına fəxri diplomlar verilmişdir.

Konfrans AzTV, İTV və digər telekanallarda, mətbuatda və elektron informasiya daşıyıcılarında geniş işıqlandırılmışdır. Nazirliyin rəsmi saytında və "Mədəniyyət" qəzetində konfrans haqqında mütəmadi məlumatlar verilmişdir. Həmçinin konfransa həsr olunmuş xüsusi jurnal və qəzet çap olunmuşdur.

Hesabat dövründə, Nazirliyin 2012-ci il üçün kitab nəşri planına uyğun olaraq 70 adda kitab nəşr olunmuşdur. Çap olunan kitablardan, M.Ə.Sabirin "Hophopnamə", "Sabirin satira sənətkarlığı", "Sabir Bakıda", "Sabir Poeziya Günləri" almanaxı, "Sabir təsviri sənətdə" albomu, "M.F.Axundzadə şəxsiyyəti", "Aqşin Babayev - 75", Nağı Nazğıyevin "Seçilmiş əsərləri", Abdulla Şaiqə həsr olunmuş "Əgər Şaiq olmasaydı" xatirələr və məqalələr toplusu, Məmməd Namazın "Günəş ömürlü insan", "Azərbaycanın Xalq rəssamı Davud Kazımov", Xalq artisti Habil Əliyevə həsr olunmuş "Kaman əfsanəsi" Aydın Dadaşovun "Müasir Azərbaycan dramaturgiyası", Vaqif Bəhmənlinin "Müslim Maqomayev" (albom-kitab), Məhsəti Gəncəvinin

“Rübailər”, Əli Vəliyevin “Budağın xatirələri”, Məhəmməd Füzulinin “Leyli və Məcnun” (rus dilində), Yusif Səmədoğlunun “Deyilənlər gəldi başa”, Elçin Əfəndiyevin “Pyeslər” və başqalarını xüsusilə qeyd etmək olar.

Eyni zamanda, Nazirliyin 2011-ci il üçün illik hesabatı kitab şəklində nəşr edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarının icrasına uyğun olaraq il ərzində Azərbayacanın görkəmli şair və yazıçılarından Nizami Gəncəvinin – 870, Mirzə Fətəli Axundzadənin – 200, Xurşidbanu Natəvanın –180, Ələkbər Sabirin –150, Əhməd Cavadın – 120, Məmməd Səid Ordubadinin – 140, Mirvarid Dilbazinin – 100, Hüseyn Cavidin – 130, Xəlil Rza Ulutürkün – 80 illik yubileylərinin geniş qeyd olunması məqsədilə ayrı-ayrılıqda müvafiq Tədbirlər Planı hazırlanmış, təsdiq edilmiş və icra olunmuşdur.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyinə həsr olunmuş tədbirlər xüsusilə genişmiqyaslı və cəlbedici olmuşdur.

2012-ci il sentyabrın 19-da M.F.Axundzadə adına Milli Kitabxanada dahi şairin anadan olmasının 870 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Nizaminin sözlərinə yazılmış mahnılardan ibarət diskin, 21-də memarlıq doktoru, professor Nəriman Əliyevin "Nizami Gəncəvinin memarlıq düşüncələri" və filologiya elmləri doktoru, professor Mübariz Yusifovun "Nizamidə azərbaycançılıq" kitablarının, 24-də kitabxananın əməkdaşları tərəfindən hazırlanmış "Nizami Gəncəvi. Biblioqrafiya" kitabının və "Nizami Gəncəvi" elektron məlumat bazasının təqdimat mərasimləri, sentyabrın 27-də isə TÜRKSOY-a üzv ölkələrin milli kitabxanalarının nümayəndələrinin iştirakı ilə "Nizami irsinin təbliği" mövzusunda Beynəlxalq elmi konfrans keçirilmişdir.

29 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncə şəhərində təntənəli yubiley tədbirlərinə start verilmişdir. Yubiley tədbirləri ümummilli lider Heydər Əliyevin abidəsini ziyarətlə başlamışdır. Qonaqlar və şəhər ictimaiyyətinin nümayəndələri ulu öndərin abidəsi önünə gül dəstələri qoyaraq, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olan bu dahi şəxsiyyətə ehtiramlarını bildirmişlər.

Yubiley tədbiri dahi şairin məqbərəsi önündə davam etdirilmişdir. Burada tədbir iştirakçılarını şərbətlə qarşılayan milli geyimli məktəblilər müxtəlif dillərdə dahi şairin əsərlərindən parçalar söyləmiş, qonaqları qədim Azərbaycan rəqsləri ilə salamlamışlar.

Minlərlə şəhər sakininin qatıldığı bu mərasimdə Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, təhsil naziri Misir Mərdanov, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı diplomatik korpuslarının nümayəndələri, 14 ölkədən dəvət olunmuş 150-dən artıq alim iştirak etmişdir.

Gəncədəki Heydər Əliyev Mərkəzində Nizami Gəncəvinin poemalarının yeni tərcümə və tərtibatda nəşr olunmuş nüsxələrinin təqdimatı olmuşdur.

Nizami Gəncəvinin 870 illik yubileyinə həsr onunan başlıca təntənli tədbir isə oktyabrın 1-də Bakıda Heydər Əliyev Sarayında keçirilmişdir.

Sarayın foyesində dahi söz ustadı ilə bağlı hazırlanmış kitab və rəsm əsərlərindən ibarət sərgi nümayiş olunmuş və qonaqlar tərəfindən böyük maraqla izlənilmişdir.

Təntənəli yubiley mərasimini giriş sözü ilə Azərabaycan Respubliksının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev açmış, Azərabaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev Nizami Gəncəvi dühası, onun bəşəri irsi, dahi şairin yaradıcılığını haqda geniş məlumat vermiş, daha sonra Misirin məşhur İsgəndəriyyə Kitabxanasının direktoru İsmayıl Səragəldin, Qazaxıstan Respublikasının UNESCO-dakı daimi nümayəndəsi, tanınmış yazıçı Oljas Süleymenov, Xalq Yazıçısı Anar, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və İtaliya Şərqşünaslıq İnstitutunun professoru, türkoloq Mikeli Bernandini çıxış edərək dahi şairin irsinin əhəmiyyətindən danışmışlar.

Yubiley münasibətilə Nazirlik tərəfindən dahi şairin “Lirika”sı nəfis şəkildə nəşr olunmuş, il ərzində respublika kitabxanalarında Nizami Gəncəvinin yaradıcılığına həsr edilən çoxlu dəyirmi masalar və kitab sərgiləri, bölgələrdə isə müxtəlif tədbirlər təşkil olunmuşdur.

Nizami Gəncəvinin 870 illik yubileyi müəyyən anlamda beynəxalq xarakter daşımış, dünyanın bir çox ölkələrində bu münasibətlə müxtəlif tədbirlər təşkil olunmuşdur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu il İtaliyanın Roma şəhərinin "Villa Borqhese" parkında Avropada ilk dəfə olaraq böyük şairimizin abidəsi ucaldılmış və 2012-ci ilin aprel ayında abidənin təntənəli açılış mərasimi keçirilmişdir.

13-14 sentyabr 2012-ci il tarixində Rusiyanın paytaxtı Moskva şəhərində Nizami Gəncəvinin adını daşıyan bağda və şairin heykəli önündə, həmçinin azərbaycanlıların ictimai təşkilatı olan "Şəhriyar" ədəbi məclisi ilə birlikdə Moskvadakı "Bakı" kinoteatrında "Nizami poeziya günləri" keçirilmişdir. Hər iki tədbirdə şairin əsərlərindən parçalar səslənmiş, onun sözlərinə yazılmış mahnılar və muğam ifa olunmuşdur.

10-14 oktyabr 20912-ci il tarixində Almaniyanın Frankfurt şəhərində keçirilən Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində oktyabrın 13-də Nizami Gəncəvinin 870 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə sıravi ziyarətçilərlə yanaşı Azərbaycan, İran və türk diasporunun nümayəndələri, yerli universitetlərin tanınmış alim və mütəxəssisləri iştirak etmişlər.

2012-ci il 11-15 noyabr tarixdə Moldovada keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində paytaxt Kişineu şəhərinin mərkəzində dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan parkda əsaslı yenidənqurma və bərpadan sonra, şairin yenilənmiş büstünün açılışı olmuşdur.

17-20 noyabr 2012-ci il tarixində Türkiyənin İstanbul şəhərində keçirilən XXXI İstanbul Beynəlxalq Kitab Sərgisi çərçivəsində "Azərbaycan xəmsəsi - Nizami Gəncəvi, Mirzə Fətəli Axundzadə, Xurşidbanu Natəvan, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid. Türk dünyasının beş dahi söz ustadı" adlı elmi, ədəbi-bədii konfrans keçirilmişdir.

Mədəniyyət və Turizm Nazirliyi Hindistanın İ.Qandi adına Mədəniyyət Mərkəzi ilə birgə 29 noyabr - 1 dekabr 2012-ci il tarixdə Nyu Dehli şəhərində Nizami Gəncəviyə həsr edilmiş elmi konfrans, dekorativ, rəsm, xalça, numizmatika və tematik kitab sərgisi təşkil olunmuşdur.

Çin Xalq Respublikasının paytaxtı Pekinin Çaoyan parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin büstü qoyulmuşdur. Bununla bağlı Azərbaycanın Pekindəki səfirliyinin təşkil etdiyi mərasimdə Çinin Xarici İşlər və Mədəniyyət nazirliklərinin rəsmiləri, Türkiyə, Özbəkistan, Gürcüstan, Tacikistan, Bosniya və Herseqovina, Əlcəzair və Əfqanıstanın Pekindəki səfirləri, şəhər rəhbərliyinin nümayəndələri iştirak etmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında" 851 nömrəli, 13 aprel 2010-cu il tarixli sərəncamına əsasən Mədəniyyət və Turizm Nazirliyi Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla tədbirlər planı hazırlayıb həyata keçirmişdir.

Tədbirlər planına əsasən 27 noyabr 2012-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında M.F.Axundzadənin 200 illik yubileyi təntənəli şəkildə qeyd edilmiş, tədbirdə paytaxt ictimaiyyətinin tanınmış nümayəndələri ilə yanaşı bölgələr də yüksək səviyyədə təmsil olunmuşdur.

Ədəbin doğma vətəni Şəki şəhərində M.F.Axundzadənin xatirəsinə həsr edilmiş «Deyilən söz yadigardır» VI Ümumrespublika bədii-qiraət müsabiqəsinin növbəti mərhələsi geniş ictimai maraq doğurmuşdur. M.F.Axundzadənin Şəki şəhərindəki ev muzeyində rekonstruksiya, əsaslı təmir-bərpa və bədii tərtibat işləri aparılmışdır. Tədbirlər Planına əsasən «Azərbaycan teatr sənətinin inkişafında M.F.Axundzadə yaradıcılığının rolu» mövzusunda elmi-praktik konfrans, Şəki kitabxanalarında ədibin yaradıcılığına həsr olunmuş konfranslar keçirilmiş, Şəki rəssamlarının sərgisi təşkil edilmiş, böyük ədiblə bağlı arxiv materiallarının alınması və toplanması işi davam etdirilmişdir. Tbilisi şəhərində M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində ədibin 200 illik yubileyi qeyd edilmiş, M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə Şəki şəhərindəki ev muzeyi arasında birbaşa əlaqələr genişləndirilmişdir.

Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzdə dəyirmi masa keçirilmiş, respublikanın şəhər və rayonlarında yubiley tədbirləri, ədəbi-bədii və xatirə gecələri, görüşlər keçirilmiş, kitab

sərgiləri, foto-stendlər hazırlanmışdır. M.F.Axundzadənin seçilmiş əsərləri rus, ingilis və fransız dillərinə tərcümə edilmiş, ona həsr olunmuş veb sayt və ensiklopediya yaradılmış, onun adına mükafatın bərpa edilməsi ilə bağlı vəsatət qaldırılmışdır. M.F.Axundzadənin əsərlərindən ibarət kitab sərgisi təşkil edilmiş, “Axundzadə və Gürcüstan”, “Bir cimrinin hekayəsi” (komediyalar türk dilində) kitabları və «Silinməz izlər» silsiləsindən “Axundzadə şəxsiyyəti” bədii-publisistik-elmi araşdırması nəşr edilmiş, «Mədəniyyət» qəzetində və «Mədəni həyat» jurnalında dahi sənətkarın yaradıcılığı haqqında yazılar işıq üzü görmüşdür. Eyni zamanda, televiziya və radioda xüsusi verilişlər hazırlanmışdır. C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında M.F.Axundzadənin həyat və yaradıcılığına həsr edilən «Sübhün səfiri» adlı bədii film çəkilmiş, Nizami Kino Mərkəzində təntənəli təqdimat mərasimi keçirilmişdir.

Məlum olduğu kimi 2012-ci il TÜRKSOY tərəfindən “Mirzə Fətəli Axundzadə İli” elan edilmişdir. Bununla əlaqədar, cari ilin 26 yanvar tarixində TÜRKSOY qərargahında təşkil edilmiş “M.F.Axundzadə İli”nin rəsmi açılış mərasimində Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

Açılış mərasimində milli dramaturgiyamızın banisi M.F.Axundzadənin həyat və yaradıcılığı, onun Azərbaycan ədəbiyyatındakı rolu, o cümlədən “Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 851 nömrəli, 13 aprel 2010-cu il tarixli sərəncamına uyğun olaraq həyata keçirilən tədbirlər barədə iştirakçılara məlumat verilmişdir. Tədbirdə Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Türkiyənin kültür və turizm naziri Ərtuğrul Günay, TÜRKSOY təşkilatının Baş katibi Düsen Kaseinov, Gürcüstanın mədəniyyət və abidələrin qorunması naziri Nikoloz Rurua, Azərbaycan Milli Elmlər Akademiyasının professoru, ədəbiyyatçı Zaman Əsgərli və Türkiyənin Ege Universitetinin professoru Yavuz Akpınar M.F.Axundzadə yaradıcılığı və onun əsərləri barədə geniş məruzələrlə çıxış etmişlər. Həmçinin, mərasimdə “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən istehsal olunmuş M.F.Axundzadənin həyat və yaradıcılığından bəhs edən “Sabahın elçisi” filmi göstərilmiş, Azərbaycan muğam ifaçılarının konserti və “Mirzə Fətəli Axundzadənin Məmləkəti” adlı foto-sərgi təşkil olunmuşdur.

Tədbirin yekununda “M.F.Axundzadə İli”nin TÜRKSOY-a üzv olan bütün ölkələrdə yüksək səviyyədə keçirilməsi məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi qərara alınmışdır.

14 sentyabr 2012-ci il tarixində Beynəlxalq Muğam Mərkəzində Xurşidbanu Natəvanın 180 illik yubileyinə həsr olunmuş təntənəli ədəbi-bədii tədbir keçirilmişdir.

Ölkənin şəhər və rayon kitabxanalarında Xurşidbanu Natəvanın yaradıcılığına həsr edilmiş sərgi-stendlər yaradılmış, ölkənin mədəniyyət müəssisələrində şairənin həyat və yaradıcılığına həsr olunmuş konfranslar keçirilmiş, oxucularla dəyirmi masalar təşkil olunmuşdur.

Xurşidbanu Natəvanın əsərlərindən ibarət “Neçin gəlməz” kitabı nəşr olunmuşdur.

30-31 may 2012-ci il tarixləri arasında nüfuzlu xarici qonaqların iştirakı ilə Şamaxıda və Bakıda M. Ə. Sabirinin 150 illik yubileyinə həsr olunmuş təntənəli mərasimlər və ənənəvi “Sabir poeziya günləri” keçirilmişdir. Bu mərasimlərdə 10 ölkədən (Türkiyə, Qazaxıstan Qırğızıstan, Ukrayna, Litva və s.) 18 xarici qonaq iştirak etmişdir. Şamaxı şəhərində M. Ə. Sabirin məqbərəsi təmir olunmuş və ətraf sahəsi abadlaşdırılmışdır. Yubiley çərçivəsində respublika kitabxanalarında oxucu konfransları, dəyirmi masalar, kitab təqdimatları keçirilmiş, şair haqqında Azərbaycan, ingilis və rus dillərində “Sabiri düşünərkən” adlı 24 dəqiqəlik sənədli film hazırlanmışdır.

M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasında M. Ə. Sabirin əsərləri və onun haqqında yazılan əsərlərdən ibarət sərgi təşkil olunmuşdur.

Alxan Bayramoğlunun “Sabir Bakıda (şairin həyat və yaradıcılığının Bakı dövrü)” monoqrafiyası, Akif Əlinin “M. Ə. Sabirin satira sənətkarlığı”, Z. Əliyevin “Sabir təsviri sənətdə” kitabları və ”Sabir poeziya günləri” poeziya toplusu nəşr olunmuşdur. Eyni zamanda M. Ə. Sabirin “Hophopnamə” əsəri nəfis tərtibatla, yeni illüstrasiyalarla işıq üzü görmüşdür.

5 iyun 2012-ci il tarixində Muzey Mərkəzində Sabirin “Hophopnamə” əsərinə həsr olunmuş Xalq rəssamı Arif Hüseynovun və Əməkdar incəsənət xadimi Bayram Hacızadənin qrafika əsərlərindən ibarət sərgi təşkil olunmuşdur. Sərgidə 55 rəsm əsəri nümayiş etdirilmişdir.

5 iyun 2012-ci il tarixində Azərbaycan Dövlət Filarmoniyasında Əhməd Cavadın xatirəsinə həsr olunmuş təntənəli ədəbi-bədii tədbir keçirilmişdir.

May ayında Ü.Hacıbəylinin ev muzeyində “Onlar ilk Azərbaycan himninin yaradanlardır” adlı tədbir keçirilmiş, Əhməd Cavadın “Sən olasan gülüstan” adlı seçilmiş əsərləri nəşr olunmuşdur. Nazirliyin tabeliyində olan kitabxanalarda şairin bütün əsərlərinin elektron kataloqa daxil edilməsi işi görülmüş, “Əhməd Cavad –120” adlı yubiley tədbirləri və kitab sərgiləri keçirilmişdir. Bakı, Gəncə, Sumqayıt şəhər mədəniyyət və turizm idarələri, şəhər (rayon) mədəniyyət və turizm şöbələri tərəfindən yerlərdə Əhməd Cavadın 120 illik yubileyi ilə bağlı tədbirlər təşkil olunmuşdur.

27 iyun 2012-ci il tarixində Azərbaycan Dövlət Filarmoniyasında Məmməd Səid Ordubadinin 140 illik yubileyinə həsr olunmuş təntənəli ədəbi-bədii tədbir keçirilmişdir.

Yubiley münasibətilə Məmməd Səid Ordubadinin “Dumanlı Təbriz” əsəri (iki cilddə) nəşr edilmiş, yazıçının xatirə muzeyində ilk yaradıcılıq illəri, poeziyası, dramaturgiyası, publisistik və bədii yaradıcılığında II Dünya müharibəsi mövzusuna dair silsilə tədbirlər keçirilmişdir.

Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzdə M. S. Ordubadinin həyat və yaradıcılığına həsr olunmuş dəyirmi masa təşkil edilmişdir.

Respublikanın şəhər (rayon) mədəniyyət və turizm idarə və şöbələri tərəfindən Məmməd Səid Ordubadinin 140 illik yubileyinə həsr olunmuş müxtəlif tədbirlər keçirilmişdir.

10 oktyabr 2012-ci il tarixində R. Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Mirvarid Dilbazinin anadan olamsının 100 illiyi münasibətilə təntənəli yubiley gecəsi keçirilmişdir.

Yubilelə əlaqədar Mirvarid Dilbazinin seçilmiş əsərlərindən ibarət kitab və tənqidçi-publisist Südabə Ağabalayevanın Mirvarid Dilbazinin həyat və yaradıcılığı ilə bağlı tədqiqat əsəri nəşrə hazırlanmışdır. Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan kitabxanalarda “Mirvarid Dilbazi –100” adlı yubiley tədbirləri və kitab sərgiləri keçirilmişdir. Mədəniyyətşünaslıq üzrə Elm-Metodiki Mərkəz tərəfindən Mirvarid Dilbaziyə həsr olunmuş dəyirmi masa təşkil olunmuşdur.

24 oktyabr 2012-ci il tarixində Azərbaycan Dövlət Dram Teatrında Hüseyn Cavidin anadan olamsının 130 illik yubileyinə həsr olunmuş təntənəli ədəbi-bədii tədbir keçirilmişdir.

Yubileylə əlaqədar Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Hüseyn Cavidin “Şeyx Sənan” tamaşası səhnəyə qoyulmuş, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi tərəfindən Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən fotosərgi təşkil edilmiş, Nizami Kino Mərkəzində “Cavid ömrü” filmi nümayiş olunmuşdur. Hüseyn Cavidin “Dram əsərləri” kitab halında buraxılmışdır.

Nazirliyin tabeçiliyində olan idarə, təşkilat və müəssisələrdə yubiley tədbirləri və kitab sərgiləri keçirilmiş, M. F. Axundzadə adına Azərbaycan Milli Kitabxanasının və C. Cabbarlı adına Respublika Gənclər Kitabxanasının elektron kitabxanalarına Hüseyn Cavidin əsərlərinin tam mətnlərinin yerləşdirilməsi işinə başlanılmışdır.

30 oktyabr 2012-ci il tarixində Azərbaycan Dövlət Dram Teatrında Xəlil Rza Ulutürkün 80 illik yubileyinə həsr olunmuş təntənəli ədəbi-bədii tədbir keçirilmişdir.

Bu yubiley münasibətilə Xəlil Rza Ulutürkün “Seçilmiş əsərləri” nəşr olunmuş, Salyan Tarix-Diyarşünaslıq muzeyində Xəlil Rza Ulutürk guşəsi təkmilləşdirilmiş və şairin 80 illiyinə həsr olunmuş sərgi təşkil edilmişdir.

Nazirliyin tabeliyində olan idarə, təşkilat və müəssisələrdə Xəlil Rza Ulutürkün 80 illik yubileyinə həsr olunmuş müxtəlif tədbirlər keçirilmişdir.

Bakı şəhərində Xəlil Rza Ulutürkə abidə qoyulması təklifi ilə Nazirlər Kabinetinə müraciət edilmişdir.

Qeyd olunanlardan əlavə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında noyabrın 24-də Həsən bəy Zərdabinin 170 illik yubileyi, dekabrın 6-da Seyid Yəhya Bakuvinin ölümünün 550 illiyi, 11-də Məhsəti Gəncəvinin 900 illik yubileyi qeyd edilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan kitabları 8-12 fevral 2012-ci il tarixində Belorus Respublikasının paytaxtı Minsk şəhərində keçirilən XIX, 30 avqust – 4 sentyabr tarixində Moldovanın paytaxtı Kişineu şəhərində keçirilən XXI Beynəlxalq Kitab Sərgisi və Moldova Milli Kitabxanasının yaradılmasının 180 illiyinə həsr olunmuş yubiley tədbirlərində, 5-10 sentyabr tarixində Moskvada keçirilən XXV, 10-14 oktyabr tarixində Almaniyanın Frankfurt şəhərində keçirilən LXIII, 17-20 noyabr tarixdə Türkiyənin İstanbul şəhərində keçirilən XXXI, 15-18 dekabr tarixində Ukraynanın paytaxtı Kiyev şəhərində keçirilən III Beynəlxalq Kitab Sərgi-Yarmarkalarında iştirak etmişdir.

5-10 sentyabr 2012-ci il tarixində Moskvada keçirilən XXV Beynəlxalq Kitab Sərgi-Yarmarası çərçivəsində MDB ölkələrinin IX Beynəlxalq "Kitab sənəti" müsabiqəsi qaliblərinin təntənəli mükafatlandırma mərasimi keçirilmişdir**.**

3-7 dekabr 2012-ci il tarixində Nazirliyin əməkdaşı MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası və "Dövri mətbuat, kitab nəşri, yayımı və poliqrafiya sahəsində əməkdaşlıq üzrə Dövlətlərarası Şuranın yaradılması" haqqında 4 iyun 1999-cu il tarixli Sazişə əlavə təkliflərin daxil edilməsi haqqında Protokol layihəsi" ilə bağlı tədbirlərdə məruzəçi kimi iştirak etmək üçün Türkmənistanın Aşqabad şəhərində ezamiyyətdə olmuşdur.

Azərbaycan ədəbi nümunələrinin xarici dillərə tərcüməsi, nəşri və yayımını gerçəkləşdirmək məqsədilə bu sahədə xarici ölkələrdə mövcud olan təcrübələri öyrənmək üçün Nəşriyyat, reklamın təşkili və informasiya şöbəsinin əməkdaşı və şair-tərcüməçi, "Dünya ədəbiyyatı" jurnalının baş redaktoru Səlim Babullaoğlu 10-17 mart 2012-ci il tarixdə Türkiyə Cümhuriyyətinin Mədəniyyət və Turizm Nazirliyinə ezam edilmişlər.

Cari ilin fevral ayının 1-dən 5-dək Türkiyə Respublikasının Elazığ vilayətində "Bakı - Elazığ Mədəniyyət və İncəsənət görüşü" keçirilmişdir. Görüşdə iştirak etmək üçün Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə bir qrup ədəbiyyat və incəsənət xadimi Türkiyə Respublikasının Elazığ vilayətinə ezam edilmişlər.

Görüş çərçivəsində Elazığ şəhərində Azərbaycan parkı və şəhidlərin xatirəsinə ucaldılmış abidənin təntənəli açılış mərasimi, Fırat Universitetinin Fırat TV Toplantı Salonunda "Manas" nəşriyyatı tərəfindən çap olunan "Cəfər Cabbarlının həyatı, sənəti və mücadiləsi" kitabının təqdimatı, Sivricə Öyrətməni Salonunda şair Almas İldırımın xatirəsinə həsr olunmuş "Almas İldırıma sayğı" toplantısı, Fırat Universitetinin Atatürk Konfrans Salonunda "Füzuliyə sayğı gecəsi" tədbirləri keçirilmişdir.

Elazığ şəhərindəki Bələdiyyə Mədəniyyət Mərkəzində Azərbaycan və türk dilinin, mədəniyyətinin, ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Azərbaycan Yazıçılar Birliyinin sədri, Türk Dünyası İlin Ədəbiyyat Adamı, Xalq Yazıçısı Anara Fırat Universitetinin "Fəxri Doktor" diplomu təqdim olunmuşdur.

Görüş çərçivəsində keçirilən bu tədbirlər musiqi proqramları ilə müşayiət olunmuş, onların bəziləri yerli Fırat TV və TRT AVAZ TV ilə canlı yayımlanmışdır.

24-25 may 2012-ci il tarixdə Astanada keçirilən IX Beynəlxalq Kitab Müsabiqəsində Azərbaycan kitabları uğurla iştirak etmiş, Nazirliyin dəstəyi ilə "Təhsil" nəşriyyatında nəfis şəkildə tərtib olunmuş "Novruz" kitabı "Mənim ölkəm" nominasiyasında qalib gəlmiş, eyni zamanda "Nobel" kitabı ilə birlikdə "Qaran Pri" nominasiyasında xüsusi diploma layiq görülmüşdür. Bundan əlavə, M.Ə.Sabirin "Təhsil" nəşriyyatında işıq üzü görən "Hophopnamə"si və Yusifin "Anama məktublar" kitabı da müsabiqənin qalib kitablarından olmuşdur.

Beləliklə, 6 nominasiyada iştirak edən Azərbaycan kitabı 5 mükafat qazanmışdır.

2012-ci il ərzində Nazirliyin tabeliyində olan "Mədəniyyət" qəzeti və "Mədəni həyat" jurnalı vaxtlı-vaxtında nəşr olunmuş, öz səhifələrində ölkəmizin mədəni həyatında baş verən hadisələrə dair maraqlı yazılar dərc etmişlər.

"Mədəniyyət" qəzeti Novruz bayramına və II Bakı Beynəlxalq Teatr Konfransına həsr olunmuş zəngin illüstrasiyalı, rəngli xüsusi buraxılışlar nəşr etmişdir.

“Mədəniyyət” kataloqunun növbəti beşinci sayı nəşrə hazırlanmışdır.

Hesabat dövründə Mədəniyyət və Turizm Nazirliyinin ən geniş sahələrindən biri olan kitabxana-informasiya sahəsinin inkişafı və modernləşdirilməsi Nazirliyin fəaliyyətində prioritet istiqamətlərdən biri olaraq qalmışdır.

Hesabat dövründə kitabxanaların multimedia fondlarının zənginləşdirilməsi məqsədi ilə mühüm işlər həyata keçirilmiş və Dövlət Proqramının icrasına uyğun olaraq layihənin icrasına başlanmışdır.

Layihə çərçivəsində M.Seyidzadə adına uşaq kitabxana filialı-kitab mağazasında şəhər (rayon) kitabxanalarının multimedia nəşrləri ilə zənginləşdirilməsi məqsədi ilə multimedia resurslarının (CD, DVD, elektron kitab, elektron dərslik) satışı, habelə Azərbaycan və rus dillərində hazırlanmış multimedia tədris resurslarına abunə yazılışı təşkil edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq respublikanın bütün şəhər və rayon MKS-lərinin strukturunun təkmilləşdirilməsi və kitabxana filiallarının birləşdirilməsi işi həyata keçirilmişdir. Sözügedən layihənin icrasında şəhər (rayon) MKS-lərinə Nazirlik tərəfindən hərtərəfli metodiki və təşkilati dəstək göstərilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli “Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri” Qərarı ilə şəhər (rayon) kitabxanalarının strukturları təkmilləşdirilmiş və kitabxanalarda yeni şöbələr (Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırıllması, İnformasiya-Resurs) və ştatlar (multimedia mütəxəssisi, operator, kitabxanaçı-informasiya texnologiyaları üzrə mütəxəssis, sistem inzibatçısı, proqramçı) yaradılmışdır.

Nazirliyin sisteminə daxil olan respublika əhəmiyyətli kitabxanaların və şəhər (rayon) MKS-lərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların müasir avadanlıqlarla təchiz edilməsi istiqamətində əməli işlər həyata keçirilir. Bu məqsədlə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasına, Respublika Gözdən Əlillər Kitabxanasına, Bakı şəhəri, Sabunçu rayon MKS-nə, Quba, Masallı, Ağdam, Ucar, Qobustan, Ağsu, Cəbrayıl, Daşkəsən, Xızı, Laçın, Şuşa, Beyləqan, Füzuli rayon MKS-lərinə kompyuter, printer, skaner və s. avadanlıqlar əvəzsiz olaraq verilmişdir.

Xocalı faciəsinin 20-ci ildönümü respublikanın bütün kitabxanaları tərəfindən qeyd olunmuş, kitabxanalarda kitab sərgiləri, ədəbi-bədii gecələr, dəyirmi masalar keçirilmiş, kitabxanaların Veb-saytlarında Xocalı faciəsi haqqında geniş məlumatlar yerləşdirilmişdir.

Nazirlik tərəfindən Dövlət Proqramının icrası məqsədi ilə yaradılmış veb-saytların və Elektron kataloqların monitorinqi aparılmış, monitorinq nəticəsində aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədi ilə monitorinqin nəticələri şəhər, rayon MKS-lərinə göndərilmiş və müvafiq tapşırıqlar verilmişdir.

Kitabxanaçıların təhsili, o cümlədən bilik və bacarıqlarının inkişafına Nazirlik tərəfindən xüsusi önəm verilmişdir. Bununla əlaqədar Rusiya Federasiyasının Mədəniyyət, İncəsənət və Turizm İşçilərinin Yenidən Hazırlanması Akademiyası tərəfindən 10 Azərbaycan mütəxəssisi üçün “Kitabxanaların fəaliyyətində İnternet-texnologiyalarının tətbiqi” proqramı üzrə distant təhsil kursu təşkil olunmuş və kitabxanaçılar sözügedən kurslarda iştirak etmişlər. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan kitabxanaları üçün zəruri olan hazır biblioqrafik təsvirlərin Rusiya Milli Kitabxana İnformasiya Mərkəzindən (LİBNET) alınması sözügedən təşkilatla razılaşdırılmışdır.

Bundan əlavə, Azərbaycan Milli Kitabxana İnformasiya Mərkəzi (AZLİBNET) yaradılmışdır. Artıq AZLİBNET-in Veb-saytı hazırlanmış, toplu kataloqun yaradılmasında bir sıra işlər görülmüşdür.

Hesabat dövründə, Rusiya Dövlət Kitabxanası, habelə Rusiya Xarici Ədəbiyyat Kitabxanasının rəhbərliyi və tanınmış kitabxana mütəxəssisləri Azərbaycanda səfərdə olmuş, respublikanın aparıcı kitabxanalarında görüşlər keçirmiş və Azərbaycan kitabxanaçıları ilə fikir mübadiləsi aparmışlar.

Həmçinin, Türkiyənin Alaniya kitabxanasına Azərbaycan, onun mədəniyyəti, tarixi, turizmi, adət və ənənələri, dövlətçiliyi barədə müxtəlif kitablar və elektron nəşrlər göndərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 2.1. bölməsində kitabxana fondlarının müasir informasiya daşıyıcıları ilə (elektron kitablar, CD, DVD) zənginləşdirilməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Eyni zamanda, "Dağıdılmış sərvətlər, məhv edilmiş kitabxanalar" adlı kitabçanın ingilis və rus dillərində tərcüməsi işi başa çatdırılmışdır. Hazırda kitabça nəşrə hazırlanır. Nəşrdə Ermənistan silahlı birləşmələri tərəfindən 1988-ci ildən başlayaraq Azərbaycana qarşı aparılan işğalçı müharibə nəticəsində zəbt olunmuş Azərbaycan torpaqlarında dağıdılmış və talan edilmiş Azərbaycan kitabxanaları, onların fotoşəkilləri (işğaldan əvvəl və sonra), habelə bir sıra statistik məlumatlar rayonlar üzrə sistemli şəkildə verilmişdir.

Dövlət Proqramının icrasını təmin etmək məqsədi ilə "Quba və qubalılar" kitabı nəşrə hazırlanır. Kitabda Qubanın tarixi abidələri, təbiəti, turizm gözəllikləri, tarixi, görkəmli şəxsiyyətləri və s. haqqında ətraflı məlumatlar əks olunacaqdır.

Bundan başqa, «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın icrasını, kitabxana filiallarının birləşdirilməsi vəziyyətinin, kitabxanaların informasiyalaşdırılmasının, habelə Elektron kataloq və Veb-saytların keyfiyyətini, kitabxanaçı kadrların kompyuter biliklərinin səviyyəsini öyrənmək, sözügedən rayon Mərkəzi kitabxanalarında yeni şöbələrin fəaliyyəti ilə tanış olmaq məqsədi ilə respublikanın Füzuli, Beyləqan, Hacıqabul, Kürdəmir, Quba və Xaçmaz rayonlarına ezamiyyələr təşkil olunmuşdur. Sözügedən kitabxanalarda görülən işlər, aşkar olunan nöqsan və çatışmazlıqlar müəyyən edilmiş, bu sahənin inkişafına dair təkliflər hazırlanmış, habelə işlərində yol verdikləri nöqsanlara görə bir sıra rayon MKS-lərinin direktorları müvafiq qaydada intizam tənbehi ilə cəzalandırılmışlar.

Akademik "Yusuf Məmmədəliyev: biblioqrafiya" kitabının nəşrə hazırlanması məqsədi ilə materialların redaktəsi və sistemləşdirilməsi işi həyata keçirilmişdir.

Nazirlik tərəfindən keçirilən 5 zona müşavirəsində müzakirə olunması məqsədilə sözügedən bölgələrdə yerləşən kitabxanaların fəaliyyəti təhlil edilmiş, qarşıda duran problem və vəzifələr, həyata keçirilməsi zəruri olan tədbirlər müəyyən edilmiş, habelə şəhər və rayonda kitabxana-informasiya müəssisələrinin fəaliyyətinin inkişaf etdirilməsinə dair təkliflər hazırlanmışdır.

Cari ilin may ayında Polşa Respublikasının Varşava şəhərində keçirilən Beynəlxalq Kitab Sərgisində Kitabxana sektorunun əməkdaşı iştirak etmişdir.

Beyləqan rayon İcra Hakimiyyəti respublikada ilk təşəbbüs göstərərək 2012-ci ili rayonda "Kitabxanalar İli" elan etmişdir. Bu təşəbbüs rayon və respublika ictimaiyyəti tərəfindən müsbət qarşılanmış, respublikanın 1 şəhər və 11 rayonunda 2012-ci il – kitabxanalar İli kimi elan edilmişdir.

Hesabat dövründə, Respublikanın bütün şəhər və rayonlarında Ümummilli lider Heydər Əliyevin 89-cu ildönümünə həsr edilmiş V Kitab Bayramı keçirilmişdir. İsmayıllı rayonunda Ulu öndərin 89-cu ildönümünə, habelə 15 iyun Milli Qurtuluş gününə həsr olunmuş Kitab bayramında şöbənin əməkdaşı iştirak etmiş və Nazirlik adından təbrik sözü ilə çıxış etmişdir.

Şirvan şəhər, Ucar və Lerik rayonunda kitabxana filiallarının fəaliyyəti, habelə kitabxana filiallarının birləşdirilməsi vəziyyətinin qənaətbəxş olmamasını nəzərə alaraq, sözügedən regionlarda kitabxana filiallarının birləşdirilməsi məsələsinə yenidən baxılması təklif olunmuşdur.

Cari ilin 12-16 noyabr tarixində Nazirliyin dəstəyi ilə Azərbaycan kitabxanaları "LİBKOM – 2012" beynəlxalq komfransında iştirak etmişlər. Konfrans zamanı kitabxana-informasiya sahəsinin prioritet istiqamətlərinə dair maraqlı seminar və dəyirmi masalar keçirilmiş, debatlarda sözügedən sahə üzrə respublikamızda aparılan islahatlar, dövlət siyasəti və kitabxanaların

avtomatlaşdırılması məsələləri müzakirə olunmuşdur. Konfrans iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» haqqında geniş məlumat verilmişdir.

Konfrans çərçivəsində keçirilən sərgilərdə kitabxana-informasiya sahəsinə dair mühüm yeniliklər, müasir informasiya texnologiyaları və nəşrlər nümayiş etdirilmişdir. Sərgidə nümayiş etdirilən bir çox kitabxana-informasiya avadanlıqları, xüsusi ilə də kitabxananın çap resurslarını elektron formata çevirməyə imkan verən skaynerlər, habelə kitabxanalar üçün müasir dizaynda mebel avadanlıqları xüsusi maraq doğurmuşdur.

Ümumilikdə, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə Tədbirlər Planının icrası ilə əlaqədar 2012-ci ildə respublikanın kitabxana – informasiya şəbəkəsində islahatlar aparılmış, kitabxana fondlarının komplektləşdirilməsi üçün kitablar latın qrafikası ilə çap olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir. Sözügedən kitabların bir hisəsi Mədəniyyət və Turizm Nazirliyinin vəsaiti hesabına çap olunmuşdur. Kitabxanaların informasiyalaşdırılması, onların müasir avadanlıq, informasiya texnologiyaları ilə təmin olunması, kitabxanaçıların kompyuter biliklərinin artırılması istiqamətində də mühüm işlər həyata keçirilmişdir.

Görülmüş işlərin və kitabxana-informasiya sahəsində mövcud olan bir sıra problemlərin dövlət qurumlarının nümayəndələri, elmi və yaradıcı ziyalılar, mütəxəssislər tərəfindən müzakirəsinin təşkili ilə əlaqədar 2012-ci il dekabr ayının 14-də Park İnn otelinin “Dan ulduzu” konfrans zalında “Azərbaycan kitabxanaçılarının ümumrespublika müşavirəsi” keçirilmişdir.

Sözügedən tədbirdə bir sıra dövlət qurumlarının rəhbərləri və nümayəndələri, millət vəkilləri, şəhər (rayon) İcra Hakimiyyəti Başçısının humanitar məsələlər üzrə müavinləri, şəhər (rayon) mədəniyyət və turizm idarələrinin (şöbələrinin) müdirləri və Mərkəzləşdirilmiş Kitabxana sistemlərinin direktorları iştirak etmişlər.

Müşavirənin sonunda Respublika Kitabxanalarının Bakı bəyənnaməsi qəbul olunmuşdur.

ELM VƏ TƏHSİL

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemində 243 təhsil müəssisəsi - Azərbaycan Turizm İnstitutu, Mingəçevir Turizm Kolleci, Bakı Turizm Peşə Məktəbi, Bakı Xoreoqrafiya Məktəbi, 185 uşaq musiqi məktəbi, 51 uşaq incəsənət və 2 uşaq rəssamlıq məktəbi, Ağcabədi rayon Qarabağ Muğam Mərkəzi, 3 elmi mərkəz – Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi fəaliyyət göstərir.

Nazirliyin iş planına uyğun olaraq Kollegiyada 2012-ci ilin may ayında "Mingəçevir Turizm Kollecində turizm ixtisası üzrə fənlərin tədrisi barədə", sentyabr ayında "2011/2012-ci tədris ilinin yekunları və respublika uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması sahəsində qarşıda duran vəzifələr haqqında" məsələlər müzakirə edilmişdir.

2012-ci il ərzində Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində 29 kateqoriya üzrə 1189 nəfər mədəniyyət işçisi ixtisasartırma kurslarına cəlb olunmuşlar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 avqust tarixli 309 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illər üçün Azərbaycan Respublikasında Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə İnkişaf Proqramı"nın, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın və "2009-2013-cü illər üçün Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın tədbirlər planlarına əsasən uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində əhəmiyyətli işlər görülmüşdür.

2012-ci il 21 yanvar tarixində Goranboy şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə yeni tikilmiş uşaq musiqi məktəbi binasının açılışı olmuşdur. Həmin məktəb binasında Naftalan şəhərində müvəqqəti məskunlaşmış Xocalı şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbi yerləşdirilmişdir.

Bakı şəhər 37 nömrəli Uşaq Musiqi, Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi məktəblərinin, Bakı şəhər 28 nömrəli Uşaq Musiqi və 5 nömrəli Uşaq İncəsənət məktəblərinin binaları əsaslı təmirdən sonra istifadəyə verilmişdir.

“2009-2013-cü illər üçün Azərbaycan Respublikasında Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə İnkişaf Proqramı”na uyğun olaraq təmayül profilli məktəblərin yaradılması istiqamətində müəyyən işlər görülmüşdür. Bakı şəhər R.Babayev adına 25 nömrəli Uşaq Musiqi Məktəbinin gələcəkdə nəfəsli və simli alətlər təmayüllü musiqi məktəbinə çevrilməsi məqsədilə məktəbdə nəfəsli və simli alətlər üzrə xüsusi siniflər açılmış və sözügedən tədris müəssisəsi 2012-ci il 1 sentyabr tarixindən 11 illik təhsil sisteminə keçirilmişdir. Habelə, 2012/2013-cü tədris ilindən Bakı şəhər C.Hacıyev adına 3 nömrəli Uşaq Musiqi Məktəbinin bazasında xor məktəbinin yaradılması məqsədilə məktəbdə xor şöbəsi açılmışdır.

Nazirlik tərəfindən dərsliklər, dərs jurnalları, şagirdlərin fərdi vərəqələri və tədris proqramları, məzunlar üçün şəhadətnamələr, sərgi kataloqu çap edilmiş, gips modellər, müvafiq inventar, avadanlıq və musiqi alətləri alınmış, tədris prosesi zamanı istifadə olunan normativ sənədlərin vahid yeni formaları hazırlanmış və əvəzsiz olaraq uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinə verilmişdir.

Mədəniyyət və Turizm Nazirliyi ilə Təhsil Nazirliyinin birgə əməkdaşlığı sayəsində 2012-ci ilin fevral ayından başlayaraq respublikanın orta ümumtəhsil məktəbləri, habelə uşaq yaradıcılıq mərkəzləri, uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri şagirdləri üçün ölkənin mövcud qoruq və muzeylərində tarix, diyarşünaslıq və bədii təhsil üzrə səyyar dərslərin təşkili və keçirilməsi sahəsində iş aparılmışdır.

2012-ci il 2 iyul tarixində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında kadr hazırlığı və musiqi təhsilinin inkişafı sahəsində əməkdaşlığın gücləndirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş imzalanmışdır.

Uşaq musiqi və incəsənət məktəbləri üçün “Fortepiano (7 illik təhsil üzrə)”, “Fortepiano ansamblı”, “Fortepiano müşayiəti”, “Nağara (5 illik təhsil üzrə)”, “Gitara (5 illik təhsil üzrə)”, “Uşaq incəsənət məktəblərində klassik, tarixi məişət və müasir bal rəqsi fənləri”, “Uşaq incəsənət məktəblərində xalq səhnə rəqsləri - oğlanlar və qızlar üçün” tədris proqramları hazırlanmışdır.

Cari ilin may ayında Moskva Dövlət Xoreoqrafiya Akademiyasının prorektoru, Rusiya Federasiyasının Əməkdar İncəsənət Xadimi, professor Lyudmila Kolençenkonun, İtaliyada çalışan kontrabas ifaçısı və musiqi alətləri ustası Vladimir Ovçinnikovun, tanınmış skripkaçı professor Zahar Bronun, noyabr ayında tanınmış pianoçu, professor Vadim Rudenkonun Bakı şəhərində təşkil edilmiş ustad siniflərində şagird və müəllimlər iştirak etmişlər.

Hesabat dövründə bir sıra respublika miqyaslı tədbirlər təşkil edilmişdir. Belə ki, Uşaq xor kollektivlərinin III respublika baxışı, Gənc pianoçuların II respublika müsabiqəsi keçirilmişdir. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş, beynəlxalq müsabiqə qalibləri olan gənc istedadların konserti təşkil edilmişdir.

Bakı Xoreoqrafiya Məktəbinin III kurs tələbələrinin Bakı və Sumqayıt şəhər, Abşeron rayon uşaq incəsənət məktəblərində, habelə Bakı şəhərində fəaliyyət göstərən Füzuli şəhər 2 nömrəli Uşaq İncəsənət Məktəbində təcrübə keçmələri təşkil edilmişdir.

YUNESKO tərəfindən Beynəlxalq Bədii Təhsil Həftəsi kimi qeyd olunan 2012-ci il 21-27 may tarixrində respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində konsert və sərgilər keçirilmiş, dəyirmi masalar təşkil edilmişdir.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi tərəfindən Qazax, Qax və Qusar rayonlarında açıq sərgi-seminar təşkil olunmuş, Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyində saxlanılan bəzi əşyaların bərpası və konservasiyası istiqamətində lazımi tədbirlər görülmüşdür.

Neftçala və Samux şəhərlərində "Milli mədəniyyət və müasir mədəniyyət siyasəti" mövzusunda seminarlar keçirilmişdir.

Bakı şəhərində Bülbülün anadan olmasının 115 illik yubileyinə həsr olunmuş müsabiqədə keçirilmişdir. Müsabiqə Bakı şəhər R.Behbudov adına 2 nömrəli, Q.Qarayev adına 8 nömrəli, R.Hacıyev adına 15 nömrəli, L. və M.Rostropoviçlər adına 21 nömrəli, R.Babayev adına 25

nömrəli onbirillik musiqi, Bakı şəhər Ş.Ələkbərova adına 20 nömrəli, 34 nömrəli uşaq musiqi, Ağdam şəhər Xan Şuşinski adına Uşaq Muğam Musiqi, Şamaxı şəhər Nəsimi adına 1 nömrəli və Lerik şəhər E.Rufullayev adına uşaq incəsənət məktəblərinin şagirdləri Diploma layiq görülmüşlər.

Bakı şəhərində yerləşən "LN art" İncəsənət Mərkəzində Gəncə və Lənkəran şəhər uşaq rəssamlıq məktəblərinin müəllim və şagirdlərinin rəsm və dekorativ sənət işlərindən ibarət sərgi keçirilmişdir.

Azərbaycanda kulturologiya elminin inkişafına dəstək göstərilməsi məqsədi ilə Bakı şəhərində Kulturoloqların II Beynəlxalq Bakı Forumu, "Davamlı inkişaf mədəniyyəti: qlobal və regional aspektlər" adlı beynəlxalq konfrans təşkil olunmuşdur.

Hesabat dövrü ərzində xarici ölkələrdə keçirilən tədbirlərdə də nümayəndələrimiz uğurla iştirak etmişlər.

Nazirliyin dəstəyi ilə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdi, Prezident təqaüdçüsü Rüstəm Zeynalov Estoniyanın Narva şəhərində keçirilmiş F.Şopen adına Gənc pianoçuların IX beynəlxalq müsabiqəsində iştirak etmiş və Qran Pri mükafatına layiq görülmüşdür. Abşeron rayon Xırdalan şəhər Uşaq Musiqi Məktəbinin şagirdi Atabala Manafzadə Serbiya Respublikasının Belqrad şəhərində keçirilmiş IX Beynəlxalq Musiqi müsabiqəsində və Türkiyənin İstanbul şəhərində keçirilmiş Pera Beynəlxalq Musiqi Müsabiqəsində I dərəcəli diplomlara, A.Skryabinin əsərinin ən yaxşı ifasına görə Diploma, qiymətli hədiyyə və pul mükafatına layiq görülmüşlər.

Macarıstanın Budapeşt şəhərində "Azərbaycan mədəniyyətinin elmi təqdimatı" adlı tədbir təşkil edilmişdir. Tədbirdə Elm və təhsil şöbəsinin Elmi-metodiki sektoru, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu və Azərbaycan Milli Konservatoriyası təmsil olunmuşlar.

Estoniyanın Tallin və Kohtla-Yarve şəhərlərində keçirilmiş Uşaq və gənclər arasında VII Beynəlxalq Akademik Vokal Müsabiqəsində Bakı şəhər F.Əmirov adına 6 nömrəli Onbirillik İncəsənət Məktəbinin şagirdi Eldar Tahirov və Dövlət Uşaq Filarmoniyasının solisti İbrahim Nəsrullayev I dərəcəli Diploma layiq görülmüşlər.

TÜRKSOY Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının dəvətinə əsasən Bakı Musiqi Akademiyasının tələbələri – Narın Musayeva, Elvin Nəcəfov və Mustafa Mehmandarovun TÜRKSOY Beynəlxalq Simfonik Orkestrinin tərkibində Türkiyədə və ABŞ-da təşkil edilmiş konsertlərdə iştirakı üçün Nazirlik tərəfindən maliyyə dəstəyi göstərilmişdir.

Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Nəriman Əmiraslanov 2012-ci ilin aprel-may aylarında bir neçə beynəlxalq müsabiqələrdə çox böyük uğurla iştirak etmişdir.

Rusiya Federasiyasının Şimali Osetiya-Alaniya Respublikasının Vladiqafqaz şəhərində keçirilmiş "Qafqazın rəqs şousu-dostluq rəqsi" adlı uşaq rəqs kollektivlərinin Festivalında Bakı şəhər 3 nömrəli Uşaq İncəsənət Məktəbinin, Gürcüstan Respublikasının Batumi şəhərində "Qızıl Delfin 2012" adlı XI Beynəlxalq Folklor Festivalında Sumqayıt şəhər Bülbül adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin rəqs kollektivləri ölkəmizi təmsil etmişlər.

İsveçrənin Montrö və Veve şəhərlərində keçirilmiş P.İ.Çaykovski adına Gənc Musiqiçilərin Beynəlxalq Müsabiqəsində gənc skripkaçı, Prezident təqaüdçüsü Elvin Xoca Qəniyev iki xüsusi mükafata layiq görülmüşdür.

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) tərəfindən təşkil olunan "KOİCA-UNİCEF Birgə Təlimi-Gənclərin İştirakı və İnkişaf Modelinin Yaradılması" adlı təlim proqramında Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində Elm və təhsil şöbəsi təmsil olunmuşdur.

Ukraynanın Lvov şəhərində Xalq Artisti Yuri Başmetin himayəsi altında keçirilmiş MDB ölkələri Dördüncü Gənclər Musiqi Akademiyasında Nazirliyin dəstəyi ilə gənc musiqiçilər İlham Nəzərov (vokal), Prezident təqaüdçüsü Ceyla Seyidova (skripka), Üzeyir Mahmudbəyli (viola) iştirak etmişlər.

Rusiyanın Sankt-Peterburq şəhərində Mstislav Rostropoviçin anadan olmasının 85 illik yubileyi ilə əlaqədar M.Rostropoviçin adını daşıyan musiqi və incəsənət məktəblərinin iştirakı

ilə keçirilmiş Beynəlxalq Festivalda ölkəmizi Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi və Bakı şəhər L. və M. Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin rəhbərliyi, müəllim və şagirdləri təmsil etmişdir.

Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi ilə Belarus Dövlət Mədəniyyət və İncəsənət Universiteti arasında imzalanmış əməkdaşlıq müqaviləsi əsasında mədəniyyət müəssisələrində çalışan əməkdaşların peşəkarlıq dərəcəsinin artırılması məqsədilə Minsk şəhərində təşkil olunmuş “Muzey işinin təşkili” adlı beynəlxalq treninqlərdə iştirak etmək üçün 5 nəfərdən ibarət nümayəndə heyəti ezam olunmuşdur.

Çexiyanın Lidise şəhərində keçirilmiş 40-cı ənənəvi beynəlxalq uşaq incəsənət sərgisində Azərbaycandan 30 uşağın 481 əsəri nümayiş etdirilmişdir. 67 ölkədən 26 mindən çox əsərin iştirak etdiyi sərgidə 5 azərbaycanlı müəllifin, o cümlədən Sumqayıt şəhər Bülbül adına 2 nömrəli Uşaq İncəsənət Məktəbi şagirdlərinin əl işləri mükafata layiq görülmüşdür.

Bununla yanaşı Macarıstanda "Göy qurşağı” adlı XVIII Uşaq Təsviri və Tətbiqi İncəsənət Müsabiqəsinə, Polşanın Çenstoxova şəhərində uşaq və gənclər arasında "Uşaq və it" mövzusunda XIV Beynəlxalq Təsviri Yaradıcılıq Müsabiqəsinə, Misir Ərəb Respublikasının Milli Uşaq Mədəniyyət Mərkəzi tərəfindən keçirilən “Misir uşaqların gözü ilə” adlı beynəlxalq rəsm müsabiqəsinə, Özbəkistan Respublikasının Daşkənd şəhərində keçirilən “Daşkənd sevincləri” adlı IV Beynəlxalq Uşaq Rəsmləri Biyennalesinə şagirdlərin 300-dən yuxarı rəsm və əl işləri göndərilmişdir.

Azərbaycan mədəniyyətinin tanıdılması və müvafiq sahələr üzrə yeni əməkdaşlıq əlaqələrinin yaradılması, habelə Azərbaycan-Polşa diplomatik əlaqələrin yaranmasının 540 illiyi ilə əlaqədar təsdiq olunmuş tədbirlər planı çərçivəsində Varşava şəhərində “Azərbaycan mədəniyyətinin elmi təqdimatı” adlı tədbirlər təşkil olunmuşdur.

İtaliyanın Roma şəhərində keçirilmiş İtaliya-Azərbaycan diplomatik əlaqələrinin 20 illiyinə həsr olunmuş tədbirdə Ağdam şəhər Uşaq Muğam Musiqi Məktəbinin şagirdi Əli Hacızadə (xanəndə) və məktəbin direktoru Rafiq Rüstəmov (tar) iştirak etmişlər.

Avropa Mədəniyyəti Şərq Tərəfdaşlığı proqramının “Azərbaycan, Ermənistan və Gürcüstanda yaradıcı istehsalatın gücləndirilməsi: sənətkarlıq irsi – inkişaf üçün ümumi platforma” adlı layihəsi çərçivəsində Gürcüstan Respublikasının Tbilisi şəhərində keçirilmiş konfransda Elm və təhsil şöbəsi təmsil olunmuşdur.

Birləşmiş Millətlər Təşkilatının Qadınlar Gildiyası tərəfindən Avstriyanın Vyana şəhərində keçirilmiş ənənəvi Beynəlxalq Festival-Yarmarkada Bakı Xoreoqrafiya Məktəbinin müəllim və tələbələrindən ibarət rəqs qrupu iştirak etmişdir.

İstedadlı gənclərin xarici ölkələrin tədris müəssisələrində təhsil almaları, təcrübə keçmələri və ustad siniflərində iştirak etmələri məsələlərinə Nazirlik tərəfindən xüsusi diqqət yetirilir. Hesabat dövründə Nazirliyin dəstəyi ilə gənc rəqqas Nihad İsayev İtaliyanın DanceHaus Rəqs Akademiyasında, gənc skripkaçı, Prezident təqaüdçüsü Elvin Xoca Qəniyev İsveçrənin Sürix İncəsənət Universitetində, gənc vokalçı, Dövlət Akademik Opera və Balet Teatrının və “Üns” yaradıcılıq səhnəsinin solisti İlham Nəzərov İtaliyanın Ozimo D’Arte Lirica Akademiyasında, gənc dirijor Fuad İbrahimov Almaniyanın Köln Ali Musiqi Məktəbində təhsillərini davam etdirmiş, gənc pianoçu və skripkaçı, Prezident təqaüdçüsü Osman Eyublu P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası nəzdindəki Mərkəzi Musiqi Məktəbində və İsrailin Tel-Əviv Konservatoriyasında, Prezident təqaüdçüsü Elvin Xoca Qəniyev tanınmış skripkaçı, professor Zahar Bronun Almaniya, Fransa və Avstriyada təşkil edilmiş təlim kurslarında iştirak etmişlər. 2012/2013-cü tədris ilində gənc skripkaçı, Prezident təqaüdçüsü Kamran Ömərlinin İspaniyanın Kraliça Sofiya adına Madrid Ali Musiqi Məktəbində, Bakı Xoreoqrafiya Məktəbinin məzunu, Prezident təqaüdçüsü Ayan Eyvazovanın Moskva Dövlət Xoreoqrafiya Akademiyasında təhsil almaları üçün maliyyə və təşkilati dəstək göstərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 mart tarixli 2011 nömrəli və 2012-ci il 24 sentyabr tarixli 2447 nömrəli Sərəncamları ilə Bakı şəhər R.Behbudov adına 2 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Əli Məlikovun, Bakı şəhər L. və M. Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdləri Günay Ağalarova, Məhərrəm Hüseynli və

Nəcəf Vəliyevin, Bakı şəhər 24 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Yusif Yusifovun, Abşeron rayon Xırdalan şəhər Uşaq Musiqi Məktəbinin şagirdi Atabala Manafzadənin, Ağdam şəhər C.Qaryağdıoğlu adına 1 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi Mirpaşa Şükürovun adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılmış və onlar Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 sentyabr tarixli Sərəncamı ilə Nazirliyin Elm və təhsil şöbəsi Təhsil sektorunun müdiri Vaqif Babayev və Bakı şəhər 24 nömrəli Onbirillik Musiqi Məktəbinin direktoru Faiq Əliyev "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına, Bakı şəhər H.Sarabski adına 7 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Mehriban Rüstəmova, Bakı şəhər Q.Qarayev adına 8 nömrəli Onbirillik Musiqi Məktəbinin direktor müavini Fikrət Budaqov, Bakı şəhər R.Behbudov adına 2 nömrəli Onbirillik Musiqi Məktəbinin müəllimi İradə Məmmədova, Bakı şəhər Ş.Ələkbərova adına 20 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi Tatyana Yatsenko "Əməkdar Müəllim" fəxri adına layiq görülmüşlər.

## TURİZM

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2012-ci il ərzində təsdiq olunmuş iş planı əsasən turizmin inkişafı istiqamətində ardıcıl işlər görülmüşdür.

Hesabat dövrü ərzində ikitərəfli əməkdaşlıq sahəsində Hökumətlərarası Komissiyaların qəbul etdiyi sənədlərin icrası həyata keçirilmişdir.

"BMÜTT və Azərbaycan Respublikası Hökuməti arasında Turizm marşrutlarının gələcək inkişafı üçün əməkdaşlığa - Xəzər dənizi və Qara dəniz arasında İpək yolunun inkişafına – dair Anlaşma Memorandumu", "Çin Xalq Respublikasının Milli Turizm İdarəsi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında Çin vətəndaşlarının Azərbaycana qrup şəkilində səyahətinin sadələşdirilməsi haqqında Anlaşma Memorandumu" və İraq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi tərəfindən təqdim olunmuş "İraq Respublikasının Turizm və Tarixi Abidələr Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında Turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" layihələri aidiyyəti dövlət orqanlarından rəy alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsinin turizm siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq Mədəniyyət və Turizm Nazirliyi Ümumdünya Turizm Təşkilatı (BMÜTT), Avropa Şurası, İslam Konfransı Təşkilatı (İKT), Müstəqil Dövlətlər Birliyi (MDB), Demokratiya və İqtisadi inkişaf naminə - GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və s. beynəlxalq təşkilatlarla turizm sahəsində çoxtərəfli əməkdaşlığın təşkil edilməsi, mövcud proqramlara qoşulma, beynəlxalq tədbirlərdə fəal iştirakın təmin edilməsi, həmçinin yeni təklif və layihələrin hazırlanması, əməkdaşlığa dair sənədlərin imzalanması istiqamətində səmərəli və mühüm fəaliyyətini davam etdirmişdir.

2012-ci ilin 15-22 yanvar tarixlərində İspaniyanın Madrid şəhərində keçirilmiş «FITUR» beynəlxalq turizm sərgisində və "VI Exceltur Tourism Leadership Forum"unda nümayəndə heyəti iştirak etmişdir. Səfər çərçivəsində Ümumdünya Turizm Təşkilatı (BMÜTT) və İspaniya Krallığı ilə Azərbaycan Respublikası arasında turizm sahəsində əməkdaşlığın müzakirə olunması və turizm sahəsi üzrə gələcək əməkdaşlıq imkanlarının araşdırılması məqsədilə bir sıra görüşlər keçirilmişdir.

2012-ci ilin 06-22 fevral tarixində Yaponiyanın Sapporo şəhərində Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən keçirilən 2011-ci maliyyə ili üzrə "Gənc liderlər üçün təlim proqramı" çərçivəsində "Regionlarda turizmin təşviqi" adlı təlim kursunda Nazirliyin Turizm şöbəsi təmsil olunmuşdur. Tədbirdə Nazirliyin nümayəndəsi ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən "Duzdağ" mehmanxanasının əməkdaşı da iştirak etmişdir. Azərbaycandan 2, Türkmənistandan 4, Qırğızıstandan 5 və Tacikistandan 4 nəfərin iştirak etdiyi təlim kursunun əsas məqsədi regionlarda turizmin təşviqi, daxili turizmin inkişafı üçün mövcud imkanlardan maksimum istifadə və bu sahədə Yaponiya təcrübəsinin öyrənilməsindən ibarət olmuşdur.

Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın 21-22 fevral tarixində Avstriyanın Vyana şəhərində keçirilən 7-ci iclasında Azərbaycanın turizm imkanlarına dair məruzə təqdim edilmişdir.

2012-ci ilin 23-24 fevral tarixində Serbiyanın Belqrad şəhərində keçirilmiş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Turizm üzrə İşçi Qrupunun növbəti iclasında

Nazirliyin Turizm şöbəsi təmsil olunmuşdur. İclas zamanı bu təşkilata üzv dövlətlərdə viza rəsmiləşdirilməsi prosesinin asanlaşdırılması, onların turizm sahəsində çalışan əməkdaşları, turizm şirkətləri və təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi, davamlı turizmin inkişaf perspektivləri, balneologiya, dəniz, sağlamlıq, spa, yaradıcı və sair kimi turizm növlərinin Qara Dəniz regionunda inkişafı, ətraf mühitin qorunması, müvafiq seminarların və treninqlərin təşkili, statistik məlumatların mübadiləsi, digər beynəlxalq təşkilatlarla əməkdaşlıq, turizm xidmət səviyyəsinin yüksəldilməsi, marketinq-təbliğat işlərinin gücləndirilməsi, QDİƏT regionunun vahid brendinin, birgə turizm informasiya mərkəzinin yaradılması, QDİƏT-ə üzv dövlətlərdə təşkil olunan turizm üzrə tədbirlərdə iştirak və digər məsələlər müzakirə olunmuşdur.

2012-ci ilin 1 mart tarixində Krım Muxtar Respublikasının Yalta (Ukrayna) şəhərində KMR-in Kurortlar və Turizm Nazirliyi tərəfindən keçirilən “Birinci Beynəlxalq Qara Dəniz Forumu”nda Nazirliyin nümayəndə heyəti iştirak etmişdir. Forumda Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov “Azərbaycanın turizm potensialı: Qara dəniz ölkələri arasında alternativ turizmin inkişafı” adlı məruzə ilə çıxış etmişdir. Səfər çərçivəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və KMR Kurortlar və Turizm Nazirliyi arasında əməkdaşlığın gücləndirilməsi, Azərbaycandan Krıma və əks istiqamətdə turist axınının çoxalması, ikitərəfli yeni layihələr, Azərbaycanın yeni turizm imkanlarının aşkarlanması, Qara dəniz ölkələri arasında alternativ turizmin inkişafı və digər məsələlər müzakirə edilmişdir.

2012-ci ilin 3 - 9 mart tarixində Almaniyanın Berlin şəhərində keçirilən “ITB” beynəlxalq turizm sərgisi çərçivəsində 2012-ci ilin aprel ayından BMÜTT-nin Katibliyində Azərbaycan Respublikasının ekspertinin fəaliyyətə başlamasına dair BMÜTT və Azərbaycan Respublikası Mədəniyyət Turizm Nazirliyi arasında Anlaşma Memorandumu imzalamışdır.

Azərbaycanın turizm imkanlarının xarici ölkələrdə təbliğ edilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2012-ci ilin 11-18 mart tarixində İtaliyanın “Classis Association” şirkətinin, 13-31 mart tarixində “Italian Multimedia Group Sri” şirkətinin, 18-31 mart tarixlərində Cənubi Koreyanın “Educational Broadcasting System” dövlət televiziya kanalının, 16-30 mart tarixlərində Almaniyanın media nümayəndələrinin, 12-14 aprel tarixində Rusiyanın “Коммерсант ФМ” radiosunun və 5-7 may tarixində “Yapon turistlərin cəlb olunmasına dair GUAM-ın vahid turizm məhsulu” layihəsi çərçivəsində Yaponiyanın kütləvi informasiya vasitələri nümayəndələrinin ölkəmizə press-turları təşkil edilmişdir. Həmçinin, cari ilin 10-16 sentyabr tarixlərində Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Azərbaycanın turizm imkanlarının Polşanın turizm şirkətləri və KİV nümayəndələrinə tanıdılması məqsədilə 9 nəfərdən ibarət heyət üçün “Azərbaycanda polyak izləri” adlı infotur təşkil olunmuşdur. Press-turIar və İnfoturlar zamanı paytaxt Bakı ilə yanaşı, Azərbaycanın bir sıra regionlarına da səfərlər həyata keçirilmişdir.

25-30 mart tarixində London şəhərində keçirilmiş Beynəlxalq Olimpiya Komitəsinin Koordinasiya Komissiyasının növbəti illik iclasında Mədəniyyət və Turizm Nazirliyi təmsil olunmuşdur.

13 aprel tarixində Azərbaycan Respublikası Hökuməti və San Marino Respublikası Hökuməti arasında “Turizm sahəsində əməkdaşlıq haqqında Saziş”, həmçinin, İpək Yolunun tamı: Kulinariya, Mədəniyyət və Turizm adlı beynəlxalq konfransa Azərbaycan Respublikasının ev sahibliyi etməsi barədə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatı (BMÜTT) arasında Saziş imzalanmışdır.

19-20 aprel tarixində Ukraynanın Kiyev şəhərində keçirilmiş GUAM-ın turizm üzrə işçi qrupunun iclasında, 25-26 aprel tarixində Moldovanın Kişineu şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında ticarət – iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 3-cü iclasında, 9-10 may tarixlərində Gürcüstanın Batumi şəhərində keçirilmiş BMÜTT-nin Avropa Regional Komissiyasının 54-cü iclası və “Dünyada turizm məkanlarının brendləşdirilməsi” adlı seminarda, 7-8 iyun tarixində Belarusiyanın Minsk şəhərində keçirilmiş MDB dövlətlərinin Turizm Şurasının iclasında, 11-13 iyun tarixində

İspaniya Krallığının Madrid şəhərində keçirilmiş BMÜTT-nin İcraiyyə Şurasının 93-cü sessiyasında Mədəniyyət və Turizm Nazirliyi təmsil olunmuşdur.

6-7 sentyabr tarixində Bakı şəhərində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Ümumdünya Turizm Təşkilatı (BMÜTT) və Azərbaycan Turizm Assosiasiyasının birgə təşkilatçılığı ilə "İpək Yolunun tamı: Kulinariya, Mədəniyyət və Turizm" adlı beynəlxalq konfrans keçirilmişdir. Konfransda BMÜTT-nin baş katibi cənab Taleb Rifai, BMÜTT-nin məruzəçiləri, ekspertləri, İran İslam Respublikasnın Vitse-prezidenti, İran Mədəni İrs və Turizm Təşkilatının Sədri cənab Seyid Həsən Musəvi, təşkilatın vitse-prezidenti cənab Manuçer Cahanian, Pakistanın Milli İrs və İnteqrasiya üzrə Federal Naziri xanım Samina Xalid Gurki, Ümumdünya Turist Bələdçiləri Assosiasiyalarının Prezidenti xanım Rosalind Nyulands, Gürcüstanın Milli Turizm Administrasiyasının Sədri xanım Maia Sidamonidze və onun müavinləri, İspaniya, Koreya, Rusiya, Bolqarıstan, İsveçrə, Belçika, İtaliya, Türkiyə, Böyük Britaniya, Özbəkistan, Tayland, Fransa, Almaniya və Çinin milli turizm və turizm təşkilatlarının, həmçinin dünyanın aparıcı KİV nümayəndələri iştirak etmişlər.

7 – 9 noyabr tarixində Bakıda Ümumdünya Turizm Təşkilatının “Turizm statistikası sahəsində bilik səviyyəsinin artırılması Proqramı” çərçivəsində ikinci seminar keçirilmişdir. Seminarda BMÜTT-yə üzv olan Gürcüstan, Moldova, Qazaxıstan, Rusiya, Ukrayna, Belarus və Özbəkistanın rəsmi turizm və statistika üzrə qurumları, həmçinin Mərkəzi Bankların nümayəndələri, BMÜTT-nin məsul əməkdaşları və statistika sahəsi üzrə ekspertləri iştirak etmiş, Azərbaycanı isə tədbirdə Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Statistika Komitəsi, Mərkəzi Bank və Dövlət Miqrasiya Xidməti təmsil etmişdir.

Avropa İttifaqı tərəfindən təşkil olunan Tvinninq Fiş (Twinning Fishe) layihəsinin təhlili, öyrənilməsi və təkliflərin hazırlanması işi aparılmışdır. Layihənin məqsədi Turizm şöbəsinin Avropa İttifaqının normalarına, beynəlxalq standartlara və qabaqcıl təcrübələrə müvafiq olaraq öz siyasi, tənzimləmə və texniki funksiyalarını yerinə yetirməsinə şərait yaratmaq məqsədilə Turizm şöbəsinin institusional və texniki imkanlarının gücləndirilməsi və hüquqi bazanın təkmilləşdirilməsidir. Tvinninq Fiş layihəsi üzrə tender keçirilmiş, Avstriya və Litvanın təklifləri qəbul edilmişdir.

Mədəni turizm marşrutlarının sertifikatlaşdırılması ilə əlaqədar ilkin işlər görülmüşdür, Avropa Mədəni Turist Marşrutları İnstitutu tərəfindən müəyyənləşdirilmiş kriteriyalara əsasən Aleksandr Düma mədəni turist marşrutunun sertifikatlaşdırılması işinə başlanılmışdır. Həmçinin, “Aleksandr Düma Qafqazda” Mədəni Turizm Marşrutu üzrə tədbirlər planının ilkin variantı hazırlanmışdır. Aleksandr Düma Qafqazda mədəni turizm marşrutunun beynəlxalq səviyyədə sertifikatlaşdırılması üzrə Avropa Mədəni Marşrutlar İnstitutu ilə yazışmalar aparılır. Beynəlxalq sertifikatlaşdırma üçün üç ölkənin iştirakı vacibdir. Bunlar Azərbaycan Respublikası, Gürcüstan və Rusiya Federasiyasıdır. Gürcüstan və Rusiya Federasiyası arasında olan siyasi problemlər Avropa Mədəni Marşrutlar İnstitutu tərəfindən beynəlxalq sertifikatlaşdırmaya məhdudiyyət yaradır.

“Eurovision-2012” mahnı müsabiqəsinin Bakı şəhərində keçirildiyini nəzərə alaraq cari ilin 01-10 mart tarixində Bakı şəhərində Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin və TİKA Bakı Proqram Koordinatorluğu ilə birgə mehmanxana idarəçiliyi, qeyd-qəbul, masa xidməti və xadiməçilik mövzularında 30 mehmanxananın 120 nəfər əməkdaşı üçün təlim-tədris kursları təşkil olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2010-cu il tarixli, 838 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın 2.3.1 bəndinin “Mədəni turizm obyektlərinin reyestrinin hazırlanması və təsdiqi” ilə bağlı Azərbaycan Respublikasında turizm marşrutlarına salınması nəzərdə tutulan tarix-mədəniyyət abidələrinin qədimilik və turistlərin marağını cəlbetmə kriteriyaları müəyyən edilmiş və mədəni turizm obyektlərinin reyestri hazırlanaraq təsdiq edilmişdir.

“Azərbaycan Respublikasında 2010 - 2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası çərçivəsində “Azərbaycanda palçıq vulkanları" turizm növü üzrə turların təşkili məqsədilə 2012-ci ilin 04 may tarixində Nazirliyin nümayəndəsinin, AMEA-nın

Geologiya İnstitutunun əməkdaşlarının, turizm şirkətlərinin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Qaradağ rayonu ərazilərində Lökbatan, Daşgil və Qoturdağda “Palçıq vulkanı” ekoturizm marşrutu üzrə infotur keçirilmişdir. İnfotur layihəsi çərçivəsində “Palçıq vulkanları” üzrə iki müxtəlif marşrutun texniki pasportu hazırlanmışdır.

Cari ilin may ayının 6-dan 8-dək Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Şəki rayonu ərazisindəki atüstü turizm marşrutu üzrə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş milli atüstü turist yürüşü keçirilmişdir. Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini yad etməklə yanaşı ölkənin cazibədar təbiəti ilə seçilən Şəki rayonunun turizm potensialının tanıdılması, atçılıq turizm marşrutunun inkişaf etdirilməsi və təbliği məqsədini güdən və uzunluğu 35 kilometr olan milli atüstü turist yürüşündə Nazirliyin, turizm şirkətlərinin nümayəndələri və media təmsilçiləri iştirak etmişlər.

Cari ilin 12 may tarixində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunmuş və Çexiya Respublikasının Standartlar Üzrə Agentliyi tərəfindən keçirilmiş “Avropa standartlarının Azərbaycan məkanında tətbiqi” mövzusunda seminarda Mədəniyyət və Turizm Nazirliyi təmsil olunmuşdur.

Avstriyanın ORF, Britaniyanın BBC və Qətərin Al-Jazeera televiziya kanalları üçün müsahibə materialları hazırlanmışdır.

Şahdağ turizm kompleksi üçün Almaniyanın Donau Finanz şirkəti tərəfindən hazırlanmış Marketinq Planı üzrə təhlil aparılmış və Şahdağ qış-yay turizm kompleksinin və Azərbaycanın turizm potensialı bölgələri üzrə marketinq planları hazırlanmışdır. Marketinq proqramları təhlil olunaraq rəy, irad və təkliflər məsləhətçi şirkətə təqdim edilmişdir.

Bakıda keçirilən “Eurovision” mahnı müsabiqəsi ilə bağlı şəhərimizə gələn qonaqların müxtəlif çeşidli ekskursiya proqramlarının təmin edilməsi ilə bağlı Bakı Şəhəri üzrə 3 şəhər turu proqramı və region üzrə 1 ekskursiya proqramı hazırlanaraq seçilmişdir. Cari ilin 15 may tarixində xarici qonaqların asudə vaxtlarının səmərəli keçirmələri və Bakı şəhəri ilə əyani tanış olmaları üçün “Şəhər Turu” (City Tour) layihəsinə start verilmişdir. Məlumat üçün bildiririk ki, bununla bağlı Nəqliyyat Nazirliyi tərəfindən 3 ədəd iritutumlu 2 mərtəbəli üstü açıq avtobuslar Bakı şəhərinə gətirilmiş və 15-30 may tarixlərində ölkəmizə gələn qonaqlara müvafiq turistik marşrutlarda xidmət göstərmişdir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müvafiq şəhər turu marşrutu və qrafiki hazırlanmış, həmçinin, hər avtobus 2 nəfər bələdçi (ingilis və rus dilli) və aidiyyəti reklam-çap məhsulları ilə təmin edilmişdir. 2012-ci ilin 15-30 may tarixlərində Bakı şəhəri üzrə təşkil olunmuş "Şəhər Turu" (City Tour) avtobuslarından 2327 nəfər əcnəbi turist istifadə etmişdir.

Muzeylərin fəaliyyətinin yaxşılaşdırılması və xarici dil bilən muzey bələdçilərinin və mehmanxanalarda xarici dil bilikləri olan işçilərin sayının optimallaşdırılması üçün xüsusi təlim kurslarının təşkili ilə bağlı muzey və mehmanxana sistemində çalışan 78 nəfər üçün Azərbaycan Dillər Universitetində ingilis dili üzrə iki ay müddətində tədris kursları təşkil edilmişdir.

Xarici dillərdə danışan bələdçilərin təmin edilməsi ilə bağlı 57 nəfərdən ibarət ümumi siyahı tərtib edilmiş, həmçinin 23 nəfər bələdçi aidiyyəti kurslara cəlb olunmuşdur.

Ölkəyə giriş məntəqələrində (hava limanı, dəmir yolu vağzalı və avtovağzallarda) turizm informasiya mərkəzlərinin (TİM) təşkili ilə bağlı Heydər Əliyev adına Beynəlxalq Hava Limanında, Bakı Beynəlxalq Avtovağzal Kompleksində, Bakı Dəmiryolu Vağzalında və Dəniz limanında sərnişinlərin çıxış nöqtəsində TİM-lər yaradılmış və “Eurovision” müddətində 3538 nəfər turistə xidmət göstərilmişdir.

Müxtəlif xarici dillərdə Bakının xəritəsini (tədbir keçirilən yerlər xüsusi göstərilməklə) əks etdirən bukletlər hazırlanmış, bütün mehmanxanalarda və tədbirin keçirildiyi məkanda paylanmışdır.

Bununla yanaşı, ölkəmizin turizm potensialının təbliği və təşviqi baxımından Azərbaycan Sənaye Bankı tərəfindən “Eurovision”a gəlmiş qonaqlar üçün ilkin ödəmə məqsədilə “Baku Card” layihəsi həyata keçirilmişdir.

Cari ilin 23 may tarixində Masallı rayonunda turizm mövsümünün açılması ilə bağlı turizm xidməti göstərən və xalq sənəti nümunələri istehsal edən obyektlərin iştirakı ilə turizm sərgisi keçirilmişdir.

Azərbaycanın beynəlxalq mədəni turizm marşrutlarına cəlb olunması məqsədilə “Millennium Turizm, Konqres DMC” MMC ilə Malayziyada fəaliyyət göstərən “4x4 Worldexplorer” şirkəti arasında imzalanmış, uzunluğu 21000 km–dən çox olan, istiqaməti Malayziyadan başlayaraq Tailand, Laos, Çin, Qazaxıstan, Rusiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Suriya və İordaniya dövlətlərindən keçən avto turizm marşrutu çərçivəsində yürüş iştirakçılarının 29 may - 01 iyun 2012-ci il tarixlərində Azərbaycandan keçmələri təmin olunmuşdur.

Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramının icrası çərçivəsində regionlarda turizmin müxtəlif növlərini inkişaf etdirmək, turizm xidməti obyektlərinə yerli turizm şirkətlərinin səfərləri mütəmadi şəkildə təşkil etmək, eyni zamanda daxili turizm bazarının fəallığını artırmaq məqsədilə müvafiq layihələr həyata keçirilir. Bu məqsədlə 16-17 iyun tarixində Xaçmaz rayonunda yerləşən “Malibu” İstirahət Mərkəzinə yerli turizm şirkətlərindən və kütləvi informasiya vasitələrindən ibarət 40 nəfərlik heyətin iştirakı ilə infotur təşkil edilmişdir.

“İbtidai insanların qayaüstü rəsmləri” beynəlxalq turizm marşrutu üzrə ilkin materiallar hazırlanmış və cari ilin iyun ayının 22-də Lüksemburqda keçirilmiş Avropa Mədəni Turizm Marşrutları üzrə Hissəvi Sazişin Bürosunun iclasında təqdim olunmuşdur.

Turizm potensiallı bölgələrdə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli obyektlərdə mövsümə hazırlıq səviyyəsinin yoxlanılması, cari mövsümdə turistlərə göstəriləcək xidmətin qiymətlərinin araşdırılması və xüsusi razılıq (lisenziya) almış mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyətinin öyrənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2011-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”yə uyğun olaraq Mədəniyyət və Turizm Nazirliyinin əmri ilə İqtisadi İnkişaf Nazirliyinin nümayəndələri daxil olmaqla xüsusi komissiya yaradılmış və komissiya üzvləri qərb regionu (Gədəbəy, Gəncə, Naftalan və Mingəçevir) üzrə cari ilin 11-15 iyun tarixində, şimal-qərb regionu (Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Qax, Zaqatala və Balakən) üzrə cari ilin 18-25 iyun tarixində, şimal regionu (Xaçmaz, Qusar və Quba) üzrə 27-30 iyun tarixində və cənub regionu üzrə (Masallı, Lənkəran və Lerik) üzrə 02-05 iyul tarixində monitorinq keçirmişdir.

Yeni turizm mövsümünün başlaması ilə bağlı Azərbaycanda akkreditə olunmuş səfirlərin, mehmanxanaların, turizm şirkətləri və KİV nümayəndələrinin iştirakı ilə cari ilin 13 iyun tarixində Azərbaycanda yay turizm mövsümünün açılışı məqsədilə “Jumeirah Bilgah” otelində tədbir keçirilmişdir.

“Azərbaycanda 23-cü Krans Montana Forumu” ilə əlaqədar paytaxta gələn qonaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün 2012-ci ilin 28-30 iyun tarixində Bakı şəhərində müvafiq istiqamətlər üzrə 200 nəfər iştirakçı üçün ekskursiyalar təşkil edilmişdir.

Nabranda yerləşən “Malibu” istirahət mərkəzində 5 əlil uşağa valideynləri ilə birlikdə səyahət təşkil edilmişdir.

“Azərbaycan Respublikasında 2010-2014-cü illərdə Turizmin İnkişafına dair Dövlət Proqramı”nın 2.3.2 və 2.3.4 bəndlərində və “Azərbaycan Respublikasında 2008-2015-ci illərdə Yoxsulluğun azaldılması Dövlət Proqramı”nın 7.4 bəndində “Mədəni turizm marşrutlarının yaradılması və tətbiqi” nəzərdə tutulur.

Dövlət proqramlarının icrasını təmin etmək məqsədilə ölkəmizin bütün bölgələri üzrə “Kulinariya Turu” mədəni turizm marşrutlarının yaradılması planlaşdırılmışdır. İlkin mərhələdə cari ilin 20-21 iyul tarixində Quba rayonunda Quba rayon mədəniyyət və turizm şöbəsi, Milli Kulinariya Mərkəzi və “Victory Tour” turizm şirkətinin təşkilatçılığı ilə “Kulinariya Turu” adlı mədəni turizm marşrutu üzrə infotur keçirilmiş və marşrut pasportlaşdırılmışdır.

Bununla yanaşı, Nazirliyin dəstəyi ilə İsmayıllı rayon mədəniyyət və turizm şöbəsi, Lahıc İnformasiya Mərkəzi, AMEA-nın Folklor İnstitutu, “Millennium Turizm Kongress” turizm

şirkəti tərəfindən "Qırx otaq Əfsanələri" və "Fit dağ Əfsanələri" adlı mədəni və ekoturizm marşrutları üzrə turizm şirkətlərinin və KİV-in nümayəndələrinin iştirakı ilə cari ilin 04-05 avqust tarixlərində infotur keçirilmiş və marşrut pasportlaşdırılmışdır.

2012-ci ilin 28 sentyabr tarixində "Hilton Baku" mehmanxanasında aidiyyəti dövlət qurumlarının, rayon (şəhər) mədəniyyət və turizm şöbələrinin, həmçinin turizm sənayesində aktiv fəaliyyət göstərən özəl sektorun nümayəndələrinin iştirakı ilə "Ümumdünya Turizm Günü"nə həsr olunmuş konfrans və müxtəlif təqdimatlar keçirilmişdir.

"Bakı Beynəlxalq Humanitar Forumu" ilə əlaqədar paytaxta gələn qonaqların asudə vaxtların səmərəli keçirmələri üçün 2012-ci ilin 04-07 oktyabr tarixində Bakı şəhərində "Şəhər Turu" (City Tour) və 2012-ci ilin 06-07 oktyabr tarixində forum iştirakçılarının regionlara səfərləri təşkil edilmişdir.

2012-ci ilin 26 noyabr - 01 dekabr tarixində "Azərbaycanda Turizm Strategiyası Planı"nın hazırlanması məqsədilə Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin 6 nəfər ekspertinin ölkəmizə səfəri təşkil edilmişdir.

Turizm məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin edilməsi məqsədilə "Hotelstars Union" təşkilatı ilə bu qurumun standart və meyarlarının Azərbaycan mehmanxanalarında tətbiqi üzərində əlaqələrin qurulması üzrə işlər aparılmış və son nəticə olaraq həmin meyarların Azərbaycanda tətbiqinə razılıq əldə olunmuşdur. Bunun nəticəsində "Mehmanxana və mehmanxana tipli obyektlərin təsnifatı, ulduz kateqoriyalarının müəyyənləşdirilməsi və qiymətləndirmədə meyarların tətbiq edilməsi barədə" AZS 745-2012 saylı Dövlət Standartı təsdiq olunmuşdur.

Azərbaycanda konfrans və işgüzar görüşlər turizminin konsepsiyası hazırlanmiş, Milli Konfrans Bürosunun təşkili ətrafında maraqlı tərəflərlə görüşlər keçirilmiş, nüfuzlu beynəlxalq konfrans turizmi üzrə məsləhətçi şirkətlərlə danışıqlar aparılmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin əldə etdiyi təcrübəyə, turizm sahəsindəki beynəlxalq təşkilatların tövsiyələrinə və müvafiq dövlət qurumlarının təkliflərinə əsasən hazırlanmış "Turizm haqqında" yeni Qanun layihəsi 06 fevral tarixindən 30 gün müddətində ictimaiyyətin müzakirəsinə təqdim olunmuş və həmin müddət ərzində müvafiq rəy və təkliflər Nazirliyin elektron poçt ünvanına daxil olmuşdur. Göndərilmiş rəy və təkliflər təhlil edilmiş, yeni Turizm Qanunu ingilis dilinə tərcümə olunaraq BMT-nin Ümumdünya Turizm Təşkilatına təqdim olunmuş və bu qurumdan ekspert rəyi alınmışdır.

MDB-də 2013-cü ilin "Ekologiya mədəniyyəti və ətraf mühitin qorunması" ili elan olunduğunu nəzərə alaraq, MDB başçıları Şurasının iclasında Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müvafiq təkliflər Tədbirlər Planına salınmışdır.

"Kutvan Project Group" tərəfindən Xaçmaz rayonunun turizm potensialının öyrənilməsi və turizmin inkişaf planının hazırlanmasına dair daxil olmuş layihə təklifləri təhlil olunmuş və icrası üçün müvafiq müqavilə sənədləri imzalanmış və işlərə start verilmişdir.

Turizm bələdçiləri üçün Bakı və Abşeron yarımadası üzrə vahid metodiki vəsait hazırlanmış və təsdiq üçün Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə göndərilmişdir.

Atçılıq turizminin inkişafı konsepsiyası və marketinq planı üzrə təkliflər hazırlanmışdır. Bu məqsədlə Şəki rayonunda atçılıq turizminin inkişaf və marketinq konsepsiyasının hazırlanması ilə bağlı ilkin vəziyyət öyrənilmiş, beynəlxalq praktika təhlil olunmuş, layihə hazırlanmışdır.

Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Turizm İnstitutu və Almaniyanın Texniki Əməkdaşlıq Təşkilatının dəstəyi ilə Turist Bələdçiləri Assosiasiyasının Dünya Federasiyası (TBADF) tərəfindən Azərbaycan Respublikasında fəaliyyət göstərən turist bələdçilərinə treninq kursları keçirilmişdir. Kurslarda 11 nəfər turist bələdçisi iştirak etmiş və müvafiq sertifikat alınmışdır.

2012-ci ilin oktyabr ayında Avropa Mədəni Turist Marşrutları ilə birgə mövcud beynəlxalq marşrutlar üzrə (şərab yolu marşrutu) məsləhətləşmələr aparılmmışdır. Nəticədə Azərbaycanın təklifləri qəbul olunmuş və hal-hazırda marşrutun Azərbaycan hissəsinin beynəlxalq sertifikatlaşdırılması üzrə iş aparılır.

12-15 yanvar tarixində Avstriyanın paytaxtı Vyana şəhərində keçirilən “Ferien Messe 2012” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və “Geo Travel”, “Gilan Tourism” şirkətləri təmsil olunmuşdur. Sərgidə ölkəmizin turizm potensialının təbliğ olunması məqsədilə 24 kv.m sahədə Azərbaycan lövhəsi quraşdırılmışdır.

14-22 yanvar tarixində Ştuttqart şəhərində keçirilən “CMT 2012” beynəlxalq turizm sərgisində iştirak etmək məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti Almaniyanın Ştuttqart şəhərinə ezam olunmuşdur. Sərgidə Nazirlik rəsmiləri ilə yanaşı, “Geo Travel”, “ENC Tours” və “Xəzər” turizm şirkətlərinin nümayəndələri də iştirak etmişdir. Qeyd olunan beynəlxalq tədbirdə ölkəmizin turizm potensialının təbliğ olunması məqsədilə 24 kv.m sahədə Azərbaycanın lövhəsi quraşdırılmışdır.

2012-ci ilin 18-22 yanvar tarixində Madrid şəhərində keçirilən “FİTUR” beynəlxalq turizm sərgisində iştirak etmək məqsədilə Azərbaycan Respublikasının nümayəndə heyəti İspaniyaya səfər etmişdir. Həmçinin bu sərgidə “Geo Travel”, “ENC Tours”, “Gilan Tourism” və “Millennium Tourism and Congress DMC” şirkətləri iştirak etmişdir. Respublikamızın turizm imkanlarını əks etdirən xüsusi hazırlanmış 52 m² sahəsi olan lövhədə Mədəniyyət və Turizm Nazirliyinin və turizm şirkətlərinin nümayəndələri təmsil olunmuşdur.

27-29 yanvar tarixində ABŞ-ın Los-Anceles şəhərində keçirilən “Los Angeles Times Travel Show 2012” beynəlxalq turizm sərgisində iştirak etmək məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Turizm Assosiasiyasının nümayəndə heyəti Los-Anceles şəhərinə ezam olunmuşdur. Sərgidə həmçinin “Xəzər Travel”, “İntour” və “Spektr travel” turizm şirkətləri də təmsil olunmuşdur. Qeyd olunan beynəlxalq tədbirdə ölkəmizin turizm potensialının təbliğ olunması məqsədilə 24 kv.m sahə icarəyə götürülmüşdür.

09 – 12 fevral tarixində Türkiyənin İstanbul şəhərində keçirilmiş “EMİTT 2012” beynəlxalq turizm sərgisində nümayəndə heyəti iştirak etmişdir. Sərgidə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi 60 $m^2$-lik sahədə xüsusi qurulmuş lövhə ilə təmsil olunmuşdur. Nazirliyin stendində “Geo Travel”, “Millennium Tourism and Congress DMC”, “Terra Travel”, “Billur Tour”, “Regea Travel”, “The Tour”, “Lake Palace”, “Green travel” və “Sky travel” şirkətləri də təmsil olunurdular.

2012-ci ilin 16-19 fevral tarixində İtaliyanın Milan şəhərində keçirilmiş “BİT 2012” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. Həmçinin sərgidə 3 yerli turizm şirkəti, “Geo Travel”, “Gilan Tourism” və “Millennium Tourism and Congress DMC” şirkətləri təmsil olunmuşdur.

02 – 04 mart tarixində Litvanın Vilnüs şəhərində keçirilən “VİVATTUR 2012” beynəlxalq turizm sərgisində iştirak etmək məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Şamaxı Turizm İnformasiya Mərkəzi iştirak etmişdir. Qeyd olunan beynəlxalq tədbirdə ölkəmizin turizm potensialının təbliğ olunması məqsədilə 25 kv.m sahə icarəyə götürülmüşdür.

07 – 11 mart tarixində Almaniyanın Berlin şəhərində keçirilən “İTB-2012” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi iştirak etmişdir. Adıçəkilən sərgidə respublikamızın turizm imkanlarını əks etdirən 104 m² sahədə lövhə quraşdırılmışdır.

Səfər çərçivəsində Azərbaycan ilə Almaniya arasında mədəniyyət sahəsində mövcud əməkdaşlığın perspektivlərinin müzakirə olunması və gələcəkdə daha da genişləndirilməsi məqsədilə bir sıra ikitərəfli görüşlər keçirilmişdir. Bunlara “lTB Berlin” beynəlxalq turizm sərgisinin direktoru və sərginin baş operatoru ilə, ”CNN”, “Euronews”, “Eurosport”, “FRANCE 24” və “TV5MONDE” telekanalının nümayəndələri ilə, Britaniyanın “Dorling Kindersley”, Almaniyanın “Michael Müller Verlag” və Travel Hause Media” nəşriyyatlarının nümayəndələri ilə, “IMG” məsləhət şirkətinin nümayəndələri ilə, Almaniya Turizm Assosiasiyasının (Deutsche ReiseVerband) baş katibi və Almaniyanın Federal İqtisadiyyat – Texnologiya nazirliyinin Avropa siyasəti şöbəsinin baş direktorunun müavini ilə keçirilən görüşlər daxildir.

Cari ilin 17 – 20 mart tarixində Moskva şəhərində keçirilmiş “İntourmarket 2012” beynəlxalq turizm sərgisində iştirak təmin olunmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Belçikanın “Unicap Television” şirkəti arasında bağlanmış 05.12.2011-ci il tarixli müqaviləyə əsasən qeyd olunan şirkət tərəfindən Azərbaycanın turizm potensialına dair 13 dəqiqəlik film çəkilmişdir. Film iyul ayından etibarən Fransanın “TV5 MONDE” telekanalında yayımlanmışdır.

Türkiyə Səfirliyinin müvafiq məktubuna əsasən, Türkiyənin “Kanaltürk” telekanalının “Dünyayı Geziyorum” proqramında Azərbaycana dair filmin yerləşdirilməsi məqsədilə 18-25 mart tarixlərində qeyd olunan telekanalın əməkdaşları Azərbaycana səfər etmişdir. Film aprel ayının 15-dən etibarən “Kanaltürk” telekanalında yayımlanmışdır.

2012-ci ilin 21 – 24 mart tarixində Moskva şəhərində keçirilən “MİTT 2012” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. Həmçinin sərgidə 9 yerli turizm şirkəti, “Geo Travel”, “Billur Tour”, “Millennium Tourism and Congress DMC”, “Eurotourism”, “İmprotex”, “Regea Travel”, “Tourism.az”, “The Tour”, “Ata Travel” şirkətləri və 1 otel “Jumeirah Bilgah” təmsil olunmuşdur. Adıçəkilən sərgidə respublikamızın turizm imkanlarını əks etdirən 80 m² sahədə lövhə quraşdırılmışdır.

Cari ilin 06 – 08 aprel tarixində Gürcüstanın Tbilisi şəhərində keçirilən “Caucasus Tourism Fair 2012” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və “Geo Travel”, “Gilan Tourism”, “Ata Travel”, “Granit AS Travel”, “Millennium Tourism and Congress DMC” şirkətləri təmsil olunmuşdur. Sərgidə ölkəmizin turizm potensialının təbliğ olunması məqsədilə 20 kv.m sahə icarəyə götürülmüş və sərgiyə gələn ziyarətçi və iştirakçılara paylanması üçün ingilis dilində müxtəlif növ reklam-çap məhsulları ilə təmin olunmuşdur.

12-14 aprel tarixində Bakı şəhərində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin rəsmi dəstəyi ilə “AITF-2012” beynəlxalq turizm və səyahətlər sərgisi keçirilmişdir. Sərgiyə həmçinin Ümumdünya Turizm Təşkilatı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Beynəlxalq Turizm Sərgiləri Assosiasiyası tərəfindən dəstək verilmişdir. Sərginin tərəfdaşları qismində “AZAL” şirkəti (rəsmi hava daşıyıcısı), “Hilton Baku” , “Qafqaz Point” otelləri (rəsmi mehmanxanalar) və “Greenwich Travel Club” şirkəti (rəsmi tur-operator) çıxış etmişlər. “SW Travel” (Azərbaycan) şirkəti ardıcıl olaraq ikinci ildir ki, “AITF” sərgisinin sponsorudur.

Böyük Britaniyanın “ITE Group plc” şirkəti və onun tərəfdaşı “Iteca Caspian” MMC sərginin təşkilatçılarıdırlar. Sərgi ilə bağlı işlərə “ITE Group plc” şirkətinin bütün dünya üzrə tərəfdaş və agentlərindən ibarət geniş şəbəkəsi cəlb olunmuşdur. “ITE” (London), “EUF” (Türkiyə), “GIMA” (Almaniya) və “ITE Gulf” (Dubay) kimi beynəlxalq şirkətlər Azərbaycan sərgisində fəal iştirak etmişlər. Bütövlükdə 62 turizm istiqamətini təqdim edən “AITF-2012” sərgisində dünyanın 32 ölkəsindən 201 şirkət və təşkilat iştirak etmişdir.

Azərbaycanın turizm potensialının təbliğinin İran Körfəzi ölkələrində həyata keçirilməsi məqsədilə 28.04.2011-ci il tarixində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə “Atlantis Holidays” şirkəti arasında müqavilə imzalanmışdır. “Atlantis Holidays” şirkəti tərəfindən Azərbaycanın turizm potensialının İran Körfəzi ölkələrində təbliğ edilməsi məqsədilə ərəb-ingilis dillərində “Azerbaijan” adlı jurnal nəşr olunmuşdur. Jurnalın təqdimatı cari ilin 12 aprel tarixində “AİTF 2012” beynəlxalq turizm sərgisi zamanı həyata keçirilmişdir.

20-22 aprel tarixində Varşavada keçirilən “LATO Fair 2012” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və həmçinin “The Tour”, “Millennium Tourism and Congress DMC”, “Geo Travel” turizm şirkətləri və “Gallery hotel” mehmanxanası təmsil olunmuşdur. Azərbaycan qeyd olunan sərgidə ilk dəfə iştirak etmişdir. Bu məqsədlə 24 kv.m sahə icarəyə götürülmüş və Azərbaycan stendi quraşdırılmışdır. Stend sərgi iştirakçılarına və ziyarətçilərə paylamaq üçün ingilis dilində müxtəlif çeşiddə Azərbaycanın turizm potensialını təbliğ edən reklam-çap məhsulları ilə təmin olunmuşdur.

30 aprel – 03 may tarixində BƏƏ-nin Dubay şəhərində keçirilən “ATM 2012” beynəlxalq turizm sərgisində iştirak təmin olunmuşdur.

Cari ilin 07 – 10 iyun tarixində Koreyanın Seul şəhərində keçirilən “KOTFA” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və həmçinin “Millennium Tourism and Congress DMC”, “Geo Travel”, “Regea travel”, “ENC tours” və “İmprotex” turizm şirkətləri təmsil olunmuşdur.

Cari ilin 14 – 17 iyun tarixində Çinin Honq-Konq şəhərində keçirilən “İTE and MİCE” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və həmçinin “Billur Tour”, “The Tour”, “ATA travel”, “İmprotex” turizm şirkətləri və “Gallery hotel”, “Excelsior” mehmanxanaları təmsil olunmuşdur.

2012-ci ildə Azərbaycanın turizm potensialını əks etdirən 45 və 60 saniyəlik reklam çarxlarının “CNN”, “Euronews” və “Travel Channel” telekanallarında nümayiş olunması məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə adları qeyd olunan telekanallar arasında müqavilə yenilənmişdir. Mədəniyyət və Turizm Nazirliyi “CNN” telekanalı ilə 2005-ci ildən, “Euronews” telekanalı ilə 2006-cı ildən, “Travel Channel” telekanalı ilə isə 2008-ci ildən etibarən əməkdaşlıq edir.

“Eurosport” kanalı ilə Nazirlik arasında ölkəmizin təbliğatı ilə bağlı müqavilə imzalanmışdır.

“BMİ Voyager”, “Business Year” jurnallarında və “MİTT” sərgisinin rəsmi kataloqunda Azərbaycanın turizm potensialına dair reklam səhifələri yerləşdirilmişdir.

Hesabat dövrü ərzində Azərbaycanın turizm potensialının geniş şəkildə təbliğ olunması məqsədilə Nazirliyin “azerbaijan.tourism.az” saytının dizayn və tərtibatı dəyişilərək “azerbaijan.travel” adı altında fəaliyyətə başlamışdır. Cari ilin 13 iyun tarixində Azərbaycanda yay turizm mövsümünün açılışı məqsədilə “Jumeirah Bilgah” otelində keçirilən tədbir çərçivəsində “azerbaijan.travel” saytının da rəsmi təqdimatı keçirilmişdir.

Cari ilin 10–31 avqust tarixində İtaliyada fəaliyyət göstərən “Polaris s.r.l.” nəşriyyatının nümayəndələri Mədəniyyət və Turizm Nazirliyinin dəvəti ilə ölkəmizə səfər etmişdirlər. Səfərin məqsədi qeyd olunan nəşriyyat şirkəti tərəfindən Azərbaycanın turizm potensialını əks etdirən italyan dilində “AZERBAIJAN – Guida per Viaggiare” bələdçi kitabının hazırlanması və nəşr edilməsi olmuşdur.

2013-cü ilin 06-10 mart tarixində Berlində keçirilən “İTB Berlin 2013” beynəlxalq turizm sərgisində Azərbaycanın “Konqres və Mədəniyyət” tərəfdaşı kimi çıxış etməsi məqsədilə cari ilin 29-31 avqust tarixlərində qeyd olunan sərgi təşkilatçılarının Bakıya səfəri təşkil olunmuşdur. Səfər çərçivəsində nümayəndə heyəti ilə mədəniyyət və turizm naziri Ə. Qarayev arasında sərgidə iştirakla bağlı görüş keçirilmişdir.

Hesabat dövründə “Euronews” telekanalı ilə əməkdaşlıq çərçivəsində “V Qəbələ Musiqi Festivalı”, “Caz festivalı”, “Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalı” və “VI Beynəlxalq Rostropoviç adına musiqi festivalı” həmin telekanalın "Le Mag" verilişində işıqlandırılmışdır.

Cari ilin 18-21 sentyabr tarixində Fransanın Paris şəhərində keçirilən “Top Resa 2012” beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və “Geo Travel”, “Gilan Tourism”, “SW travel” və “Millennium Tourism and Congress DMC” şirkətləri təmsil olunmuşdur. Adıçəkilən sərgidə respublikamızın turizm imkanlarını əks etdirən 71.25 kv.m sahədə lövhə quraşdırılmış, həmçinin lövhədə “Azərbaycan Hava Yolları” aviaşirkəti üçün xüsusi yer ayrılmışdır. Sərgiyə gələn ziyarətçi və iştirakçılara ingilis və fransız dillərində müxtəlif növ reklam-çap məhsulları, eləcə də digər təbliğat materialları paylanmışdır.

20-23 sentyabr tarixində Yaponiyanın Tokio şəhərində keçirilən “JATA 2012” beynəlxalq turizm sərgisində iştirak etmək məqsədilə nümayəndə heyəti Tokio şəhərinə ezam olunmuşdur. Sərgidə Nazirlik rəsmiləri ilə yanaşı, “Geo Travel”, “ENC Tours” və “İmprotex travel” turizm şirkətlərinin nümayəndələri də iştirak etmişdir. Adıçəkilən sərgidə respublikamızın turizm imkanlarını əks etdirən 63 kv.m sahədə xüsusi lövhə quraşdırılmış və sərgiyə gələn ziyarətçi və

iştirakçılara paylanması üçün ingilis və yapon dillərində müxtəlif növ reklam-çap məhsulları, eləcə də digər təbliğat materialları paylanmışdır.

Cari ilin 11-13 oktyabr tarixində Ukraynanın Kiyev şəhərində keçirilən "İnternational Ukraine travel Market" beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və 7 yerli turizm şirkəti, "Geo Travel", "Gilan Tourism", "Millennium Tourism and Congress DMC", "Regea travel", "Billur tour", "Granit AS" və "Safe Way" şirkətləri təmsil olunmuşdur. Adıçəkilən sərgidə respublikamızın turizm imkanlarını əks etdirən 48 kv.m sahədə xüsusi lövhə quraşdırılmış və stend sərgiyə gələn ziyarətçi və iştirakçılara paylanmaq üçün ingilis, rus və ukrayna dillərində müxtəlif növ reklam-çap məhsulları, eləcə də digər təbliğat materialları ilə təmin olunmuşdur.

Cari ilin 05 – 08 noyabr tarixində Böyük Britaniyanın London şəhərində keçirilən "WTM 2012" beynəlxalq turizm sərgisində Azərbaycan Respublikası mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir. Həmçinin sərgidə 11 yerli turizm şirkəti, "Geo Travel", "Gilan Tourism", "Millennium Tourism and Congress DMC", "SW travel", "ENC tours", "Billur tur", "Eurotourism", "The tour", "Turizm.az", "Victory tour", 2 mehmanxana "Four Seasons Hotel Baku", "Jumeirah Bilgah Beach hotel" və Azərbaycan Qolf Federasiyası təmsil olunmuşdur. Adıçəkilən sərgidə respublikamızın turizm imkanlarını əks etdirən 105 kv.m sahədə lövhə quraşdırılmış, həmçinin lövhədə "Azərbaycan Hava Yolları" aviaşirkəti üçün xüsusi yer ayrılmışdır. Sərgi ziyarətçi və iştirakçılara paylanmaq üçün ingilis dilində müxtəlif növ reklam-çap məhsulları, eləcə də digər təbliğat materialları ilə təmin olunmuşdur.

Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının proqnozlarına görə 13 dekabr 2012-ci il tarixinin simvolik olaraq dünya üzrə milyardıncı turistin beynəlxalq səyahət tarixi kimi qeyd olunduğunu nəzərə alaraq, "Azərbaycan Hava Yolları"nın Bakı-London reysində uçan hər bir sərnişinə simvolik olaraq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müvafiq sertifikat təqdim edilmişdir. Bununla da, Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatına üzv olan hər bir ölkə kimi Azərbaycan da "Milyardıncı Turist" aksiyasına qoşulmuşdur.

Hesabat dövrü ərzində ingilis, rus, yapon, fransız, ərəb, çin və alman dillərində müxtəlif növ reklam-çap məhsulları hazırlanmış və iştirak olunan sərgilərdə paylanılmışdır.

2012-ci il ərzində **57** hüquqi və fiziki şəxsin təqdim edilmiş sənədlərinə baxılmış və onlara turizm fəaliyyəti ilə məşğul olmaq üçün (lisenziya) verilmişdir. Hal-hazırda respublikada 218 turizm şirkəti fəaliyyət göstərir.

2012-ci il ərzində **77** hüquqi və fiziki şəxsin təqdim edilmiş sənədlərinə baxılmış və onlara mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya verilmişdir. Hal-hazırda respublika ərazisində **253** hüquqi və fiziki şəxs Mədəniyyət və Turizm Nazirliyindən mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyətinə xüsusi razılıq (lisenziya) alaraq fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin 02.09.2002-ci il tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar"ın 5.1.1., 5.1.2. və 5.1.4. bəndlərinə əsasən, **6** hüquqi və fiziki şəxsə mehmanxana və mehmanxana tipli obyekt fəaliyyəti üçün verilmiş xüsusi razılıq (lisenziya) Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmrinə əsasən fəaliyyətləri dayandırılmışdır.

Eyni zamanda həmin qaydalara əsasən, "Go-To.Az" MMC "NTA" MMC və "RAN TUR" MMC-yə turizm fəaliyyəti üçün verilmiş xüsusi razılıq (lisenziya) ləğv edilərək öncədən fəaliyyəti dayandırılmışdır.

"Qaydalar"ın 5.1.2. bəndinə əsasən **22** hüquqi və fiziki şəxsə turizm fəaliyyəti üçün verilmiş lisenziyaların fəaliyyəti Mədəniyyət və Turizm Nazirliyinin 625 nömrəli 22.12.2012-ci il tarixli əmrinə əsasən f dayandırılmış və sonra, həmin Qaydaların 5.3. bəndinə əsasən onlardan **3-nün** fəaliyyəti Mədəniyyət və Turizm Nazirliyinin 138 nömrəli 16.03.2012-ci il tarixli əmrinə və **1-nin** fəaliyyəti isə 231 nömrəli 24.04.2012-ci il tarixli əmrinə əsasən bərpa edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 23 aprel 2004-cü il tarixli, 56 nömrəli Fərmanı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 iyul 2004-cü il tarixli, 97 nömrəli Qərarı ilə təsdiq edilmiş «Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydası»na əsasən, 2012-ci il ərzində ekspert qrupu tərəfindən **37** obyektə baxış keçirilmiş və Azərbaycan Respublikasında dövlət təsnifatından keçmiş mehmanxana və mehmanxana tipli obyektlərin sayı **67**-yə çatmışdır.

Vahid lisenziya reyestrinin aparılması məqsədilə lisenziya almış şirkətlərin və mehmanxanaların siyahısı hazırlanaraq hər ay üzrə İqtisadi İnkişaf Nazirliyinə, rüb üzrə isə Vergilər Nazirliyinə və Hesablama Palatasına təqdim edilmişdir.

Təhsil Nazirliyi, Dövlət Miqrasiya Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən alınan rəsmi məlumatlar əsasında 2011-ci il ərzində Azərbaycana gələn əcnəbi vətəndaşlar və xarici turistlərlə bağlı müqayisəli təhlillər aparılaraq arayış hazırlanmış, həmçinin Dövlət Sərhəd Xidməti və Dövlət Statistika Komitəsi tərəfindən alınan rəsmi məlumatlar əsasında 2012-ci ilin 1-ci yarımilliyi ərzində Azərbaycana gələn əcnəbi vətəndaşlar və xaricə gedən Azərbaycan vətəndaşları ilə bağlı müqayisəli təhlillər aparılmışdır.

Dövlət Statistika Komitəsi tərəfindən alınan rəsmi məlumatlar əsasında 2011-ci il və 2012-ci ilin 1-ci yarımilliyi ərzində mehmanxanaların və turizm müəssisələrinin fəaliyyətlərinə dair əsas göstəricilər təhlil olunaraq müvafiq arayış hazırlanmışdır.

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"na və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında"

2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarına əsasən mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyətinə və turizm fəaliyyətinə lisenziya alınması, yerləşdirmə obyektlərinin təsnifatdan keçirilməsi üçün sənədlərin elektron formada qəbulu ilə bağlı zəruri işlər görülmüşdür.

Azərbaycanda atçılıq turizminin təbliği, bu sahəyə marağın oyadılması və kütləviliyin artırılması, Bakıda keçirilmiş "Eurovision 2012" mahnı müsabiqəsinin təşkili ilə əlaqədar, Azərbaycana gələn turistlərin atçılıq turizminə cəlb edilməsi məqsədilə Respublika Atçılıq Turizm Mərkəzində turizm şirkətləri və media nümayəndələrinin iştirakı ilə cari ilin 06-08 may tarixlərində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş atüstü turist yürüşü keçirilmişdir.

## BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ MƏDƏNIYYƏT PROQRAMLARI

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən 2012-ci ilin “Mirzə Fətəli Axundzadə İli” elan olunması ilə əlaqədar, 26 yanvar 2012-ci il tarixində TÜRKSOY qərargahında keçirilmiş “M.F.Axundzadə İli”nin rəsmi açılış mərasimində mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

Açılış mərasimində milli dramaturgiyamızın banisi M.F.Axundzadənin həyat və yaradıcılığı, onun Azərbaycan ədəbiyyatındakı rolu, o cümlədən “Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 851 nömrəli, 13 aprel 2010-cu il tarixli sərəncamına əsasən görülən işlər barədə məlumat verilmişdir.

Tədbirdə Türkiyənin mədəniyyət və turizm naziri Ərtoğrul Günay, TÜRKSOY təşkilatının Baş katibi Düsen Kaseinov, Gürcüstanın mədəniyyət və abidələrin qorunması naziri Nikoloz Rurua çıxış edərək M.F.Axundzadə barəsində fikirlərini bildirmiş, Azərbaycan Milli Elmlər Akademiyasının professoru, ədəbiyyatçı Zaman Əsgərli və Türkiyənin Ege Universitetinin professoru Yavuz Akpınar dahi ədibin yaradıcılığı və əsərləri haqqında geniş məruzə etmişlər. Mərasimin bədii hissəsində “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin istehsalı olan, M.F.Axundzadənin həyat və yaradıcılığından bəhs edən “Sabahın elçisi” filmi göstərilmiş, Azərbaycan muğam ifaçılarının konserti və “Mirzə Fətəli Axundzadənin Məmləkəti” adlı foto sərgi təşkil olunmuşdur.

Yekunda “M.F.Axundzadə İli”nin TÜRKSOY-a üzv ölkələrdə yüksək səviyyədə qeyd edilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi qərara alınmışdır.

Ölkəmizin tarixinin, mədəniyyətinin Roma Biennalesində təqdimi məqsədilə Heydər Əliyev Fondunun və Mədəniyyət və Turizm Nazirliyinin birgə dəstəyi və təşkilatçılığı ilə fevralın 13-də Roma Sivilizasiyası Muzeyində “Azərbaycan - Odlar Yurdu İpək Yolunda” adlı sərginin açılışı keçirilmişdir. Açılış mərasimində nazir Əbülfəs Qarayev Azərbaycan-İtaliya əlaqələrinin mövcud vəziyyəti, inkişaf səviyyəsi və tarixi kökləri haqqında məlumat vermiş, şərq-qərb sivilizasiyalarının qovşağında yerləşən Azərbaycanın və qədim Romanın dünya mədəni irsinə misilsiz nümunələr bəxş etməsinin hər iki xalqın zəngin mədəniyyətinin bariz sübutu olduğunu vurğulamışdır.

Hər iki ölkə arasındakı dostluq münasibətlərinin daha da dərinləşməsi üçün mədəniyyətlərin qarşılıqlı tanıdılmasının zəruriyyəti qeyd olunmuş və 2012-ci ildə Azərbaycan mədəniyyətinin İtaliya ictimaiyyətinə təqdim edilməsi məqsədilə Heydər Əliyev Fondu tərəfindən tədbirlərin keçirilməsinin nəzərdə tutulduğu bildirilmişdir.

Mərasimdə İtaliyanın elm və incəsənət xadimləri, Roma şəhər muzeylərinin rəhbərləri və əməkdaşları, Roma şəhərində akkreditə olunmuş diplomatik korpusların nümayəndələri, Azərbaycan tarixi və mədəniyyətinin tədqiqi ilə məşğul olan xarici şərqşünas alimlər iştirak etmişdir.

Ölkəmizin beş muzeyindən (Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Qobustan Milli Tarix-Bədii Qoruğunun muzeyin və Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğu ərazisində yerləşən Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi) seçilən, Azərbaycanın qədim tarixini və mədəniyyətini əks etdirən 60-dan artıq eksponatın nümayiş olunduğu sərgi qonaqlarda böyük maraq doğurmuş və aprelin 10-dək davam etmişdir.

İtaliyaya səfəri çərçivəsində nazir Əbülfəs Qarayev həmin ölkənin turizm və idman naziri Pyero Qnudi ilə görüşmüşdür. Görüş zamanı italiyalı nazirə Azərbaycan Hökumətinin turizmin inkişafına verdiyi əhəmiyyət, turizm infrastrukturunun inkişafı istiqamətində görülən tədbirlər və İtaliya tərəfi ilə əməkdaşlıq haqqında ətraflı məlumat verilmişdir. Azərbaycan və İtaliya arasında turizm sahəsində əməkdaşlıq imkanlarının reallaşdırılması məqsədilə nazir P.Qnudi Azərbaycana səfərə, eləcə də 2012-ci ilin aprelində Bakıda keçirilməsi planlaşdırılan XI Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisinə dəvət edilmişdir.

Həmin gün İtaliyanın mədəniyyət naziri Lorentso Ornaqi ilə də görüş təşkil olunmuşdur. Görüşdə iki ölkə arasındakı tarixi mədəni əlaqələrin inkişafına mühüm əhəmiyyət verildiyi qeyd edilmiş və italiyalı nazir Azərbaycana dəvət olunmuşdur.

2012-ci il 24 fevral tarixində Qazaxıstanın Astana şəhərində keçirilmiş “Astana–Türk Dünyasının Mədəniyyət Paytaxtı–2012” mədəniyyət ilinin açılış mərasimində nazir Əbülfəs Qarayev iştirak etmişdir.

Açılış mərasimində və bununla bağlı təşkil olunmuş qala-konsertdən sonra TÜRKSOY-a üzv ölkələrin mədəniyyət nazirlərinin iştirakı ilə Astana şəhərində TÜRKSOY Mədəniyyət nazirləri Daimi Şurasının qeyri-rəsmi toplantısı keçirilmişdir. Toplantıda TÜRKSOY-un yaradılmasına dair 1993-cü ildə imzalanmış Müqavilənin yenilənməsi, yeni layihənin beynəlxalq standartlara uyğunlaşdırılması razılığına gəlinmişdir.

“Astana–Türk Dünyasının Mədəniyyət Paytaxtı–2012” mədəniyyət ilinin açılış mərasimi çərçivəsində TÜRKSOY rəsm sərgisi və üzv ölkələrin stendlərinin açılışı keçirilmişdir. Rəsm sərgisinin açılışında türk dünyasının geyimləri sərgilənmiş və iştirakçıların böyük marağına səbəb olan moda nümayişi təşkil edilmişdir.

Bakıda “Fransanın inciləri. Fransız yaradıcılığı Renessansdan XX əsrədək” adlı sərginin açılış mərasimində iştirak məqsədilə 9-11 mart tarixində Fransa Respublikasının mədəniyyət və kommunikasiya naziri Frederik Mitteranın rəhbərlik etdiyi rəsmi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

Səfərin ilk günü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Fransa Respublikasının mədəniyyət və kommunikasiya naziri Frederik Mitteranı qəbul etmişdir. Görüşdə Azərbaycan və Fransa arasında müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində əlaqələrin uğurlu inkişafı vurğulanaraq, bu sahədə keçirilən çoxsaylı tədbirlərin qarşılıqlı əməkdaşlığın genişlənməsinə xidmət etdiyi qeyd olunmuşdur.

Həmin gün nümayəndə heyəti Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva tərəfindən qəbul edilmişdir. Görüşdə Azərbaycan və Fransa arasında mədəniyyət sahəsində mübadilənin inkişaf etdirilməsinin vacibliyi qeyd olunmaqla, hər iki ölkədə mədəniyyət tədbirlərinin keçirilməsinin qarşılıqlı əlaqələrin inkişafına xidmət etdiyi vurğulanmışdır. Heydər Əliyev Fondunu ziyarət edən qonaqlar ekspozisiyalarla tanış olmuşdur.

Bununla yanaşı Fransa nümayəndə heyətinin Müasir İncəsənət Muzeyinə, İçərişəhərə, Qız Qalasına, Şirvanşahlar Sarayına ziyarəti təşkil edilmişdir.

10 mart tarixində Fransanın nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyində görüş keçirilmişdir.

Görüş zamanı dünyanın ən böyük muzeylərindən biri olan Luvr Muzeyində Azərbaycan mədəniyyətini təbliğ edən sərgilərin təşkili ölkəmiz üçün mühüm mədəniyyət hadisəsi, həmçinin musiqi, kino və incəsənətin digər sahələrində birgə layihələrin həyata keçirilməsi ölkələr arasında aparılan əməkdaşlığın uğurlu nəticəsi kimi dəyərləndirilmişdir. Sonra qonaqlar Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasında, Muğam Mərkəzində və "Nizami" Kino Mərkəzində olmuşldur.

Həmin gün Dövlət İncəsənət Muzeyində "Fransanın inciləri. Fransız yaradıcılığı Renessansdan XX əsrədək" adlı sərginin açılış mərasimi keçirilmişdir. Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin və Fransanın Mədəniyyət və Kommunikasiya Nazirliyinin təşkilati dəstəyi ilə keçirilən sərgidə ictimai-siyasi xadimlər, incəsənət nümayəndələri, ziyalılar, ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklər və digər şəxslər iştirak etmişdir. Fransız mədəniyyətinin nadir nümunələrinin nümayiş etdirildiyi sərgi tamaşaçılar tərəfindən böyük maraqla izlənilmişdir.

7-10 mart tarixində Nazirlik nümayəndələri Brüssel şəhərində növbəti Krans Montana forumunda və bu çərçivədə "Gələcəyin Gənc Liderləri" mükafatına layiq görülmüş şəxslərlə görüşdə və 26-27 mart tarixində İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Yüksək Vəzifəli Şəxslər Komitəsinin V iclasında Nazirliyin nümayəndəsi iştirak etmişdir. İstanbuldakı iclas zamanı "Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun Nizamnaməsi" və "Türk Akademiyasının təsis edilməsi haqqında Sazış" layihəsi müzakirə edilmişdir.

16-21 aprel tarixində İsveçin paytaxtı Stokholmda SVT –Sveriges Television kanalının sifarişi ilə istehsal olunmuş "Azərbaycan incəsənət ocaqları: Skandinaviya təcrübəsi" ("Azerbaijan Art Stations: Nordic Experience") adlı layihəyə həsr edilmiş sənədli filmin yaradıcı heyəti ilə görüşlər keçirilmişdir. Filmdəki sənədli kadrlarda ölkədə gedən mühüm pozitiv dəyişikliklər, dövlətin mədəniyyətə yüksək qayğısı, xalqın xaricilərə qarşı nəcib davranışı və qonaqpərvərliyi öz əksini tapmışdır. Filmin ilkin versiyası ilə bağlı müvafiq təkliflər irəli sürülmüşdür.

14-16 may tarixində Strasburqda Avropa Şurasının Mədəniyyət, Mədəni irs və Landşaft üzrə Rəhbər Komitəsinin ilk iclası keçirilmişdir. İclasda Avropa Şurasının yeni təyin edilmiş Demokratiya üzrə baş direktoru xanım Snejana Samardziç Markoviç, Demokratik idarəetmə, mədəniyyət və müxtəliflik üzrə direktor Robert Palmer, üzv ölkələrdən 100-ə yaxın nümayəndə, digər beynəlxalq qurumların rəsmiləri iştirak etmişdir.

İclasda yeni Komitənin Nizamnaməsi, sədr, sədr müavini və üzvlərinin seçilməsi, 2012-2013-cü illər üçün Fəaliyyət Planı, Avropa Şurasının layihə və proqramları, AŞ ilə Aİ və YUNESKO arasında əməkdaşlıq, Lyublyana prosesi, "Münaqişələrin həllində İncəsənət bir vasitə kimi" layihələri, Aİ Faro, Qranada, Valetta Konvensiyaları, 2013-cü ildə Bakıda keçiriləcək II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Rusiyada keçirilməsi təklif edilən Avropa Şurasının Mədəniyyət Nazirlərinin Konfransı və digər məsələlər müzakirə olunmuşdur.

İclasda Azərbaycan tərəfindən çıxış edən nazir müavini S.Məmmədəliyeva ölkəmizdə mədəniyyət, mədəniyyətlərarası dialoq, mədəni turizm sahələrində aparılan işlər, ölkə rəhbərliyinin bu sahəyə dəstəyi barədə danışmışdır.

Səfər çərçivəsində Avropa Şurasının baş direktoru və digər rəsmilərlə ikitərəfli görüşlər keçirilmişdir. Avropa Şurasının rəhbərliyi Azərbaycan ilə mədəniyyət sahəsində əməkdaşlığı yüksək qiymətləndirərək növbəti ildə keçiriləcək II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Avropa Şurasının tərəfdaş kimi Qlobal Mədəniyyətlərarası Şəhərlər Proqramının təsis edilməsi və mədəni marşrutlar üzrə xüsusi tədbirin keçirilməsi təklifini irəli sürmüşdür.

15 may tarixində nazir Əbülfəs Qarayev İsrail nümayəndə heyətini qəbul etmişdir. Görüşdə İsrail parlamentinin üzvləri Faina Kirşenbaum, Orit Zuaretz, İsrailin Azərbaycandakı səfiri Mixail Lotem iştirak etmişdir.

Nazir Əbülfəs Qarayev iki ölkə arasında mədəniyyət sahəsində olan sıx əlaqələrdən məmnunluğunu ifadə etmiş, Azərbaycanda keçirilən geniş miqyaslı beynəlxalq tədbirlərdə, həmçinin musiqi festivallarında İsraildən olan sənət adamlarının və musiqiçilərin iştirakını xüsusi vurğulamışdır.

23 may tarixində Bakıda YUNESKO-nun Silahlı münaqişələr zamanı mədəni obyektlərin qorunması üzrə Hökumətlərarası Komitəsinin sədri Nut Vudenberqlə görüş keçirilmişdir. Görüşdə Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri ilə yanaşı Xarici İşlər və Ədliyyə Nazirliklərinin, həmçinin İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunun nümayəndələri də iştirak etmişlər. Görüş zamanı “Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyası və onun İkinci Protokoluna əsasən İçərişəhər və Qobustan üçün gücləndirilmiş mühafizə statusunun verilməsi ilə bağlı prosedur məsələlər müzakirə edilmiş və bununla əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi haqqında Qanun layihəsinə dair məsləhətləşmələr aparılmışdır.

Aprelin 27-də YUNESKO-da Beynəlxalq Caz Günü münasibətilə bayram tədbirləri təşkil edilmişdir. Azərbaycan bu tədbirin ən mühüm sponsorlarından biri olaraq, keçirilmiş Beynəlxalq Caz Günündə fəal iştirak etmişdir.

YUNESKO-nun Xoşməramlı səfiri Herbi Henkok tərəfindən irəli sürülən və YUNESKO tərəfindən dəstəklənən bu tədbirə dünyanın ən məşhur caz musiqiçiləri Markus Miller, Di Di Bricuoter, Barbara Hendriks, Tania Maria, Danilo Peres, həmçinin gənc musiqiçilər Hyu Masekela, İbrahim Maaluf, Svan Berger, Covanni Mirabassi və başqaları cəlb edilmişdi. Tədbirdə məqsəd caz musiqisinin insanlar arasında sülh, birlik, dialoq və qarşılıqlı əlaqələrə səbəb olacaq bir qüvvə kimi rolunu daha geniş və yüksək səviyyədə bütün dünyaya, bəşəriyyətə anlatmaqdan ibarət idi.

Xoşməramlı Səfir Herbi Henkok Caz Gününün həm açılışında, həm də axşam konsertinin təqdimatında bu tədbirin dəstəklənməsinə görə təşkilatçılar adından Azərbaycan Hökumətinə, Heydər Əliyev Fonduna, Mədəniyyət və Turizm Nazirliyinə dərin minnətdarlığını bildirmişdir.

Ölkəmizin zəngin ənənələri olan caz məktəbinin geniş auditoriyaya tanıdılması məqsədilə Caz gününün improvizasiyalara həsr olunmuş hissəsində musiqişünas Turan Məmmədəliyevanın “Azərbaycanda caz” adlı təqdimatı keçirilmiş və bundan sonra, pianoçu Salman Qəmbərovun rəhbərlik etdiyi Bakoustik Jazz Qrupunun canlı ifası ilə 1930-cu ildə çəkilmiş “Lətif” adlı səssiz filmin səsləndirilməsi təşkil edilmişdir. Bütün zal qədim filmimizi və caz improvizasiyaları sürəkli alqışlarla qarşılamış, tədbirdən sonra bir sıra xarici musiqiçilər və YUNESKO nümayəndələri qrupun çıxışından heyran olduqlarını bildirmişlər. Daha sonra istedadlı gənc musiqiçi, Montrö caz pianoçuları müsabiqəsinin qalibi İsfar Sarabski yekun qala konsertdə səhnəni zərb ustası Terri Layn Kerrinqton, bas gitaraçı Ben Uilliams və saksofonçu İqor Butman ilə bölüşərək məşhur caz standartlarını ifa etmişdir. Onunla bərabər gecədə dünyada tanınmış caz ustaları Herbi Henkok, Barbara Hendriks, Markus Miller, Corc Benson və digərləri çıxış etmişdir. İ. Sarabskinin ifa etdiyi musiqi parçası böyük maraqla qarşılanmışdır.

Tədbirlərdə ölkəmizin fəal iştirakı və onun adının cazın vətəni sayılan ABŞ və caz məktəbi ənənələri olan digər ölkələrlə (Fransa, Braziliya, İtaliya, Cənubi Afrika və s.) bir sırada qeyd edilməsi, Azərbaycanda zəngin caz ənənələrinin mövcudluğunu və uğurlu inkişafını bir daha göstərmişdir.

Ukraynada keçirilən Azərbaycan Mədəniyyət Günlərində iştirak məqsədilə iyunun 1-dən 3-dək Ukraynada səfərdə olmuş nazir Əbülfəs Qarayev Ukrayna Baş nazirinin müavini Raisa Boqatıryeva ilə görüşmüşdür. Görüşdə Azərbaycanın Eurovision Beynəlxalq Mahnı Müsabiqəsinə, Ukraynanın isə futbol üzrə Avropa çempionatına ev sahibliyi etməsinin böyük tarixi əhəmiyyət daşıdığı vurğulanmışdır. Bununla yanaşı 2013-cü ildə Azərbaycanda Ukrayna Mədəniyyət Günlərinin təşkili, hər iki ölkənin mədəniyyət və incəsənət xadimlərinin birgə

layihələr həyata keçirməsi, mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Həmin gün Ukraynanın mədəniyyət naziri M.Kulınyak ilə görüş keçirildi. Görüşdə Azərbaycanla Ukrayna arasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

İyunun 1-də Kiyev şəhərində T.Q.Şevçenko adına Ukrayna Milli Opera və Balet Teatrında Azərbaycan Mədəniyyət Günlərinin təntənəli açılış mərasimi keçirilmiş, bu çərçivədə "Azərbaycan: ənənələr və müasirlik sərhədində" adlı fotosərgi təşkil edilmiş, Azərbaycanın turizm potensialının təqdimatı olmuşdur.

Nazir Əbülfəs Qarayev açılış mərasimində çıxış edərək Azərbaycanla Ukrayna arasında tarixən səmimi dostluq münasibətlərinin olduğunu vurğulayaraq, bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsindəki sıx əməkdaşlıq barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. 2009-cu ildə Ukraynada Azərbaycan Mədəniyyəti Günlərinin böyük uğurla keçirildiyi qeyd edilərək, bu ənənənin davam etdirilməsindən məmnunluq ifadə olunmuşdur.

Daha sonra Ukrayna mədəniyyət və turizm nazirinin müavini Timofey Koxan çıxışında iki ölkə arasında qarşılıqlı əlaqələri, o cümlədən strateji tərəfdaşlığın mədəni tərkibini yüksək qiymətləndirmiş, Azərbaycan diasporunun Ukraynanın ictimai-siyasi həyatında fəal rol oynadığını tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Rəsmi hissədən sonra Azərbaycan incəsənət ustalarının iştirakı ilə böyük konsert keçirildi. Tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətli, Ukraynanın rəsmi şəxsləri, xarici ölkələrin diplomatik nümayəndəliklərinin, beynəlxalq təşkilatların rəhbərləri, Azərbaycan diasporunun üzvləri və jurnalistlər iştirak edirdilər.

Iyunun 2-də "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşasının nümayişi, iyunun 3-də isə Odessa şəhərinin Akademik Opera və Balet Teatrında Azərbaycan incəsənət ustalarının qala-konserti keçirilmişdir. Tədbirdə ölkəmizin Ukraynadakı səfirliyinin əməkdaşları, Odessa meriyasının, Ukrayna ictimaiyyətinin, diasporumuzun nümayəndələri iştirak etmişlər.

Ukraynada keçirilən Azərbaycan Mədəniyyət Günləri bütün tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

4-6 iyun tarixində İstanbul şəhərində Yaxın Şərq, Şimali Afrika və Avrasiya regionu üzrə "Keçid dövründə olan regionların əlaqələndirilməsi" adlı Dünya İqtisadi Forumunun xüsusi iclasında nazir Əbülfəs Qarayev iştirak etmişdir. İnkişaf naminə əməkdaşlığı genişləndirmək üçün dünyanın müxtəlif ölkələrindən olan 1000-ə yaxın siyasət və biznes liderlərini, mütəfəkkirləri bir araya gətirən Dünya İqtisadi Forumunun 42 illik tarixində ilk dəfə olaraq Yaxın Şərq, Şimali Afrika və Avrasiya regionuna həsr edilmiş xüsusi iclas keçirilmişdir. Forum zamanı dövlət, biznes və vətəndaş cəmiyyəti strukturlarının yeni birgə əməkdaşlıq formaları araşdırılmış, gələcəyin meqa-regionunun ölkələri arasında əməkdaşlığın gücləndirilməsi, rəqabətə davamlılıq sahəsində ən yaxşı qlobal təcrübələr, Avropa regionunda böhran, "Ərəb baharı" və "Rusiya Qışı", tədqiqat və elm sahələrinə investisiyalar, bilik iqtisadiyyatının formalaşdırılması, enerji təhlükəsizliyi, sosial dinamiklik, idarəçilik və s. məsələlər mühüm müzakirə mövzusu olmuşdur.

Forum çərçivəsində "Mədəniyyət sosial dəyişiklik üçün bir vasitə" adlı sessiyada mədəniyyətin cəmiyyətlər arasında müsbət dəyişikliklərin sürətləndirilməsinə xidmət edən vasitə olması haqqında fikir mübadiləsi aparılmış, sosial medianın artan təsiri, mədəniyyətlərarası inteqrasiya və "yumşaq siyasət" mövzuları müzakirə edilmişdir. Tədbirdə ABŞ-in NetHope adlı qeyri-hökumət təşkilatının icraçı direktoru Uilyam Brindli, Türkiyənin məşhur yazıçısı Elif Şafak, Birləşmiş Ərəb Əmirliklərinin tanınmış bəstəkarı və ifaçısı Sami Yusuf, Kuveyt Gənclər Təşkilatının Lideri Naif Əl Mutava və Nazirlik nümayəndəsi çıxış etmişlər.

Sessiyada 2011-ci ildən başlayaraq hər iki ildən bir ölkəmizdə təşkil ediləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun İslam dünyası ilə Qərb sivilizasiyası, eləcə də digər xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsindəki mühüm rolu, müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platforma olması diqqətə çatdırılmış, Azərbaycan xalqının tolerant mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə

tanıdılmasında xüsusi əhəmiyyəti qeyd olunmuşdur. Mədəni irsimizin tanıdılması, habelə digər mədəniyyətlərlə inteqrasiyanın Azərbaycanın dövlət siyasəti olduğu vurğulanaraq, bu məqsədlə dünyanın bir çox ölkələrindəki diplomatik nümayəndəliklərimizdə mədəniyyət təmsilçiliklərinin yaradıldığı bildirilmişdir. Dünya İqtisadi Forumunun iştirakçıları 2013-cü ildə Azərbaycanda keçiriləcək növbəti Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət edilmişdir.

İyunun 6-da Astana şəhərindəki Sülh və Sabitlik Sarayında Azərbaycan Mədəniyyəti Günlərinin açılışı olmuşdur. Açılış mərasimində TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Azərbaycanın Qazaxıstandakı səfiri Zakir Həşimov, Qazaxıstanın mədəniyyət nazirinin müavini Askar Bulimbaev, həmin ölkənin mədəniyyət və incəsənət xadimləri, diasporumuzun üzvləri, jurnalistlər iştirak etmişdir. Qazaxıstanın mədəniyyət nazirinin müavini Askar Bulimbaev çıxışında ölkələrimiz arasında əlaqələrin inkişafını, bütün sahələrdə, o cümlədən mədəni sahədə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd etmişdir.

Naziri müavini Sevda Məmmədəliyeva nitqində Ulu Öndər Heydər Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin səyləri nəticəsində ölkələrimiz arasında əlaqələrin indiki səviyyəyə yüksəldiyini vurğulayaraq, bu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən uğurla davam etdirildiyini söyləmişdir. Çıxışda Azərbaycan və Qazaxıstanın bütün beynəlxalq tədbirlərdə bir-birini dəstəkləməsinin iki ölkə arasında aparılan əməkdaşlığın yüksək səviyyəsinin göstəricisi kimi qiymətləndirilmişdir.

Daha sonra Azərbaycan incəsənət ustalarının iştirakı ilə böyük qala-konsert keçirilmiş, ifa olunan muğamlar, xalq və bəstəkar mahnıları, milli rəqslər sürəkli alqışlarla qarşılanmışdır.

“Azərbaycan: ənənələrin vəhdəti və müasirlik” adlı fotosərgi mərasim iştirakçılarında böyük maraq doğurmuşdur.

9 iyun tarixində Almatı şəhərindəki Cambul adına Qazaxıstan Dövlət Filarmoniyasında Azərbaycan Mədəniyyət Günlərinin rəsmi bağlanış mərasimi və qala-konsert keçirilmişdir.

3-9 iyun tarixində Paris şəhərində YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin qorunması haqqında 2003-cü il Konvensiyasının iştirakçı dövlətlərinin Baş Assambleyasının dördüncü sessiyası keçirilmişdir. Sessiyada ölkəmizi YUNESKO yanında Daimi Nümayəndə, Səfir Eleonora Hüseynova, YUNESKO üzrə Milli Komissiyanın nümayəndəsi Leyla Haciyeva, YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə eksperti, musiqişünas Sənubər Bağırova və Nazirlik nümayəndəsi təmsil etmişdir. Sessiyanın açılışında prezident, beş vitse-prezident və məruzəçidən ibarət iclas bürosu seçilmişdir. Ölkəmizin təmsil etdiyi ikinci seçki qrupunun üzvləri tərəfindən Azərbaycan Respublikasının namizədliyi irəli sürülmüşdür. Serbiya, Burkina Faso, Bolqarıstan, Macarıstan, Qazaxıstan, Özbəkistan və digər ölkələrin nümayəndələri Azərbaycanın namizədliyini yüksək qiymətləndirmiş və sessiyanın idarə edilməsində uğurlar arzulamışdır. Beləliklə, YUNESKO yanında Daimi Nümayəndə, Səfir E.Hüseynova yekdilliklə iki il müddətinə Baş Assambleyanın prezidenti seçilmişdir. Bununla yanaşı, Fransa, Çin, Burkina Faso, Honduras, Livan nümayəndələri vitse-prezident, Belçika nümayəndəsi isə məruzəçi seçilmişdir.

Qeyri-maddi mədəni irs konvensiyasının əsas məqsədi olan təhlükədə olan və təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs nümunələri ilə bağlı faylların YUNESKO-ya təqdim edilməsi qərara alınmışdır. Bununla yanaşı konvensiyanın 10 illik yubiley ili nəzərə alınaraq 2013-cü ildə ölkələr tərəfindən silsilə tədbirlərin həyata keçirilməsi təşkilat tərəfindən xahiş olunmuşdur.

7-8 iyun tarixində Minsk şəhərində MDB iştirakçı dövlətlərinin Turizm üzrə Şurasının növbəti iclası keçirilmişdir. İclasda MDB iştirakçı dövlətləri arasında turizm sahəsində əməkdaşlığın vəziyyəti və perspektivləri, Turizm Şurasının yeni statusu və Sazişi ətrafında müzakirələr aparılmışdır. İclasda Nazirlik nümayəndəsi iştirak etmişdir.

Astana şəhərinin 2012-ci il “Birliyin Mədəniyyət Paytaxtı” elan olunması münasibətilə 14-16 iyun tarixində Astanın Sülh və Həmrəylik Sarayında “Yeni Dünyada Avrasiya Mədəniyyəti” adlı Beynəlxalq Forum keçirilmişdir. Azərbaycan tərəfindən tədbirdə nazir Əbülfəs Qarayevin başçılıq etdiyi mədəniyyət və elm xadimlərindən ibarət nümayəndə heyəti iştirak etmişdir.

Nümayəndə heyətinin tərkibinə Azərbaycan Yazıçılar Birliyinin katibi, Xalq Yazıçısı Çingiz Abdullayev, Bakı Musiqi Akademiyasının rektoru, Xalq Artisti Fərhad Bədəlbəyli, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq Artisti Siyavuş Kərimi, Beynəlxalq Muğam Mərkəzinin direktoru, Xalq Artisti Murad Hüseynov, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq Rəssamı, akademik Ömər Eldarov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Akif Əlizadə, Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun direktoru, sənətşünaslıq doktoru Ertəgin Salamzadə, Azərbaycan Turizm İnstitutunun rektoru, professor Cəfər Cəfərov və b. daxil idi.

Forumun rəsmi qonaqlar sırasında Qırğızıstan Respublikasının Mədəniyyət və Turizm nazirinin müavini Nurmamatuuli Nurdaulet, Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHƏF) İdarə heyətinin sədri və Azərbaycan Respublikasının Rusiyadakı Fövqəladə və Səlahiyyətli səfiri Polad Bülbüloğlu, Rusiya Prezidentinin Beynəlxalq və mədəniyyət məsələləri üzrə Xüsusi nümayəndəsi Mixail Şvidkoy, MDB İcraiyyə Komitəsinin sədr müavini Toktasin Buzubayev, Qazaxıstanın Mədəniyyət naziri Darxan Mumbay və digərləri var idi.

15 iyun tarixində, forumun rəsmi açılış mərasimində nazir Əbülfəs Qarayev çıxış etmiş, Astana şəhərinin 2012-ci il “Birliyin Mədəniyyət Paytaxtı” seçilməsi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə və Qazaxıstan xalqına xüsusi təbrikini səsləndirmişdir. Nazir Əbülfəs Qarayev “Yeni Dünyada Avrasiya Mədəniyyəti” forumunun əhəmiyyətini yüksək qiymətləndirmiş, dünya ictimaiyyətinin müasir şəraitdə mədəniyyət sahəsində üzləşdiyi çağırışlara qarşı birgə mübarizəsini, fərqli mədəniyyətlərin və sivilizasiyaların dialoqunun təmin edilməsini və bu sahədə müştərək işin görülməsinə ehtiyac duyulduğunu iştirakçıların nəzərinə çatdırmışdır. Nazir Əbülfəs Qarayev öz çıxışında hazırkı forumun ölkələr arasında mədəniyyət və elm sahəsində qarşılıqlı münasibətlərin qorunmasında özünəməxsus yerinin olduğunu xüsusi vurğulamışdır.

Forumun üçüncü iş günü, 16 iyun tarixində Astananın “Şabit” sarayında Qazaxıstan Milli İncəsənət İnstitutun tələbələri ilə görüş keçirilmiş, həmin görüşdə nazir Ə.Qarayev, Qazaxıstanın Mədəniyyət və İnformasiya naziri Darxan Mimbay, səfir Polad Bülbüloğlu, M.Şvidkoy və digər elm və mədəniyyət xadimləri iştirak etmişdir. Görüşdə, gələcəkdə incəsənət sahəsi üzrə tələbə və mütəxəssis mübadiləsinin mümkünlüyü məsələləri müzakirə olunmuş və tələbələri maraqlandıran suallar cavablandırılmışdır. Həmin gün həmçinin, Qazaxıstanın Akademik Milli Kitabxanasında Azərbaycanın xalq yazıçısı Çingiz Abdullayev ilə Qazaxıstan yazıçıları arasında görüş keçirilmişdir.

3 avqust tarixində Qırğızıstanın Çolpon-Ata şəhərində Türkdilli Dövlətlərin Mədəniyyət Nazirlərinin görüşü təşkil edilmişdir.

Görüş Qırğızıstanın Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə 23 avqust tarixində Bişkekdə keçirilmiş Türkdilli Dövlətlərin İkinci Sammitinə hazırlıq məqsədi daşıyırdı.

Tədbirdə TÜRKSOY-un yenidən qeydiyyatı, müştərək telekanalın yaradılması, yazıçılar və kino xadimlərinin yeni regional alyanslarının qurulması, qarşıdan gələn beynəlxalq tədbirlərdə türkdilli dövlətlərin mədəniyyət xadimlərinin iştirakı və bu kimi müxtəlif təşəbbüslər müzakirə edilmişdir. Tədbirin sonunda müzakirə olunan məsələlərlə bağlı protokol imzalanmışdır.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) İkinci Zirvə Toplantısına hazırlıq məqsədilə keçirilmiş iclaslarda Nazirliyin nümayəndələri iştirak etmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) iclasında “Türk mədəniyyətinin dəstək fondu”nun təsis olunması və Astanada “Türkdilli Akademiyanın” təsis olunması müzakirə edilən əsas məsələlər olmuşdur. Yekunda hər iki məsələyə dair saziş imzalanmışdır.

27 avqust 2012-ci il tarixində Belarus Respublikasının Minsk şəhərində keçirilmiş Azərbaycan – Belarus Hökumətlərarası Komissiyasının 7-ci iclasında nazirin birinci müavini Vaqif Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Komissiyanın iclasında digər məsələlərlə yanaşı 2012-ci ildə Azərbaycan Respublikasının Belarus Respublikasında və 2013-cü ildə Belarus Respublikasının Azərbaycan Respublikasında Mədəniyyət Günlərinin

keçirilməsi, 2013-cü ildə Bakı şəhərində keçiriləcək "AİTF 2013" Beynəlxalq turizm sərgisində və 2013-cü ildə keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Belarus tərəfinin iştirakı məsələləri də müzakirə edilmişdir. İclas zamanı protokol layihəsinə daxil edilmiş təkliflər hər iki tərəfdən qəbul edilmişdir.

2012-ci ilin 2-4 sentyabr tarixində nazirin birinci müavini Vaqif Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti Türkmənistanın Aşqabad şəhərində keçirilmiş Azərbaycan-Türkmənistan Hökumətlərarası Komissiyanın III iclasında iştirak etmişdir.

Səfər çərçivəsində Türkmənistan mədəniyyət nazirinin müavini Şamuradov Atageldilə ikitərəfli görüş keçirilmişdir. Görüşdə Azərbaycanda mədəniyyət sahəsində görülən işlər haqda ətraflı məlumat verilmişdir. Türkmənistan tərəfi gələcək illərdə Azərbaycan Respublikasının Türkmənistanda və Türkmənistanın Azərbaycan Respublikasında mədəniyyət günlərinin keçirilməsini təklif etmiş və bu təklifin növbəti hökumətlərarası komissiyanın iclasının protokoluna salınması qərara alınmışdır. Həmçinin gələn il TÜRKSOY-un paytaxtı kimi Aşqabad şəhərinin seçilməsinə Azərbaycan tərəfinin dəstəyi xahiş olunmuşdur. Türkmənistan tərəfi 2012-ci ilin noyabr ayında Bakıda keçiriləcək Bülbül adına Vokalistlərin Beynəlxalq müsabiqəsinə və II Beynəlxalq Teatr Konfransına dəvət olunmuşdur.

Bununla yanaşı Türkmənistanın Dövlət Turizm Komitəsinin yeni təyin olunmuş sədri Taqanov Pəlvanla da ikitərəfli görüş keçirilmişdir. Görüş zamanı Komitənin sədri son illər Azərbaycanda turizm sahəsində görülən işləri yüksək qiymətləndirərək iki ölkə arasında əməkdaşlığın sıxlığının vacibliyini qeyd etmiş və yaxın gələcəkdə iki ölkə arasında turizm sahəsində əməkdaşlıq sazişinin imzalanması müzakirə olunmuşdur. Azərbaycanda inkişaf edən turizm infrastrukturu, Nazirliyin iştirak etdiyi beynəlxalq sərgilər və Turizm İnstitutu haqqında Dövlət Turizm Komitəsinin sədrinə geniş məlumat verilmişdir.

Azərbaycan Respublikasının Baş nazirin 1-ci müavini Yaqub Eyyubovun və Türkmənistanın Nazirlər Kabinetinin sədr müavini Toylıyev Sapardurdının həmsədirliyi ilə keçirilən Azərbaycan-Türkmənistan Hökumətlərarası Komissiyanın III iclasının protokolunda tərəfimizdən təqdim olunmuş bütün təkliflər öz əksini tapmış və qəbul olunmuşdur.

5-8 sentyabr tarixində Rusiya Federasiyasının Başqırdıstan Respublikasının Ufa şəhərində keçirilmiş TÜRKSOY üzv dövlətləri Mədəniyyət Nazirlərinin Daimi Şurasının 30-cu iclasında nazirin birinci müavini Vaqif Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. İclas zamanı 2012-ci ilin görkəmli Azərbaycan dramaturqu Mirzə Fətəli Axundzadə ili olduğu iştirakçıların diqqətinə çatdırılmışdır. 2013-cü ildə Türkiyənin Eskişehir şəhəri Türk dünyasının paytaxtı elan edilmişdir.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Vaqif Əliyev TÜRKSOY-un 20 illiyinin qeyd olunması təkliflərini dəstəklədiyini, bu tədbirlərin geniş miqyasda keçirilməsini və beynəlxalq ictimaiyyətin TÜRKSOY-un işi barəsində məlumatlandırılmasını məqsədəuyğun hesab edildiyini bildirərək Azərbaycanın ən böyük problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nəticəsində bir milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

İclasda TÜRKSOY üzv dövlətləri Mədəniyyət Nazirlərinin Daimi Şurası TÜRKSOY-un növbəti müddətə müvəqqəti koordinatoru kimi Qırğız Respublikasının mədəniyyət və turizm nazirini seçmiş və beləliklə koordinatorluq Türkiyədən Qırğızıstana keçmişdir. Həmçinin TÜRKSOY üzv dövlətləri Mədəniyyət Nazirlərinin Daimi Şurasının 31-ci iclasının İssıkkul Forumu zamanı Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilməsi qərara alınmışdır. İclasın sonunda yekun sənədlər imzalanmış, yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir.

Səfər çərçivəsində nazirin birinci müavini Vaqif Əliyev 6 sentyabr tarixində Başqırdıstan Dövlət Pedaqoji Universitetində TÜRKSOY kafedrasının və "Tuğanlıq" - türkdilli ölkələrin teatrlarının V Beynəlxalq festivalının açılışında iştirak etmişdir. Ölkəmizi Festivalda Gəncə Dövlət Teatrı təmsil etmişdir.

11-13 sentyabr tarixində Astana şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın

növbəti 9-cu iclasında hər İki ölkədə keçirilən turizm sərgilərində iştirak, o cümlədən 2013-cü ildə Bakı şəhərində keçiriləcək "AİTF" Beynəlxalq turizm sərgisində iştirak imkanları müzakirə edilmişdir. Bununla yanaşı, 2013-cü ildə keçirilməsi nəzərdə tutulan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilə bağlı məsələlər də müzakirə olunmuşdur. Tədbirdə Nazirlik nümayəndəsinin iştirakı təmin edilmişdir.

26 sentyabr tarixində "Qafqaz və Mərkəzi Asiya- Qlobal iqtisadi çağırışlar şəraitində davamlı inkişafın təşviqi" mövzusunda keçirilmiş Nazirlər Konfransında iştirak üçün nazir Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti Vyanaya səfər etmişdir. İclas Avstriyanın Mərkəzi Asiya və Qafqaz regionu ilə əməkdaşlığı, təcrübə mübadiləsi, birgə layihələr və s. bu kimi məsələlərə həsr olunmuşdur. Tədbir çərçivəsində keçirilən turizm sessiyasında Azərbaycanda turizm sahəsində həyata keçirilən tədbirlər və təşəbbüslər, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin bu sahəyə olan xüsusi diqqəti və qayğısının uğurlu nəticələri iclas iştirakçılarının diqqətinə çatdırılmışdır. Müstəqillik dövründə ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, Azərbaycana çoxsaylı turist səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, normativ – hüquqi aktların qəbulu, turizm sahəsində kiçik və orta sahibkarlığın inkişafı, müasir turizm infrastrukturunun yaradılması və ixtisaslı kadrların hazırlanması sahəsində həyata keçirilmiş işlər barədə məlumat verilmişdir.

Ölkə rəhbərliyinin turizmə göstərdiyi xüsusi diqqətin başqa bir məntiqi nəticəsi kimi 2011-ci ilin Azərbaycanda Turizm İlinin elan edilməsi çərçivəsində həyata keçirilmiş tədbirlər, son 5 il ərzində Azərbaycanın London, Paris, Nyu-York, Moskva, Berlin, Pekin, Milan, Madrid, Dehli, Vyana, Mumbay, İstanbul, Tokio, Əl-Küveyt, Dubay, Kiyev, Tbilisi, Bəhreyn, Daşkənd və digər şəhərlərdə keçirilən beynəlxalq turizm sərgilərində iştirakı qonaqların diqqətinə çatdırılmışdır.

Səfər çərçivəsində Avstriyanın İqtisadiyyat, Ailə və Gənclər üzrə Federal Naziri Reinhold Miterlenerlə görüş keçirilmişdir. Görüşdə ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə edilmişdir. Qeyd olunmuşdur ki, hazırda Avstriya ilə Azərbaycan arasında turizm sahəsində əlaqələrin inkişaf etdirilməsi üçün böyük imkanlar mövcuddur və Avstriyanın bir çox şirkətləri Azərbaycanın turizm infrastrukturunun qurulmasında yaxından iştirak edir. Qusar rayonunda "Şahdağ" Qış-Yay Turizm Kompleksinin tikilməsində Avstriya şirkətlərinin iştirakı xüsusilə vurğulanmışdır. Azərbaycan Turizm İnstitutu və Avstriyanın İMC Krems Tətbiqi Elmlər Universiteti arasında turizm və asudə vaxt menecmenti üzrə bakalavr proqramına dair Əməkdaşlıq Sazişinin imzalandığını və hazırda bu istiqamətdə əməkdaşlığın inkişaf etdirildiyi Avstriyalı nazirin diqqətinə çatdırılmışdır. Görüşdə turizm sahəsində əlaqələrin inkişafı üçün işçi qrupun yaradılması və əməkdaşlıq sazişinin imzalanması barədə razılıq əldə olunmuşdur.

26 sentyabr tarixində Brüssel şəhərində Avropa Komissiyası tərəfindən Şərq Tərəfdaşlığının "İnsanlararası əlaqələr" adlı 4-cü Platforması çərçivəsində keçirilmiş ekspertlərin görüşündə Nazirlik təmsil olunmuşdur.

Avropa Komissiyasının Təhsil və Mədəniyyət Baş Direktorluğunun mədəniyyət və media şöbəsinin direktoru X.Trussardın sədrliyi ilə keçən müzakirələrdə əsas diqqət 4-cü platformanın 2013-cü ilin birinci yarısı üçün iş proqramında nəzərdə tutulmuş mədəniyyət məsələləri üzrə yüksək səviyyəli görüşün təşkili imkanlarının nəzərdən keçirilməsi və bu görüşə hazırlıqla bağlı fikir mübadiləsinin aparılmasına yönəldilmişdir. Görüşdə sözügedən tədbirin konsepsiyası və strukturunun əsas elementlərinin müəyyən edilməsi və razılaşdırılması, eyni zamanda ictimai-iqtisadi inkişaf və siyası yeniliklər dövründə mədəniyyətin rolunun geniş təşviqi imkanlarının araşdırılması, müxtəlif dövlət qurumları və ictimai institutlar arasında mədəniyyət sahəsində əməkdaşlığın möhkəmləndirilməsi, mədəni və yaradıcı sektorlarda dialoq, mədəniyyət sahəsində islahatlar, tərəfdaş ölkələrdə mədəniyyət sahəsində islahatlara yardımçı olmaq üçün Aİ-nin təklif etdiyi vasitələr, Tvinninq və Taiex proqramlarının üstünlükləri və digər məsələlər müzakirə olunmuşdur.

4-7 oktyabr tarixində Amerika Birləşmiş Ştatlarının Hyuston şəhərində keçirilmiş türkdilli dövlətlərin "İpək yolu" beynəlxalq festivalında Nazirlik təmsil olunmuşdur. Türkdilli dövlətlərin mədəni vəhdətini və eyni zamanda mədəni müxtəlifliyini əks etdirən festivalda Azərbaycan,

Türkiyə, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Özbəkistandan olan incəsənət xadimləri və sənətkarlar milli musiqi, rəqs, əl sənətləri və milli mətbəx nümunələrini sərgilənmişdir.

Bu çərçivədə, oktyabrın 5-də TÜRKSOY-un Baş katibi Düsen Kaseinovla iştirakçı dövlətlərin qrup rəhbərləri arasında görüş keçirilmişdir. Görüş zamanı sözügedən tədbirin əhəmiyyəti və gələcək perspektivləri müzakirə olundu və ölkə nümayəndələrinə TÜRKSOY-un fəaliyyəti haqqında materialların toplanıldığı portativ yaddaş kartı (USB) təqdim olunmuşdur.

Festivalın rəsmi açılış mərasimi 6 oktyabr tarixində baş tutmuşdur. Mərasimdə Hyuston və Stafford bələdiyyə başçıları, iştirakçı dövlətlərin Amerika Birləşmiş Ştatlarındakı səfirləri və tədbirin təşkilinə maliyyə dəstəyi göstərmiş qurumların nümayəndələri və iş adamları iştirak etmişdir.

Qarşılıqlı əməkdaşlıq məsələlərinin müzakirə olunması məqsədilə 17-18 oktyabr tarixində nazir Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti Latviya Respublikasına rəsmi səfər etmişdir. Səfər çərçivəsində Latviyanın mədəniyyət naziri Žaneta Jaunzeme-Grende ilə görüş keçirilmişdir. Görüşdə Latviya Mədəniyyət Nazirliyi dövlət katibinin müavini cənab Uldis Lielpēters, Azərbaycan Respublikasının Latviyadakı Fövqəladə və Səlahiyyətli Səfiri Elman Zeynalov və digər rəsmilər iştirak etmişlər. Aparılmış danışıqlar zamanı Azərbaycan ilə Latviya arasında əməkdaşlıq müzakirə olunmuş, münasibətlərin hazırkı vəziyyəti yüksək qiymətləndirilmiş, ikitərəfli mədəni təmasların artırılmasının və əlaqələrin böyük potensialından geniş istifadə olunmasının zəruriliyi vurğulanmışdır. Görüş çərçivəsində “Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Latviya Respublikası Mədəniyyət Nazirliyi arasında 2012-2014-cü illər üzrə Mədəniyyət sahəsində Əməkdaşlıq Proqramı” imzalanmışdır. Səfər çərçivəsində Latviyanın iqtisadiyyat naziri Daniels Pavļuts ilə işgüzar görüş və Riqa Burs İncəsənət muzeyi ilə tanışlıq olmuşdur.

18-21 oktyabr tarixində nazir Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti Litva Respublikasına rəsmi səfər etmişdir. Səfər çərçivəsində Litvanın mədəniyyət naziri Arunas Gelünas ilə görüş keçirilmişdir. Geniş tərkibli görüşdə Litva mədəniyyət nazirinin müavini Deividas Staponkus, Azərbaycan Respublikasının Litva Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Həsən Məmmədov və digər səlahiyyətli şəxslər iştirak etmişlər. Görüş zamanı Litva ilə Azərbaycan arasında mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə olunmuş, mövcud dostluq münasibətləri yüksək qiymətləndirilmişdir. Səfər çərçivəsində nümayəndə heyəti həmçinin “Böyük Litva Knyazları Sarayı” Milli Muzeyi və Milli İncəsənət Qalereyasında incəsənət nümunələri ilə tanış olmuşdur.

21-23 oktyabr tarixdə nazir Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasında rəsmi səfərdə olmuşdur. Oktyabrın 22-də Rusiya Federasiyasının mədəniyyət nazirinin müavini Alla Yuriyevna ilə görüş keçirilmişdir. Görüş zamanı "2012-2013-cü illər üçün mədəniyyət sahəsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq proqramı" imzalanmışdır. Danışıqlar zamanı ölkələrimiz arasında qarşılıqlı mədəni əlaqələrin indiki vəziyyəti və bütün istiqamətlər üzrə - mədəni mübadilə, müxtəlif birgə tədbirlərin keçirilməsi və s. sahəsində perspektiv əməkdaşlıq planları haqqında geniş fikir mübadiləsi aparılmış, UNESCO, TÜRKSOY, DHƏF və s. beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli və çoxtərəfli məsələlərə toxunulmuşdur. Səfər çərçivəsində eyni zamanda Rusiyanın mədəniyyət naziri Vladimir Medinski ilə görüş keçirilmiş, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

20-25 oktyabr tarixində Nazirlik nümayəndəsinin Parisə səfəri çərçivəsində YUNESKO yanında Daimi Nümayəndəlikdə təşkilat ilə ölkəmiz arasında əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılmışdır. Səfər zamanı 3-7 dekabr tarixində Paris şəhərində keçiriləcək YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin növbəti iclasında “Azərbaycan Tar sənətinin” YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilməsi, 2013-cü ilin noyabr ayında təşkilatın növbəti Hökumətlərarası Komitəsinin iclasının və Konvensiyanın yubiley tədbirləri ilə bağlı məsələlər müzakirə edilmişdir. Bununla yanaşı 2013-cü ildə Bakıda Keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaş beynəlxalq qurumları olan YUNESKO və BMT-nin Sivilizasiyalar

alyansının nümayəndələri ilə də görüşlər keçirilmişdir. BMTSA-nin strateji məsələlər üzrə müşaviri Jan K. Kristov Basla keçirilən görüşdə Forum çərçivəsində “Mədəniyyətlərarası innovasiyalar” üzrə qaliblərin mükafatlandırılması, "Mədəni müxtəliflik üçün bir şey edək" qlobal kompaniyasına həsr edilən mərasim, "Korporativ sektorun mədəniyyətlərarası dialoqun təbliğində rolu", mövcud proqram əsasında ″Yeni liderlər" şəbəkəsinin təsis konfransının keçirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

YUNESKO-nun nümayəndəsi Katerina Stenu ilə keçirilən görüş zamanı isə təşkilatın Şərq-Qərb Nazirlər Konfransına tərəfdaşlıq etməsi və mədəniyyətlərarası bacarıqlar və qlobal vətəndaşlıq mövzusunda plenar sessiyanın keçirilməsi, “sülhü təsvir edək” sərgisinin və “sülhə doğru” müsabiqəsi qaliblərinin mükafatlandırma mərasiminin Bakıda keçirilməsi ilə bağlı məsələlər müzakirə edilmişdir.

4-9 noyabr tarixində nazir Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti Böyük Britaniyanın Mədəniyyət, Media və İdman üzrə Dövlət Departamenti tərəfindən keçirilmiş Ümumdünya Səyahət Sərgisi və BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) nazirlər sammitində iştirak etmək məqsədilə Böyük Britaniyaya səfər etmişdir. 6 noyabr tarixində nazir Əbülfəs Qarayev Londonda keçirilən Dünya Səyahət Sərgisi çərçivəsində Ümumdünya Turizm Təşkilatının Nazirlər Sammitində iştirak etmişdir. Tədbir zamanı nazir Əbülfəs Qarayev “Açıq sərhədlər və aşıq səmalar” adlı sessiyada çıxış etmiş, turizm sahəsində Azərbaycanda görülmüş işlər, ölkə rəhbərliyinin bu istiqamətdə göstərdiyi qayğı və BMÜTT ilə əməkdaşlıqda əldə olunmuş nailiyyətlər barədə qonaqlara və sammit iştirakçılarına ətraflı məlumat vermişdir. Eyni zamanda tədbir çərçivəsində nüfuzlu “Euronews” və “Eurosport” telekanallarına Azərbaycanın turizm potensialı haqqında geniş müsahibələr verilmişdir.

7 noyabr tarixində Böyük Britaniya Parlamentinin Portkullis (Portcoullis) binasında mədəniyyət və kommunikasiya naziri Ed Veyzi ilə görüş keçirilmişdir. Görüş çərçivəsində Ed Veyzi Azərbaycanda Rabitə və Kommunikasiya sərgisində olduğu zaman iqtisadiyyat və mədəniyyət sahəsində görülən işlərdən və yeniliklərdən valeh olduğunu bildirmişdir. Nazir Əbülfəs Qarayev verilən yüksək qiymətə görə minnətdarlığını bildirmiş və dövlət proqramı üzrə Azərbaycanın yeni turizm istiqaməti kimi dünya və xüsusilə Avropa miqyasında təşviq olunmasını qeyd etmişdir. Ölkədə mədəniyyət sahəsində görülən işlər haqqında danışaraq, teatrlarımızda səhnələşdirilən tamaşalar və çəkilən yeni filmlər haqda məlumat vermişdir. Bundan əlavə, nazir Əbülfəs Qarayev bu il Qəbələ şəhərində keçirilən musiqi festivalında London orkestrinin iştirak etdiyini xatırlatmış, ölkəmizdə keçirilən digər beynəlxalq tədbirlər və musiqi festivalları haqqında, gələn il açılacaq dünyanın ən böyük xalça muzeyinin ölkəmizdə fəaliyyət göstərəcəyi barədə məlumat vermişdir. Görüşdə, eyni zamanda qarşılıqlı maraq doğuran layihələr və əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. Daha sonra nazir Əbülfəs Qarayev öz həmkarını 2013-cü ildə keçiriləcək II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməyə dəvət etmişdir.

Nazirliyin və Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyasının təşkilatçılığı ilə 22 noyabr tarixində Beynəlxalq Muğam Mərkəzində Azərbaycan-YUNESKO əlaqələrinə həsr olunmuş “Azərbaycan-YUNESKO mədəni əməkdaşlıq: 20 il” mərasimi keçirilmişdir. Mərasimdə YUNESKO-nun Milli Komissiyalar və Vətəndaş Cəmiyyəti şöbəsinin direktoru, eyni zamanda YUNESKO-nun Mərkəzi Asiya Beynəlxalq Tədqiqatlar İnstitutunun direktoru, YUNESKO Moskva Ofisinin nümayəndəsi, YUNESKO üzrə Gürcüstan, Özbəkistan, Belarus və Moldovanın Milli Komissiyalarının nümayəndələri iştirak etmişlər. Mərasim çərçivəsində Azərbaycanın mədəni irsini əks etdirən sərgi, rəsmi açılış və konsert təşkil olunmuşdur.

Albaniya Respublikasının müstəqilliyinin 100 illiyi münasibətilə keçirilən rəsmi dövlət tədbirlərində iştirak etmək məqsədilə nazir Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 28-dən 30-dək Albaniya Respublikasının paytaxtı Tirana şəhərində səfərdə olmuşdur. Noyabrın 28-də nazir Əbülfəs Qarayev Albaniya Respublikasının Prezidenti cənab Bucar Nişaninin və Baş naziri cənab Sali Berişanın iştirak etdiyi Yubiley Mərasimində, Skandenberg meydanında keçirilən paradda, Rinia Parkında Müstəqillik Abidəsinin rəsmi açılış mərasimində,

Konqres Sarayında təşkil olunan "Milli Səyahət" adlı konsert proqramında və Albaniyanın Dövlət Başçısı adından verilən rəsmi qəbulda iştirak etmişdir. Səfər çərçivəsində Azərbaycanla Albaniya arasında ikitərəfli əlaqələrin müzakirəsi məqsədilə Albaniya Respublikasının Baş naziri Sali Berişa və Mədəniyyət, Turizm, Gənclər və İdman naziri Aldo Bumçi ilə rəsmi görüşlər təşkil edilmişdir. Nazir Aldo Bumçi ilə görüşdə son on ildə əldə olunmuş müvəffəqiyyətlər, iki ölkənin muzeyləri, kitabxanaları, teatrları arasında sıx əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. Görüş çərçivəsində “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Albaniya Respublikasının Turizm, Mədəniyyət, Gənclər və İdman Nazirliyi arasında mədəniyyət və turizm sahələrində əməkdaşlıq haqqında Saziş” imzalanmışdır. Danışıqlar zamanı A.Bumçini 2013-cü ildə Bakı şəhərində keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət edilmişdir.

Baş nazir Sali Berişayla görüşdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Albaniya Respublikasının 100 illik Yubileyi ilə bağlı təbrikləri çatdırılmışdır. Baş nazir S.Berişa Prezident İlham Əliyevin onun və xalqının dostu olduğunu vurğulamış və Albaniyanın bu tarixi günündə Azərbaycanın yüksək səviyyədə təmsil olunmasına dair minnətdarlığını bildirmişdir.

26 noyabr -2 dekabr tarixlərində Azərbaycan respublikasında Küveyt Dövlətinin Mədəniyyət Günlərinin keçirilməsi ilə əlaqədar Küveyt Dövlətinin Mədəniyyət, incəsənət və ədəbiyyat Milli Şurasının Baş katibi Əli Əl-Yuhanın rəhbərliyi ilə nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində rəsmi nümayəndə heyətinin qarşılanması, müşayiəti və digər təşkilati işlərin görülməsi təmin edilmişdir.

4 dekabr tarixində Belçikanın paytaxtı Brüssel şəhərində Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində “İnsanlar arasında əlaqələr” adlı 4-cü Platformanın 8-ci plenar iclasında Nazirliyin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsi təmsil olunmuşdur.

Tədbirdə Şərq Tərəfdaşlığı (ŞT) ölkələri (Azərbaycan, Belarus, Ermənistan, Moldova, Ukrayna), Aİ-na üzv ölkələr, ASvropa Komissiyası, Avropa Şurasının və Avropa Parlamentinin təmsilçiləri, Şərq Tərəfdaşlığı  Vətəndaş Cəmiyyəti Forumu, Avropa Komissiyası və Avropa Treninq Fondu (European Training Foundation) nümayəndələri iştirak edirdilər. Azərbaycan tərəfindən iclasda həmçinin AR Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Gənclər Fondu, Belçikadakı Səfirliyimizin nümayəndələri iştirak etmişlər.

3-7 dekabr tarixində Fransanın Paris şəhərində YUNESKO-nunQeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 7-ci sessiyasıkeçirilmşdir. İclasda Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyevanın rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir.  Komitənin bu ilki sessiyasında 2003-cü il Konvensiyasının gələcəyi, Komitənin fəaliyyəti ilə bağlı məsələlərlə yanaşı, digər üzv dövlətlər tərəfindən təqdim edilən nominasiyalar da müzakirə edilmişdir.

Komitənin qərarına əsasən Azərbaycan tar ifaçılıq sənəti YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir.

Müvafiq ənənəyə uyğun olaraq, sessiyanın sonunda Komitəyə növbəti ev sahibliyi edəcək ölkənin və sessiyanın sədrinin təyin olunması müzakirə edilmişdir. Belə ki, aparılmış müzakirələr nəticəsində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasının və Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiyanın 10 illik yubileyinin 2013-cü ilin 2-8 dekabr tarixində Bakı şəhərində keçirilməsi ilə bağlı qərar qəbul olunmuşdur.

Parisdə 8 dekabr tarixində 2013-cü ilin 29 may – 01 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi ilə Bakıda keçiriləcək 2-ci Ümumdünya Mədəniyyətlərarası dialoq Forumunun beynəlxalq işçi qrupunun iclası keçirilmişdir. Azərbaycanın sədrliyi ilə keçən iclasda BMT-nin sivilizasiyalar alyansı, YUNESKO, Dünya Turizm Təşkilatı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub mərkəzi, İSESKO-nun nümayəndələri, həmçinin mədəniyyətlərarası dialoq məsələləri üzrə beynəlxalq ekspertlər iştirak etmişdir. Görüş zamanı Forumun konsepsiyası, proqramı, iştirakçılar, məruzəçilərlə bağlı müzakirələr aparıldı. Forumun proqramı və konsepsiyasının mədəniyyətlərarası münasibətlər sahəsində müasir dünyada gedən proseslərə uyğunlaşdırılması

və bu istiqamətdə maraqlı mövzularda müzakirələrin aparılması qeyd edilmişdir. 2013-cü ilin 1-ci rübündə işçi qrupun növbəti iclasının keçirilməsi qərara alınmışdır.

13 dekabr tarixində Türkiyənin Ankara şəhərində Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyi və Bilkent Universiteti tərəfindən "Heydər Əliyev dühasında mədəniyyət və incəsənət" adlı konfransda iştirak etmək məqsədilə Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Türkiyəyə səfər etmişdir.

## İNVESTİSİYA VƏ TEXNİKİ PROQRAMLAR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06 fevral 2012-ci il tarixli 24s nömrəli, 01 may 2012-ci il tarixli 111s nömrəli, 23 may 2012-ci il tarixli 132s nömrəli, 14 avqust 2012-ci il tarixli 217s nömrəli və 11 dekabr 2012-ci il tarixli 327s nömrəli sərəncamları ilə mədəniyyət və turizm obyektlərinin tikintisi, təmiri və yenidənqurulması üçün Mədəniyyət və Turizm Nazirliyinə 45 obyekt üzrə 274738,20 min manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Yerinə yetirilmiş təmir-tikinti işləri üçün ayrılmış vəsait 247573,98 min manat, yaxud 90,1% təşkil etmişdir, o cümlədən "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması layihəsi (nəzərdə tutulan vəsait 200000,0 min manat) üzrə maliyyələşmə 190350,59 min manat, yaxud 95,2% təşkil edir.

Mədəniyyət və turizm obyektlərinin tikintisi, təmir-bərpası və yenidənqurulması ilə əlaqədar aşağıdakıları qeyd etmək olar:

- Azərbaycan Dövlət İncəsənət Muzeyində keçid korpusunun tikintisi başa çatmaq üzrədir.
- Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində tikinti işləri davam etdirilir.
- Bakı şəhərində "Nizami" kinoteatrının binasında aparılan əlavə təmir-yenidənqurma işləri başa çatmışdır.
- "Şahdağ" Qış-Yay Turizm Kompleksinin 1.1 mərhələsi üzrə tikinti-quraşdırma işləri başa çatdırılmış və 2012-ci ilin sonunda istifadəyə verilmişdir. Hazırda Kompleksin növbəti 1.1.2 və 1.2 mərhələlərinin tikintisinə başlanmış, xarici infrastrukturun yaradılması işləri isə başa çatmaq üzrədir.
- Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təmir və yenidən qurma işləri üçün layihə-smeta sənədləri hazırlanmışdır.
- Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binasında təmir və bərpa işləri başa çatmaq üzrədir.
- Qobustan Dövlət Tarix-Bədii Qoruğunda muzey və inzibati binanın tikintisi üzrə əlavə işlər başa çatdırılmışdır.
- Şəki şəhərində Aşağı Karvansarayın bərpa işləri başa çatdırılmışdır.
- Gəncə şəhərində "Şah Abbas" Karvansarayının bərpa işləri davam etdirilir.
- Ağdam rayonu, Xındırıstan kənd Uşaq Musiqi Məktəbinin tikintisi davam etdirilir.
- Bakı şəhəri, Səbail rayonu, Bayıl qəsəbəsində C.Hacıyev adına 3 saylı uşaq musiqi məktəbinin əsaslı təmir işləri başa çatmaq üzrədir.
- Qəbələ rayon Mədəniyyət Evinin tikintisi davam etdirilir.
- Masallı rayon Mədəniyyət Evinin əsaslı təmir işləri başa çatdırılmışdır.

- Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrı binasında yenidən qurulma işləri davam etdirilir.
- Tərtər şəhərində Mədəniyyət evinin əsaslı təmir işləri davam etdirilir.
- Bərdə şəhərində qəza vəziyyətində olan 1 saylı Uşaq İncəsənət Məktəbi üçün yeni binanın tikintisi davam etdirilir.
- Binəqədi rayonu, Rəsulzadə qəsəbəsində 11 saylı musiqi məktəbi üçün əlavə sinif otaqlarının tikintisi başa çatdırılmışdır.
- Nərimanov rayonunda 35 saylı musiqi məktəbinin əsaslı təmir işləri başa çatdırılmışdır.
- Qaradağ rayonu, Lökbatan qəsəbəsində 9 saylı musiqi məktəbi üçün yeni binanın tikintisi davam etdirilir.
- Xəzər rayonu, Buzovna qəsəbəsi 4 saylı Uşaq İncəsənət məktəbinin akt zalının tikintisi başa çatmışdır.
- Sabunçu rayonu, Nardaran qəsəbəsindəki mədəniyyət evində muğam musiqi evi yaradılmaqla əsaslı təmir işləri davam etdirilir.
- Binəqədi rayonu, F.Əmirov adına 6 saylı Uşaq Musiqi Məktəbi binasında yenidənqurma və əsaslı təmir işləri davam etdirilir.
- Xəzər rayonu, Buzovna qəsəbəsində Mədəniyyət Evi binasının əsaslı təmir işləri davam etdirilir.
- Xətai rayonu, Əhmədli qəsəbəsində kitabxana binasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmışdır.
- Qaradağ rayonu, Qobustan Mədəniyyət Mərkəzi binasının əsaslı təmir işləri davam etdirilir.
- Qaradağ rayonu, Müşviqabad qəsəbəsində Mədəniyyət Evinin əsaslı təmir işləri davam etdirilir.
- Qaradağ rayonu, Sahil qəsəbəsində 28 saylı Musiqi Məktəbinin əsaslı təmir işləri başa çatdırılmışdır.
- Qaradağ rayonu, Sahil qəsəbə 5 saylı Uşaq İncəsənət Məktəbinin əsaslı təmir işləri başa çatdırılmışdır.
- Nərimanov rayonu, 23 saylı Musiqi Məktəbinin əsaslı təmir işləri davam etdirilir.
- Nəsimi rayonu, 20 saylı Uşaq Musiqi Məktəbinin əsaslı təmiri və yenidən qurulması işləri davam etdirilir.
- Səbail rayonu, Bibiheybət qəsəbə Mədəniyyət Evi və kitabxananın əsaslı təmir işləri davam etdirilir.
- Şəki şəhəri, Şəkixanovların evinin bərpası işləri aparılır.
- Tovuz rayonunda Mədəniyyət Evinin yenidən qurulması üçün layihə-smeta sənədləri hazırlanır.
- Bərdə şəhərində "Allah-Allah" türbəsinin konservasiyası işləri davam etdirilir və s.

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2011-ci il tarixli 1881 №-li Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsait hesabına Bakı şəhərində Səməd Vurğunun ev muzeyi, Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2012-ci il tarixli 2379 №-li Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsait hesabına isə Zərdab rayonunda Həsən bəy Zərdabi muzeyi əsaslı təmir olunmuşdur.

"Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri" maddəsi ilə 2012-ci ilə 2.000,00 min manat vəsait ayrılmışdır. Həmin maddə ilə maliyyələşdirilən mədəniyyət və turizm obyektlərinin təmir-bərpası ilə əlaqədar aşağıdakıları qeyd etmək olar:

- R. Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının binasında nəzərdə tutulan əsaslı təmir işləri başa çatdırılmışdır.
- Quba rayonunun Xınalıq kəndində yaşayış evlərinin bərpası başa çatdırılmışdır.
- Azərbaycan Dövlət Kukla Teatrı binasının fasadı təmir olunmuşdur.

- Şamaxı şəhərində M.Ə.Sabirin məzarüstü məqbərəsi təmir olunmuş və ətraf ərazidə abadlıq işləri görülmüşdür.
- Hökumət Evində Mədəniyyət və Turizm Nazirliyinə aid olan otaqlar təmir olunmuşdur.
- "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunda bərpa işləri davam etdirilir.
- Quba şəhərindəki B.Səfəroğlu adına rayon Mədəniyyət evi təmir olunmuşdur.
- Sumqayıt şəhəri, S. Rüstəmov adına 3 saylı Uşaq İncəsənət Məktəbinin binası təmir olunmuşdur.
- Göygöl rayonu, Yeni Zod kənd Mədəniyyət evi təmir olunmuşdur.
- Quba rayonu, Xınalıq kəndində "Əbu-Müslüm" məscidi bərpa olunur.
- Qazax rayonundakı memarlıq abidəsi olan "Sınıq körpü"nün ("Qırmızı körpü", XII əsr) ətraf ərazisində elmi-arxeoloji tədqiqat işləri aparılmışdır.
- Lənkəran şəhər tarix-diyarşünaslıq muzeyinin əsaslı təmir işləri üzrə layihə-smeta sənədlərinin hazırlanması başa çatmışdır.
- Alban abidələrində elmi-tədqiqat işlərinin aparılması və ayrı-ayrı elementlərdə möhkəmləndirmə işləri üzrə layihə-smeta sənədlərinin hazırlanması davam etdirilir.
- Qəbələ rayonu, Nic kəndində Göyün məbədinin bərpası və etnoqrafiya muzeyinin yaradılması üçün layihə-smeta sənədləri hazırlanır və s.

2012-ci ildə gələcək illər üzrə dövlət büdcəsində dövlət investisiya xərclərinin vəsaiti hesabına tikintisi, təmiri və yenidənqurulması nəzərdə tutulmuş obyektlərin siyahısının layihəsi hazırlanmış, Maliyyə və İqtisadi İnkişaf nazirliklərinə və Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Tikilən Obyektlərin Birləşmiş Müdiriyyəti və "Şahdağ" Qış-Yay Turizm Kompleksinin Müdiriyyəti ilə birgə obyektlərdə podratçılar tərəfindən görülən işlərin texniki nəzarəti və maliyyələşdirilməsi, burada aparılan təmir-tikinti, bərpa-konservasiya, layihələndirmə işlərinin idarə olunması təşkil edilmişdir.

# MALİYYƏ VƏ İQTİSADİYYAT

Hesabat dövründə Mədəniyyət və Turizm Nazirliyinə 2012-ci ilə ayrılan büdcə vəsaitinin təşkilatlar və müəssisələr arasında bölgüsünün təhlili aparılmışdır.

“Mərkəzi Aparat”, “Mədəniyyət”, “Turizm” və “Təhsil” bölmələri və “Milli Kulinariya Mərkəzi” üzrə ştat cədvəlləri, xərclər smetası hazırlanmışdır.

Teatr-tamaşa müəssisələrinin əsas proqnoz göstəricilərinin və büdcədən ayrılan vəsaitinin bölgüsü və ştat cədvəlləri hazırlanmış, təsdiq olunmuş və yerlərə çatdırılmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kitabxanaların, klub müəssisələrinin, uşaq musiqi məktəblərinin və digər statistik hesabatların 2011-ci il üzrə toplu (yekun) hesabatları, Mərkəzi Aparat üzrə 4-əmək (yekun) işçilərin sayı və əmək haqqı fondu hesabatı, rüblər üzrə 5 istehlak (elektrik və istilik enerjisi, təbii qaz və rabitə xidmətləri), 11 yanacaq nömrəli hesabatları qəbul edilərək toplusu hazırlanmış və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim olunmuşdur.

2-əsaslı tikinti (təcili) №-li hesabatı tərtib edilərək müvafiq orqanlara göndərilmişdir.

Nazirliyin müvafiq əmrlərinə əsasən açılan mərkəzləşdirilmiş xərclərin təhlili aparılmışdır.

Ölkədə və xaricdə keçirilən hökumət və yubiley tədbirləri, mədəniyyət günləri, xarici ezamiyyələr, müsabiqələr üzrə xərclər smetaları müvafiq əmrlərə əsasən hazırlanmışdır.

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 yanvar 2011-ci il tarixli, 20s saylı Sərəncamının icrası ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin o cümlədən, “Mərkəzi Aparat”, “Mədəniyyət”, “Turizm” və “Təhsil” bölmələrinin xərc maddələri nəzərə alınmaqla mərkəzləşdirilmiş xərclərdən maliyyələşən müəssisə və təşkilatlar üzrə 2012-ci il və sonrakı 3 il üzrə büdcə və büdcədənkənar layihələri hazırlanmış, son təhlili aparılmış, ona uyğun hazırlanmış proqramlar, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Kapital Qoyuluşu üzrə müəyyən olunmuş hesabatlar mütəmadi olaraq hər ay Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və yerli statistika idarələrinə təqdim olunmuşdur.

Mədəniyyət və turizm sahəsində hazırlanan proqramlara dair təkliflərin və bu proqramların maliyyə təminatı ilə bağlı işlər görülmüşdür.

«Mədəniyyət» və «Turizm» bölmələrində istehsalat zəruriyyəti ilə bağlı cari ilə təsdiq olunmuş büdcə vəsaiti daxilində maddələr arasında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılığı əsasında dəyişikliklər aparılmışdır.

Rüblər üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların, teatr-konsert, sirk, təsərrüfat hesablı müəssisələrin balanslarındakı proqnoz hissəsi yoxlanılmış və təhlil edilmişdir.

2012-ci il ərzində rüblər üzrə “Mərkəzi Aparat”ın, “Mədəniyyət”, “Turizm” və “Təhsil” bölmələrində dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşən müəssisələrin və təsərrüfat təşkilatlarının balansları qəbul edilib və icmalı hazırlanaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və yerli statistika idarəsinə təqdim olunmuşdur.

2013-cü il üçün mədəni-maarif müəssisələrinin şəbəkə proqnozlarının təhlili və təsdiqi üçün hazırlıq işləri aparılmış, “Mərkəzi Aparat”, “Mədəniyyət”, “Turizm” və “Təhsil” bölmələrinin xərc maddələri nəzərə alınmaqla paraqraflar üzrə hazırlanmış 2013-2016-cı illər üzrə büdcə və büdcədənkənar layihələrinin son təhlili aparılmış, təsdiq edilmiş və Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Növbəti ilin büdcə layihəsinin təsdiqi ilə əlaqədar komissiyalarda iştirak və onun müəyyən olunmuş qaydada müdafiəsi təmin edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin “Təhsil” bölməsi üzrə 2013-cü ilə gəlir və xərcləri üzrə büdcədənkənar xüsusi vəsait smetalarının layihələrinin təhlili həyata keçirilmişdir.

Mədəni-maarif müəssisələrinin 2013-cü il üzrə şəbəkə proqnozlarının layihələri təhlil edilmiş, təsdiq üçün rəhbərliyə təqdim edilmiş və təsdiq olunmuş proqnoz Azərbaycan Respublikası Maliyyə Nazirliyinə və yerlərə çatdırılmışdır.

İllik hesabatlara hazırlıq ilə əlaqədar işçilər təlimatlandırılmış, statistik formalar hazırlanmış, çoxaldılmış və yerlərə göndərilməsi təmin edilmişdir.

“Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunda olan uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inzibati və xidmətedici heyət işçilərinin say normativləri” yenidən işlənərək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilmişdir.

“Teatr, konsert, sirk müəssisələrində olan fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası” (hissə-85) hazırlanaraq elektron variantda baxılmaq üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmişdir.

Mədəniyyət və turizm işçilərinin, qismən büdcədən maliyyələşən teatr, konsert, sirk müəssisələrinin vəzifə maaşlarına əlavələrin təyin edilməsi qaydaları yenidən işlənərək elektron variantda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir.

“Mədəniyyət müəssisələrinə Respublika əhəmiyyətli statusunun verilməsi Qaydaları”nın layihəsi işlənib hazırlanmış və razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilmiş və Maliyyə Nazirliyinin razılıq məktubu alındıqdan sonra müvafiq sənədlərlə birlikdə təsdiq olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

“Mədəni-maarif, turizm müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”na əlavələr edilməsi və Azərbaycan Dövlət İncəsənət Muzeyinin rəhbər və mütəxəssislərinin əməyinin ödənişi yenidən işlənərək elektron variantda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edilmişdir.

Azərbaycan Dövlət İncəsənət Muzeyinə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 iyun 2011-ci il tarixli, 94 nömrəli Qərarı ilə Milli Muzey statusu verilməsi ilə əlaqədar Azərbaycan Respublikasının “Mədəniyyət haqqında” qanununun 7-ci fəslinin 47-ci maddəsinin 3-cü abzasına əsasən “Milli” status almış mədəniyyət təsisatlarının işçilərinin əmək haqlarının digər oxşar dövlət mədəniyyət təsisatlarının işçilərinə nisbətən daha yüksək ödənilməli olduğunu nəzərə alaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.07.2008-ci il tarixli, 152 nömrəli Qərarının 2 nömrəli əlavəsinə dəyişiklik edilməsi barədə qərar layihəsi hazırlanmış və baxılmaq üçün Nazirlər Kabinetinə göndərilmişdir.

Azərbaycan Respublikası Baş nazirinin müavini Ə.Həsənovun 18 avqust 2011-ci il tarixli, 11/11/kol-56 nömrəli dərkənarının icrası ilə əlaqədar olaraq balet artistləri və peşəkar bədii kollektivlərdə rəqs nömrələrinin ifaçı artistlərinin (rəqqasların) güzəştli şərtlərlə əmək pensiyası hüququnun müəyyənləşdirilməsi ilə bağlı müraciətləri və Azərbaycan Respublikasının Dövlət

Sosial Müdafiə Fondunun 09 avqust 2011-ci il tarixli, 02/05-194 nömrəli cavab məktubu nəzərə alınaraq balet artistləri və peşəkar bədii kollektivlərdə rəqs nömrələrinin ifaçı artistlərinin (rəqqasların) güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququnun müəyyənləşdirilməsini nəzərdə tutan ““Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Qanun layihəsi hazırlanmış və müvafiq sənədlərlə birlikdə razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna göndərilmişdir.

“Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramına uyğun olaraq respublikada teatr sahəsində idarəetmənin və maliyyə-iqtisadi mexanizmlərin təkmilləşdirilməsinin təmin edilməsi ilə əlaqədar islahatlar aparılaraq Beynəlxalq Muğam Mərkəzinin və Dövlət Mahnı və Muğam teatrlarının yeni strukturu işlənib və təsdiqə təqdim olunub.

**KADRLARLA İŞ**

Mədəniyyət və turizm sahəsində dövlət kadr siyasətinin həyata keçirilməsi istiqamətində «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununun, «Azərbaycan Respublikasının Dövlət Qulluqçularının Reyestrinin aparılması Qaydaları»nın və bu məsələyə aid digər normativ-hüquqi aktların icrası ilə bağlı zəruri işlər görülüb.

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə cari dövr ərzində elan edilmiş 3 müsabiqəyə 32 yer, 8 müsahibəyə isə 13 yer təqdim olunmuşdur.

Belə ki, elan edilən müsabiqələrə təqdim olunan 21 vəzifə Nazirliyin aparatından, 2 vəzifə Bakı şəhər, 9 vəzifə isə rayon mədəniyyət və turizm şöbələrində olan vəzifələrdir.

04 oktyabr 2011-ci ildə elan edilmiş müsahibənin nəticələrinə əsasən cari ildə 1 nəfər nazirliyin maliyyə-iqtisadiyyat şöbəsinin məsləhətçisi vəzifəsinə təyin edilmişdir.

2012-ci ilin avqust və oktyabr aylarında vakant vəzifələrə elan edilmiş müsabiqələrin test mərhələsi bitmiş, müsahibə mərhələsi isə ilin sonu və növbəti ilin əvvəlləri üçün nəzərdə tutulmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin apardığı məqsədyönlü işlərin keyfiyyətini artırmaq və idarəetməni təkmilləşdirmək məqsədilə Nazirliyin aparatında struktur dəyişikliyi aparılmışdır.

“Azərbaycan Respublikasının Dövlət Qulluqçularının Reyestrinin aparılması Qaydaları”nın tələblərinə uyğun olaraq Nazirliyin strukturunda çalışan dövlət qulluqçuları haqqında məlumat hər ayın əvvəli kadrlar şöbəsi tərəfindən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya göndərilmişdir.

Cari dövr ərzində nazirliyin aparatına, tabe təşkilat və müəssisələrə ümumilikdə 80 nəfərdən artıq işçi təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Əmək Məcəlləsində yaş həddi ilə bağlı edilmiş dəyişikliklərin icrası ilə əlaqədar hesabat dövründə 26 əməkdaşla çalışma müddətləri uzadılmışdır.

19 əməkdaş isə çalışmanın yaş həddinə çatması ilə əlaqədar işdən çıxarılmış və uzunmüddətli səmərəli əmək fəaliyyətləri ilə əlaqədar, onlara Nazirliyin Fəxri Fərmanı və pul mükafatı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Fərmanının, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarının və Mədəniyyət və Turizm Nazirliyinin Kollegiyasının Qərarının icrası ilə əlaqədar şəhər (rayon) mədəniyyət və turizm idarələrinin (şöbələrinin) aparatında mövcud olan baş mühasiblərin dövlət qulluğuna qəbul edilmələri ilə əlaqədar onlara kiçik dövlət qulluqçusu ixtisas dərəcəsi verilmişdir.

Hesabat dövründə Nazirliyin 16 əməkdaşına müvafiq ixtisas dərəcəsi verilmiş, 15 əməkdaşına Dövlət qulluğundakı qulluq stajları ilə bağlı vəzifə maaşlarına əlavə haqqın ödənilməsi təmin edilmişdir.

Brona alınma işləri ilə əlaqədar təlimata uyğun olaraq Nazirliyin və tabeliyində olan təşkilat və müəssisələrin əməkdaşlarının 2011-ci il üçün hərbi uçotu haqqında statistik məlumatlar ümumiləşdirilərək aidiyyəti üzrə təqdim edilmişdir.

Qeyd edilən dövr ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən fəxri adlarla təltif olunmuş 88 nəfər mədəniyyət və incəsənət xadiminə nazir Əbülfəs Qarayev fəxri adları təqdim etmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 06 iyul 2012-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əsasnaməsində edilən dəyişikliyin icrası məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin “Fəxri

Mədəniyyət İşçisi" və "Fəxri Turizm İşçisi" döş nişanlarının təsis edilməsi üçün müvafiq işlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşdırılması Qaydaları"nın təsdiq edilməsi barədə 27 iyul 2006-cı il tarixli 432 nömrəli Fərmanının icrası məqsədilə müvafiq işlər görülmüşdür.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Tərəfindən, cari ilin 07 iyun tarixində Dövlət orqanlarında işləyən gənclərin peşə bacarıqlarının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən gənc menecerlərin formalaşdırılması və 01-02 avqust tarixlərində isə Dövlət qulluqçularının xidmət fəaliyyətinin qiymətləndirilməsinin həyata keçirilməsi məqsədilə keçirilən təlimlərdə nazirlik əməkdaşlarının iştirakı təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 10.1-ci bəndinin icrası məqsədilə, cari ilin 30 noyabr tarixində, Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşlarının iştirakı ilə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanun və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn vəzifələr, Azərbaycanda Dövlət qulluğu islahatı, Məmur etikası, Dövlət qulluqçularının etik davranış məsələlərinin həllində nitq mədəniyyətinin, ünsiyyət bacarığının rolu, Azərbaycanın Dövlət idarəçiliyində etik davranış normaları, İnformasiya cəmiyyəti, cəmiyyətin informasiyalaşdırılması və informasiya mədəniyyəti, Dövlət tərəfindən qəbul edilmiş qanunların tənzimlənməsində, həyata keçirilməsində və tətbiq edilməsində informasiyanın rolu mövzularında dəyirmi masa təşkil edilmişdir.

## ANALİTİK TƏHLİL VƏ PROQRAM TƏMİNATI

Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanında verilmiş tapşırıqların icrası məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 oktyabr 2012-ci il tarixli 235 nömrəli qərarı ilə yeni redaksiyada təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nda Mədəniyyət və Turizm Nazirliyi üzrə müəyyənləşdirilmiş elektron xidmətlərin reqlamentləri yenidən hazırlanmışdır.

Yuxarıda göstərilən Fərmanın və Nazirlər Kabinetinin müvafiq Qərarlarının yerinə yetirilməsi məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 29 iyun 2012-ci il tarixli 361 nömrəli əmrinə uyğun olaraq Nazirlikdə Elektron xidmətlərin göstərilməsi üçün müasir standartlara cavab verən, sertifikatla təmin edilən ekranlaşdırılmış server otağı ("DATA" mərkəz) daxili imkanlar hesabına yaradılmış və 30 sentyabr 2012-ci il tarixində tam istifadəyə verilmişdir.

Eyni zamanda, Nazirliyə ("DATA" mərkəzə) optik xətt çəkilmiş və "AzDataCom" şəbəkəsi vasitəsilə EHDİS portalına qoşulmaq üçün müvafiq işlər aparılmışdır. EHDİS ("Elektron Hökumət" Dövlət İnformasiya Sistemi) Elektron Xidmətlər Portalına qoşulmaq üçün e-imza və xüsusi şifrə alınmış, Nazirliyin aparatında çalışan əməkdaşların e-imza ilə təmin olunması üçün Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzinə müvafiq müraciət məktubu göndərilmişdir.

2012-ci ilin dekabr ayının sonunda "AzDataCom" şəbəkəsi vasitəsilə EHDİS portalına qoşulmaq üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tələblərinə uyğun olaraq müvafiq serverlərin və şəbəkə avadanlıqlarının alınması təmin edilmişdir. Hazırda işlər davam etdirilir.

Nazirliyin saytı yenidən proqramlaşdırılmış və 25 iyul 2012-ci il tarixində istifadəyə verilmişdir. Nazirliyin rəsmi saytı (www.mct.gov.az) Milli Net 2012 internet müsabiqəsinin Dövlət və bələdiyyə saytları nominasiyasında II yerə layiq görülmüşdür.

28.09.2012-ci il tarixində Ümumrespublika Daxili Turizm Konfransında Nazirliyin "Elektron xidmət yolu ilə Lisenziyaların verilməsi" sisteminə dair təqdimat keçirilmişdir.

Nazirliyin e-xidmətlər saytında (www.e-services.mct.gov.az) aşağıdakı interaktiv xidmətlər mövcuddur:

1. Turizm sahəsi üzrə sənədlərin qəbulu
   – Turizm fəaliyyəti
      – Fiziki şəxslər tərəfindən turizm fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün Ərizələrin qəbulu
      – Hüquqi şəxslər tərəfindən turizm fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün Ərizələrin qəbulu
   – Mehmanxana fəaliyyəti
      - Fiziki şəxslər tərəfindən mehmanxana fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün Ərizələrin qəbulu
      - Hüquqi şəxslər tərəfindən mehmanxana fəaliyyətinə xüsusi razılıq (lisenziya) alınması üçün Ərizələrin qəbulu
   – Yerləşdirmə obyektinin təsnifatı
      - Fiziki şəxlər üçün yerləşdirmə obyektinin təsnifatdan keçirilməsinə dair Ərizələrin qəbulu
      - Hüquqi şəxlər üçün yerləşdirmə obyektinin təsnifatdan keçirilməsinə dair Ərizələrin qəbulu
2. E-müraciət
   – Ərizə, şikayət, təkliflərin qəbulu

– Qəbula yazılmaq

- Rəhbər şəxslərin qəbuluna yazılmaq

Turizm üzrə informasiya naviqasiya sisteminin təkmilləşdirilməsi işləri davam etdirilmişdir. “Evrovision” mahnı müsabiqəsinə hazırlıq dövrlərində (gomap.az) Nazirliyin yaratdığı elektron xəritədə lazımı məlumatlar çevik olaraq yeniləşdirilmiş festivalın saytı ilə inteqrasiya edilməsi işləri təmin edilmişdir.

Həmçinin, 28.03.2012-ci il tarixində Nazirliyin sifarişi ilə SİNAM şirkətinin hazırladığı GoMap.Az Online Naviqatorunun Facebook sosial şəbəkəsində keçirtdiyi müsabiqənin qaliblərinin mükafatlanma mərasimi keçirilmişdir.

Müsabiqəni keçirməkdə ilk məqsəd “Evrovision” ərəfəsində, GoMap.Az Online Naviqatoruna dəstək olmaqla, Azərbaycanı bütün dünyaya tanıtmaq üçün hər kəsə imkan yaratmaq idi.

Beləliklə:

Müsabiqədə 87 iştirakçı tərəfindən təqdim olunmuş, 255 ədəd fotoşəkil iştirak etmişdir, bu fotoşəkillərə 34 672 dəfə rəy yazılmışdır. Müsabiqə nəticəsində cəmi 532 611 nəfər Facebook şəbəkə istifadəçisi səhifə ilə tanış olmuşdur.

2012-ci ilin sonunda saytın (m.gomap.az) mobil qurğular üçün versiyası istifadəyə verilmişdir.

Qeyd edilənlərlə yanaşı Nazirlər Kabinetinin 24 dekabr 2012-ci il tarixli, 318 nömrəli Qərarına əsasən gomap.az portalı Ünvan reyestri ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin siyahısına daxil edilmişdir.

2012-ci il tarixində Nazirliyin 147 qaynar xətt telefon məlumat sisteminə 135010 zəng daxil olmuşdur.

Nazirliyin tabeliyində olan kitabxanalarda informasiya texnologiyalarının tətbiqinin asanlaşdırılması məqsədilə Avtomatlaşdırılmış Kitabxana İnformasiya və İdarəetmə Sistemi (Automated Library Information System Administration) ALİSA yaradılmışdır.

Ümumiyyətlə İnformasiya və Kommunikasiya Texnologiyaları ilə əlaqədar müxtəlif tarixlərdə keçirilən bir çox konfrans, seminar və digər tədbirlərdə şöbənin əməkdaşları da iştirak etmiş, yeni təcrübə və texnologiyalarla tanış olmuş və işdə tətbiq etmişlər.

REGİONLARLA İŞ

2012-ci ilin yanvar ayında şəhər (rayon) mədəniyyət və turizm idarələrinin (şöbələrinin) 2011-ci ildə fəaliyyəti təhlil edilmiş, ümumiləşdirilmiş və müzakirə olunmuşdur.

Fevral ayının 17-də Xaçmaz, 22-də Astara, martın 02-də Zaqatala və 14-də Bərdə şəhərlərində şəhər (rayon) mədəniyyət və turizm idarələrinin (şöbələrinin) 2011-ci il ərzində fəaliyyətinə həsr olunmuş zona müşavirələri keçirilmişdir.

Mart ayının 16-da və 17-də müvafiq olaraq Ağcabədi rayon Taxta Körpü qəsəbəsində və Goranboy şəhərində incəsənət ustalarının iştirakı ilə Novruz bayramına həsr olunmuş konsert proqramı təşkil edilmişdir.

Mart ayının 19-da Bakı şəhərində keçirilmiş Novruz bayramı şənliklərində 32 şəhər və rayonun satış-yarmarkaları təşkil edilmiş və folklor kollektivlərinin iştirakı təmin olunmuşdur.

Şəhər (rayon) mədəniyyət və turizm idarələrinə (şöbələrinə) əlavə ştatlar verilməsi məqsədilə təkliflər hazırlanmışdır.

Aprel ayının 03-dən 06-dək Şəmkir rayon Mədəniyyət və Turizm şöbəsinin və tabeliyində olan müəssisələrin fəaliyyəti rayonda təhlil edilmiş, Nazirliyin Kollegiyasında müzakirə məqsədilə müvafiq arayış və qərar layihəsi hazırlanmışdır.

May ayının 01-dən 07-dək Masallıda Uşaq-gənclər muğam ifaçılarının VI respublika müsabiqəsi keçirilmişdir.

"Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 09 aprel 2012-ci il tarixli Sərəncamının icrası məqsədilə may ayının 07-dən 09-dək Muzey Mərkəzində Şuşa şəhərinin fotoşəkillərindən və Şuşa rayon incəsənət məktəbinin şagirdlərinin rəsmlərindən ibarət sərgi keçirilmiş, kataloq nəşr olunmuşdur.

İyun ayının 05-dən 09-dək Bakı şəhərində LN İncəsənət Mərkəzində "Mədəniyyət abidələrimiz" adlı foto müsabiqənin yekun turu və qaliblərin əsərlərindən ibarət sərgi təşkil olunmuş, sərginin kataloqu hazırlanmışdır.

İyun ayının 11-dən 14-dək Siyəzən və Qusar rayonlarında Milli Qurtuluş Gününə, oktyabr ayının 15-dən 19-dək Hacıqabul, Ucar, Göyçay və Kürdəmir rayonlarında Dövlət Müstəqilliyi Gününə həsr olunmuş yaradıcılıq görüşləri keçirilmişdir.

İyun ayının 19-dan 22-dək Ağdam və Bərdə rayonlarında Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində mədəni-kütləvi tədbirlər keçirilmişdir.

İyul ayında Mədəniyyət və Turizm Nazirliyi Aparatının əməkdaşlarının 01 avqust-31 dekabr 2012-ci il ərzində respublikanın bölgələrinə ezamiyyətlərini əks etdirən cədvəl hazırlanaraq rəhbərliyə təqdim olunmuşdur.

İyul ayının 26-da Şəmkir şəhərində "Şəmkir rayon Mədəniyyət və Turizm şöbəsinin və tabeliyində olan müəssisələrin fəaliyyəti barədə" mövzusunda səyyar kollegiya iclası keçirilmişdir.

2012-ci ilin oktyabr ayının 08-dən 12-dək Ağstafa rayonunda Aşıq Şəmşir adına Gənc aşıqların VI respublika müsabiqəsinin keçirilməsi təmin edilmişdir.

Mədəniyyət müəssisələrin vəziyyəti ilə yerində tanış olmaq, mədəniyyət və turizm sahələrinin inkişafına dair dövlət proqramlarının icrası istiqamətində görülən işləri təhlil etmək, Nazirliyin yerli qurumlarının fəaliyyətini təkmilləşdirmək məqsədilə oktyabr ayının 15-17-də Goranboy rayonunda, oktyabr ayının 22-24-də Göygöl rayonunda, noyabr ayının 12-16-da Saatlı və İmişli rayonlarında mədəniyyət və turizm sahələrinin rəhbərləri ilə işçi müşavirələri kecirilmişdir.

2012-ci il ərzində regionlarda keçirilmiş «İstedadlı uşaqlar» müsabiqəsi qaliblərinin iştirakı ilə cari ilin dekabr ayının 04-dən 08-dək Yevlax şəhərində yekun tədbir təşkil edilmişdir.

Cari ilin noyabr ayının 19-dan 23-dək Ağdaşda, noyabr ayının 26-dan 30-dək Mingəçevirdə rəssamların yaradıcılıq emalatxanası keçirilmiş, Ağdaş Dövlət Rəsm Qalereyasının fonduna 16 əsər, Mingəçevir Dövlət Rəsm Qalereyasının fonduna 15 əsər təhvil verilmişdir.